# XƏZƏR XƏBƏR

KHAZAR REVIEW

№ 422 Noyabr 2022



AYLIQ DƏRGİ
ISSN 2218-2772
khazar-review.khazar.org



# PREZİDENT İLHAM ƏLİYEV ZƏFƏR GÜNÜ MÜNASİBƏTİLƏ ŞUŞADA TƏŞKİL OLUNAN TƏDBİRDƏ İŞTİRAK EDİB

# PRESIDENT ILHAM ALIYEV ATTENDS THE EVENT ORGANIZED IN SHUSHA ON VICTORY DAY

Noyabrın 8-də Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və oğulları Heydər Əliyev Zəfər Günü münasibətilə Şuşada təşkil olunan tədbirdə iştirak ediblər.

Dövlətimizin başçısı hərbçilər qarşısında çıxış edib.

Sonra xatirə şəkli çəkdirildi.

Sonda hərbi qulluqçuların təntənəli keçidi oldu.

On November 8, President of the Republic of Azerbaijan, Supreme Commander-in-Chief of the Armed Forces Ilham Aliyev, First Lady Mehriban Aliyeva and their son Heydar Aliyev participated in the event organized in Shusha on the occasion of Victory Day. The head of our state delivered a speech in front of the military.

Then a memory photo was taken.

A ceremonial march of military personnel ensued at the end.





# İÇİNDƏKİLƏR


Nailəxanım təqaüdünün təqdimat mərasimi ....6
Mediasiya təşkilatı ilə əməkdaşlıq ....10
Xəzər Universitetinin əməkdaşı Stenford Universitetinin 2022-ci ilin reytinq siyahısında ....11
Əcnəbi doktorantlarla görüş ....13
Xəzər Universitetində Çin Tədqiqatlar Mərkəzi fəaliyyətə başladı ....14
Vurğun Əyyubun 65 illiyi və "Ədəbi həyat" kitabının təqdimatı ilə əlaqədar xatirə tədbiri ....20
Mikrobiologiya İnstitutu və Torpaqşünaslıq və Aqrokimya İnstitutu ilə müqavilə imzalanmışdır ....22
Qazi Universitetinin və Dumlupinar Universitetinin nümayəndələri "Xəzər"də ....24
İngilis dili və ədəbiyyatı departamentinin müəllimi Mursiya (UCAM) Katolik Universitetində ....26
Neft mühəndisliyi departamentinin müdiri İtaliyanın Turin Politexnik Universitetində ....27
Latviya Həyat Elmləri və Texnologiyaları Universitetinin nümayəndələri "Xəzər"də ....29
"Xəzər"də karyera sərgisi ....32
"Narkomaniyaya qarşı mübarizə" mövzusunda maarifləndirici tədbir ....34
Аккредитация вузов в Азербайджане – что и как будет оцениваться? ....35
"Xəzər"in xarici nəşrləri ....36
AMEA Nizami adına Ədəbiyyat İnstitutunun xəbərləri ....38
*Hamlet İsaxanlı*. Nizami Gəncəvi. Kimliyi və ideyalar aləmi ....40
"Xəzər"ə təşəkkür məktubu ....46
8 Noyabr Zəfər Gününə həsr olunmuş tədbir ....48
"Solma, yaşa, xarıbülbül" adlı fleşmob keçirilmişdir ....49
Dekan Almaniyanın Azad Berlin Universitetində *MEDIATS* layihə toplantısında ....50
Xəzər Universitetinin əməkdaşları *MEDIATS* Beynəlxalq idarəetmə görüşündə ....51
"Bilim Bakı" Mərkəzinin direktoru tələbələr üçün infosessiya keçirmişdir ....53
Tələbələr Baytarlıq Elmi-Tədqiqat İnstitutunda ....54
"100 il şərəfli ömür" filminin təqdimatı ....55
*İsmixan Yusubov*. "Xəzər"in sorağında" risaləsini oxuduqdan sonra paylaşmaq istədiyim incəliklər haqqında ....56
Orta Doğu Texniki Universitetinin nümayəndələri "Xəzər"də ....69
Edu Company Təhsil Şirkətinin İdarə Heyəti ilə görüş ....70
Cintana Education şirkətinin nümayəndəsi ilə görüş ....73



1995-ci ilin yanvarından nəşr olunur

**Təsisçi:**
Xəzər Universiteti

**Baş redaktor:**
Hamlet İsaxanlı

**Baş redaktor müavini:**
Əlirza Balayev

**Foto:**
Multimedia Mərkəzi

Xəzər Universiteti

Ünvan:
Bakı, Məhsəti küçəsi 41

Tel.: (+9912 323 93 13
(+9912 421 10 93
Mob.: (+99450) 321 31 69

E-mail: contact@khazar.org
Tiraj: 3000

**Redaksiya heyəti:**
İsa Həbibbəyli
Alla Axundova
Şahin Fazil
Knyaz Aslan

**İngilis dilində**
mətnlərin redaktoru:
Zamirə Qurbanova

**Kompüter tərtibatçısı:**
Günel Əkbərova

# CONTENTS


Presentation Ceremony of Nailekhanim Scholarship....6
Cooperation with Mediation Organization....10
Khazar University Staff Member on Stanford University's 2022 Ranking List....11
Meeting with Foreign Doctoral Students....13
Chinese Research Center Launched at Khazar University....14
Commemorative Event on the 65th Anniversary of Vurgun Ayyub and Presentation of the Book "Literary Life"....20
An Agreement Signed with Institute of Microbiology and Institute of Soil Science and Agrochemistry....22
Representatives of Gazi University and Dumlupinar University at Khazar University....24
Lecturer of Department of English Language and Literature at Catholic University of Murcia (UCAM)....26
Head of Petroleum Engineering Department at Polytechnic University of Turin, Italy....27
Representatives of Latvian University of Life Sciences and Technologies at Khazar University....29
Career Fair at Khazar University....33
An Educational Event on "Fight against Drug Addiction"....34
"Accreditation of Higher Education Institutions in Azerbaijan - What and How Will it be Evaluated" (*in russian*)....35
"Khazar"s Foreign Publications....36
News of the Institute of Literature of ANAS Named After Nizami (*in Azerbaijani*)....38
*Hamlet Isakhanli*. Nizami Ganjavi. His identity and the world of ideas (*in Azerbaijani*)....40
Letter of Thanks to Khazar University....66
Event dedicated to November 8 Victory Day....48
A Flashmob"Do not fade, live, khari-bulbul" Held....49
Dean in *MEDIATS* Project Meeting at Free Berlin University in Germany....50
Khazar University Staff Members Takes Part in MEDIATS Project Meetings....51
"Bilim Baku" Center Director Holds an Information Session for Students....53
Students at Veterinary Research Institute....54
"100 years of glorious life" Film Presentation....55
*Ismikhan Yusubov*. About the Details I want to share after Reading the Treatise "In Search of Khazar" (*in Azerbaijani*)....56
Middle East Technical University Representatives at Khazar University....69
Meeting with Management Board of Edu Company Education Company....70
Meeting with Representative of Cintana Education....73



It has been published since January 1995

**Founder:**
Khazar University

**Editor-in-chief:**
Hamlet Isakhanli

**Associate editor:**
Alirza Balayev

**Photo:**
Multimedia Centre

Khazar University

Ünvan:
Bakı, Məhsəti küçəsi 41

Tel.: (+9912 323 93 13
(+9912 421 10 93
Mob.: (+99450) 321 31 69

E-mail: contact@khazar.org
Tiraj: 3000

**Editorial members:**
Isa Habibbayli
Alla Akhundova
Shahin Fazil
Knyaz Aslan

**Editor of English Texts:**
Zamira Gurbanova

**Computer graphics:**
Gunel Akbarova

# NAİLƏXANIM TƏQAÜDÜNÜN TƏQDİMAT MƏRASİMİ

# PRESENTATION CEREMONY OF NAILEKHANIM SCHOLARSHIP

Noyabrın 11-də JW Marriott Abşeron hotelində Nailəxanım Fondunun təsis etdiyi Nailəxanım təqaüdünün təqdimatı keçirildi, 2022-2025-ci illər arasında Xəzər Universitetində təhsil almaq üçün Fond tərəfindən seçilən xanım tələbələr mükafatlandırıldı.

Tədbirdə Xəzər Universiteti və "Dünya" məktəbinin rəhbərliyi, fakültə dekanları və departament müdirləri, ölkənin görkəmli elm və mədəniyyət xadimləri, Azərbaycan Təhsil Nazirliyinin, ali təhsil müəssisələri və QHT nümayəndələri, BMT-nin Azərbaycandakı nümayəndəliklərinin təmsilçiləri, Çili və Meksikanın Azərbaycandakı səfirləri, İndoneziya və Mərakeş səfirliklərinin birinci katibləri iştirak edirdilər.

On November 11, at the JW Marriott Absheron Hotel, the presentation of the Nailakhanim scholarship, established by the Nailekhanim Foundation, was held. Female students selected by the Foundation to study at Khazar University between 2022 and 2025 were awarded.

The event was attended by administration of Khazar University and "Dunya" school, faculty deans and heads of departments, outstanding scientific and cultural figures of the country, representatives of the Ministry of Education of Azerbaijan, higher education institutions and NGOs, representatives of UN missions in Azerbaijan, Embassy of Indoensia in Azerbaijan, Ambassador of Chile in Azerbaijan, Ambassador of the United Mexican States, and the First Deputy of Embassy of the Kingdom of Morocco in our country.










Tədbirin açılış hissəsində Xəzər Universitetinin rektoru dosent İradə Xəlilova, Xəzər Universiteti Direktorlar və Qəyyumlar Şurasının üzvü Aygün Gardiner, Təhsil Nazirliyinin Xaricdə təhsil və beynəlxalq tələbələrlə iş şöbəsinin müdiri Müjdat Həsənov və BMT-nin Azərbaycan Respublikasındakı rezident əlaqələndiricisi Vladanka Andreyeva çıxış edərək, xarici xanım vətəndaşlar üçün Nailəxanım təqaüdünün təsis edilməsinin əhəmiyyətindən danışdılar, Azərbaycanla xarici ölkələr arasında təhsil sahəsində daha bur əlaqə vasitəsi olduğunu vurğuladılar.

Nailəxanım İsayevanın həyat və fəaliyyətinə həsr olunmuş videofilm nümayiş etdirildi, Xəzər Universiteti Kamera orkestrinin (bədii rəhbər universitetin Musiqi və incəsənət departamentinin müdiri, əməkdar müəllim, pianoçu Zülfiyyə Sadıqova) müşayiəti ilə Nailəxanım İsayevanın Hamlet İsaxanlının sözlərinə bəstələdiyi "Dünyam" mahnısı universitetin və "Dünya" məktəbinin birləşmiş xoru tərəfindən universitetin müəllimi Məhsəti Cabbarovanın dirijorluğu ilə ifa olundu.

Sonra Aygun Gardiner`in moderatorluğu ilə "Qadınların səlahiyyətlərinin artırılmasında ali təhsilin rolu: çağırışlar və imkanlar" mövzusunda panel müzakirəsi keçirildi. Müzakirədə BMT-nin Uşaq Fondunun (UNICEF) Azərbaycandakı nümayəndəsinin müavini William abi Abdallah, Bakı Slavyan Universitetinin Azərbaycan ədəbiyyatı kafedrasının müdiri Rəhilə Qeybullayeva, ADA Universitetinin Akademik işlər üzrə prorektoru Vəfa

(Ardı səh.8-də)



In their opening remarks, Khazar University rector associate professor Irada Khalilova, member of Khazar University Board of Directors and Trustees Aygün Gardiner, head of the Department of Education Abroad and Work with International Students of the Ministry of Education Mujdat Hasanov, and Resident Coordinator of the UN in the Republic of Azerbaijan Vladanka Andreyeva spoke about the importance of establishing the scholarship, and emphasized that it is another effective means of communication between Azerbaijan and foreign countries in the field of education.

A video film dedicated to the life and activities of Nailekhanim Isayeva was shown, accompanied by the Khazar University Chamber Orchestra (artistic director, the head of the university's Music and Art Department, honored teacher, pianist Zulfiya Sadigova), and the song "Dunya" composed by Nailakhanim Isayeva to the words of Hamlet Isakhanli, was performed by the university and the "Dunya" school united choir under the conductorship of university faculty member Mahsati Jabbarova.

Then a panel discussion on "The role of higher education in empowering women: challenges and opportunities" was held under the moderatorship of Aygun Gardiner. William abi Abdallah, deputy representative of the UN Children's Fund (UNICEF) in Azerbaijan, Rahilya Geibullayeva, head of the Department of Azerbaijani Literature at Baku Slavic University, Vafa Kazdal, vice-rector for Academic Affairs of ADA University, and Gunel Aghabeyli, founder and director of the Azerbaijan Women in Science Youth

(To be continued page 8)



Kazdal və Azərbaycan Qadınları Elmdə Gənclər Təşkilatının təsisçisi və direktoru Günel Ağabəyli iştirak etdilər.

Sonra mükafatların təqdimatı oldu. İtaliya vətəndaşı Klaudia Palazzo`ya (Beynəlxalq əlaqələr üzrə doktorantura təhsili) və İndoneziya vətəndaşı Brilliyant Windy Khairunnisa`ya (Beynəlxalq əlaqələr və diplomatiya üzrə magistr təhsili) mükafatları Xəzər Univesitetinin təsəsçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor, akademik Hamlet İsaxanlı, BMT-nin Azərbaycan Respublikasındakı rezident əlaqələndiricisi Vladanka Andreyeva və İndoneziyanın Azərbaycandakı səfirliyinin birinci katibi İndra Agustini təqdim etdilər. Təqaüdçü tələbələr Nailəxanım fonduna minnətdarlıqlarını bildirdilər.

Qeyd edək ki, görkəmli pedaqoq, təhsil təşkilatçısı, "Dünya" məktəbinin yaradıcısı və qurucusu Nailəxanım İsayevanın xatirəsinə təsis edilən Nailəxanım Fondunun təqaüdü ikinci dəfə təqdim olundu. İlk təqdimat 2021-ci ilin noyabr ayında əfqanıstanlı tələbə Bibi Raihan Hamidi`yə mükafatın təqdim olunması ilə Xəzər Universitetində keçirilmişdi.

*ARB* telekanalı Nailəxanım təqaüdünün təqdimatı haqqında süjet nümayiş etdirib:

*https://www.youtube.com/watch?v=6sPaJTBppfM*

Organization, took part in the discussion.

Then there was the presentation of awards. The awards to Italian citizen Claudia Palazzo (PhD studies in International Relations) and Indonesian citizen Brilliant Windy Khairunnisa (Master's studies in International Relations and Diplomacy) were introduced by the founder of Khazar University, Chairman of the Board of Directors and Trustees, professor, academician Hamlet Isakhanli, Vladanka Andreyeva, UN Resident Coordinator in the Republic of Azerbaijan, and Indra Agustini, First Secretary of the Indonesian Embassy in Azerbaijan. The scholarship winners expressed their gratitude to the Nailekhanim Foundation.

Note that the scholarship of Nailekhanim Foundation, which was established in memory of Nailekhanim Isayeva, the outstanding educator, educational organizer, founder of "Dunya" school, was presented for the second time. The first presentation was held in November 2021 at Khazar University with the presentation of the award to Afghan student Bibi Raihan Hamidi.

*ARB* TV broadcast a video on the presentation of Nailekhanim scholarship.

*https://www.youtube.com/watch?v=6sPaJTBppfM*


Khazar
University






## MEDİASİYA TƏŞKİLATI İLƏ ƏMƏKDAŞLIQ

Oktyabrın 18-də Xəzər Universitetində Bakı 15 saylı Mediasiya Təşkilatının rəhbərliyi ilə görüş keçirilib.

Görüşdə Xəzər Universitetinin rektoru İradə Xəlilova, İqtisadiyyat və menecment fakültəsinin dekanı Ceyhun Məmmədov, Mediasiya Şurasının üzvü, Bakı 15 saylı Mediasiya Təşkilatının direktoru Qasım Şaliyev və Mediasiya üzrə milli təlimçi Natiq Məmmədov iştirak edib.

Qarşılıqlı əməkdaşlığın qurulmasının ətraflı müzakirə olunduğu görüşdə Xəzər Universiteti ilə Bakı 15 saylı Mediasiya Təşkilatı memorandum imzalanıb.

Memoranduma əsasən, biznes mühitində mediasiya ənənələrinin yaranması, dünyanın qabaqcıl mediasiya nailiyyətlərinin yerli sahibkarlığın inkişafına tətbiq edilməsi, bu sahədə sahibkarlıq subyektlərinin maarifləndirilməsi və fəaliyyətinin inkişafına köməklik göstərilməsi məqsədilə həyata keçirilən elmi və elmi-praktik konfrans, seminar və forumlarda Universitetin elmi heyəti ilə Mediasiya Təşkilatının mütəxəssisləri müvafiq təcrübənin öyrənilməsi və elmi əsaslarının formalaşdırılmasında birlikdə çalışacaqlar.

Həmin memorandum çərçivəsində Mediasiya Təşkilatı Universitetin mediasiya, iqtisadiyyat, maliyyə, biznes və idarəetmə ixtisasları üzrə təhsil alan tələbələrinin tədqiqat-araşdırma, kurs və buraxılış işlərinin, magistrantların dissertasiya mövzularının Təşkilatın həyata keçirdiyi layihələrin məzmunu ilə

## COOPERATION WITH MEDIATION ORGANIZATION

On October 18, a meeting was held with the administration of Mediation Organization Baku No.15 at Khazar University.

Rector of Khazar University Irada Khalilova, Dean of the School of Economics and Management Jeyhun Mammadov, Member of the Mediation Council, Director of Mediation Organization Baku No. 15 Gasim Shaliyev and National Mediation Trainer Natig Mammadov took part in the meeting.

A memorandum was signed between Khazar University and Baku Mediation Organization No. 15 at the meeting where the establishment of mutual cooperation was discussed in detail.

According to the memorandum, in scientific and scientific-practical conferences, seminars and forums held to create mediation traditions in the business environment, to apply the world's leading mediation achievements to the development of local entrepreneurship, to educate entrepreneurship subjects in this field and to assist in the development of their activities, the scientific staff of the University and the specialists of the Mediation Organization will work together in the study of the relevant experience and the formation of scientific basis.

Within the framework of that memorandum, the Mediation Organization will create conditions for the University's students majoring in mediation, economics, finance, business and management to connect the research, course and graduation works, and the dissertation topics of the master's students with

əlaqələndirməsi üçün şərait yaradacaq.

Razılaşmaya əsasən, dünyanın tanınmış universitetləri ilə tərəfdaşlıq əsasında mediasiya, iqtisadiyyat, biznes və idarəetmə ixtisasları üzrə rəqabət qabiliyyətli yerli kadrların hazırlanması məqsədilə universitet tələbələri Mediasiya Təşkilatında biznes konfliktlərində danışıqlar və mediasiya təcrübəsini öyrənəcək, günlük seminar və təcrübə proqramlarında iştirak edəcəklər.

Bir sıra saytlar tədbir barədə xəbər yayımlayıb.

the content of the projects implemented by the Organization.

According to the agreement, university students will learn negotiation and mediation in business conflicts at the Mediation Organization, and participate in daily seminars and practical programs, in order to train competitive local personnel in mediation, economics, business and management specialties based on partnership with world-renowned universities. A number of websites published news about the event.

*https://qaynarinfo.az/az/mediasiya-sahesinde-noevbeti-semereli-emekdasliq-qurulur* və s.

## XƏZƏR UNİVERSİTETİNİN ƏMƏKDAŞI STENFORD UNİVERSİTETİNİN 2022-Cİ İLİN REYTİNQ SİYAHISINDA

## KHAZAR UNIVERSITY STAFF MEMBER ON STANFORD UNIVERSITY'S 2022 RANKING LIST

Stanford University

2019-cu ildən başlayaraq hər ilin oktyabr ayında ABŞ-ın Stenford Universiteti dünyanın ən nüfuzlu alimlərinin reytinq siyahısını dərc edir.

2022-ci ilin siyahısına 6 elm sahəsi üzrə ölkədə və xaricdə fəaliyyət göstərən 14 azərbaycanlı alim daxil edilmişdir ki, onlar da 8 təşkilatın nümayəndəsidir. Xəzər Universitetinin Kimya və kimya mühəndisliyi departamentinin koordinatoru Rasoul Moradi də mühəndislik sahəsində reytinq siyahısında yer almışdır.

Qeyd edək ki, reytinq siyahısı, baş ofisi Amsterdam şəhərində yerləşən, dünyanın ən böyük və nüfuzlu akademik nəşriyyatı olan "Elsevier" şirkətinin "Scopus" bazasının bir il əvvəlki məlumatları əsasında tərtib edilir. Siyahı aşağıdakı meyarlar üzrə tərtib edilir və iki mərhələdə həyata keçirilir: İlkin seçim məhsuldarlıq göstəricisi əsasında aparılır. Belə ki, 1-ci mərhələdə ən azı 5 məqaləsi "Scopus" bazasında indeksləşən alimlər seçilir. Sonrakı mərhələdəki seçim isə keyfiyyət göstəriciləri əsasında aparılır. Keyfiyyət göstəriciləri dedikdə, istinadların ümumi sayı, özünə istinadlar nəzərə alınmadan istinadların sayı, h-indeksi (Hirş indeksi), hm-indeksi (çoxmüəllifli məqalələr üçün h-indeksi), təkmüəllifli məqalələrə istinadların sayı, birinci müəllifi olduğu məqalələrə istinadların sayı və s. nəzərdə tutulur. Sonra bu göstəricilər əsasında ümumiləşmiş (kompozit) indikator hesablanır və alimlər bu indikatora nəzərən ranqlaşdırılır. Ranqlaşdırmadan sonra ilk 2%-ə daxil olan alimlərin reytinq siyahısı tərtib edilir. Ranqlaşdırma 22 elm sahəsinin hər biri üzrə ayrılıqda aparılır.

Saytlar bu barədə xəbər yayımlayıb.

Every October, starting from 2019, the US Stanford University publishes a ranking list of the world's most influential scientists.

The list of 2022 includes 14 Azerbaijani scientists working in the country and abroad in 6 fields of science, who are also representatives of 8 organizations. Rasoul Moradi, coordinator of Khazar University's Department of Chemistry and Chemical Engineering, was also included in the ranking list in the field of engineering.

It should be noted that the ranking list is compiled based on the previous year's data of the" Scopus" database of "Elsevier", the world's largest and most prestigious academic publishing house, headquartered in Amsterdam. The list is compiled according to the following criteria and is carried out in two stages: The initial selection is made on the basis of the productivity indicator. Thus, in the 1st stage, scientists whose at least 5 articles are indexed in the "Scopus" database are selected. The selection at the next stage is based on quality indicators. By quality indicators, the total number of references, the number of references excluding self-references, h-index (Hirsch index), hm-index (h-index for multi-authored articles), number of references to single-authored articles, number of references to first-authored articles, etc. are intended. Then, based on these indicators, a generalized (composite) indicator is calculated and scientists are ranked based on this indicator. After ranking, a ranking list of scientists who are in the first 2% is drawn up. The ranking is done separately for each of the 22 scientific fields.

Websites published news about it.

*https://ict.az/az/news/6487/*



## H.CAVİDİN EV MUZEYİNDƏ AÇIQ DƏRS

Xəzər Universiteti Dillər və ədəbiyyatlar departamentinin müəllimi dosent Xatirə Yusifova tərəfindən oktyabrın 18-də Hüseyn Cavidin 140 illiyi ilə əlaqədar olaraq şairin ev muzeyində "H.Cavid romantizminin bədii-estetik xüsusiyyətləri" mövzusunda açıq dərs keçirilmişdir.

Dərsdə Azərbaycan romantizminin yaranması və əsas istiqamətləri, Hüseyn Cavidin həyatı, mühiti və yaradıclığı haqqında məlumat verilmişdir.

## OPEN LESSON IN H.JAVID'S HOME MUSEUM

On October 18, On the occasion of Huseyn Javid's 140th birthday, an open class on "Artistic-aesthetic characteristics of H. Javid's romanticism" was held in the poet's home museum by associate professor Khatira Yusifova, the lecturer of the Department of Languages and Literatures of Khazar University.

The lesson provided information about the emergence and main directions of Azerbaijani romanticism, the life, environment and creativity of Huseyn Javid.



## ƏCNƏBİ DOKTORANTLARLA GÖRÜŞ

Oktyabrın 19-da Xəzər Universitetinin İqtisadiyyat və menecment departamenti əcnəbi doktorantlarla görüş keçirdi. Görüşün əsas məqsədi əcnəbi doktorantların Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının tələbləri, daxili sənədləşmə qaydaları barədə məlumatlandırılması, dissertasiyanın və elmi məqalələrin hazırlanması və dərc edilməsi üzrə onların təlimatlandırılmasından ibarət idi.

Eyni zamanda, qarşıya qoyulan əsas məsələlər arasında əcnəbi doktorantları xarici dövri elmi nəşrlərdə məqalə çap edərkən yarana biləcək müxtəlif vəziyyətlərlə əvvəlcədən tanış etmək, Ali Attestasiya Komissiyasının tələblərini düzgün formada həyata keçirmək üçün zəruri addımlarla bağlı məlumatlandırmaq önəmli yer tuturdu.

Menecment fakültəsinin dekanı, i.ü.f.d. Ceyhun Məmmədov iclasda çıxış edərək, tələbələrə tövsiyələrini verdi. İqtisadiyyat və biznes yüksək təhsil fakültəsinin dekanı, i.ü.e.d. İnqilab Əhmədov əcnəbi tələbələrin suallarını cavablandırdı.





## MEETING WITH FOREIGN DOCTORAL STUDENTS

On October 19, the Department of Economics and Management of Khazar University held a meeting with foreign doctoral students. The main purpose of the meeting was to inform foreign doctoral students about the requirements of the Higher Attestation Commission under the President of the Republic of Azerbaijan, internal documentation rules, and instruct them on the preparation and publication of dissertations and scientific articles.

At the same time, informing foreign doctoral students about various situations that may arise while publishing articles in foreign periodicals and informing them about the necessary steps to fulfil the requirements of the High Attestation Commission were among the main issues.

Dean of the School of Management, Doctor of Philosophy in Economics Jeyhun Mammadov spoke at the meeting and gave his recommendations to the students. Dean of the Graduate School of Economics and Business, Doctor of Philosophy in Economics Inqilab Ahmadov answered the questions of foreign students.

## ERASMUS+ ECAR LAYİHƏSİNİN VI İDARƏETMƏ TOPLANTISI

Oktyabrın 20-də tərəfdaş qismində Xəzər Universiteti, Bakı Biznes Universiteti və Naxçıvan Universitetinin də daxil olduğu Erasmus+ ECAR layihəsinin onlayn VI İdarəetmə toplantısı keçirildi.

Toplantının gündəliyinə davam edən işlərin, yeni dəyişikliklərin və əvvəlki prosedurların nəticələrinin, həmçinin yayılma strategiyasının və cari maliyyə vəziyyətinin müzakirəsi daxil idi.

Layihənin koordinatoru Gülşən Bayramova (Bakı Biznes Universiteti) konfrans zamanı layihənin davam edən fəaliyyətləri və onların nəticələri, xüsusən də tərəfdaşlıq statusunda edilməli olan düzəlişlər barədə danışdı. Rəcəb Cəfərli (Naxçıvan Universiteti) layihənin planı, yayılma strategiyası və yayılma hesabatı ilə bağlı məsələlər ətrafında müzakirələr aparıb.

Layihənin koordinatoru Gülşən Bayramova toplantını layihənin riskləri və maliyyə vəziyyətini müzakirə edərək yekunlaşdırıb. Toplantıda Xəzər Universitetini Təbiət elmləri, sənət və texnologiya yüksək təhsil fakültəsinin dekanı Səidə Şərifova və İnkişaf ofisinin layihə rəhbəri Jalə Rzayeva təmsil ediblər.

## VI MANAGEMENT MEETING OF ERASMUS+ ECAR PROJECT

The Sixth Management Meeting of the Erasmus +ECAR project, which includes Khazar University, Baku Business University, and Nakhchivan University as partners, took place on October 20 .

The agenda for the conference included discussion of the ongoing activities, new modifications and outcomes of the earlier procedures as well as dissemination strategy and current financial situation.

Gulshan Bayramova, the project coordinator, talked during the conference about the project's continuing operations and their outcomes, especially adjustments that should be made to partnership status. Rajab Jafarli held discussions on the project plan, and issues related to the dissemination strategy and dissemination report.

The project's coordinator,Gulshan Bayramova, concluded by discussing the project's risks and financial status.

Khazar University was represented in the meeting by Dean of the Graduate School of Science, Art and Technology Saida Sharifova and Project Manager of Development Office, Jala Rzayeva.



# XƏZƏR UNİVERSİTETİNDƏ ÇİN TƏDQİQATLAR MƏRKƏZİ FƏALİYYƏTƏ BAŞLADI

# CHINESE RESEARCH CENTER LAUNCHED AT KHAZAR UNIVERSITY

Oktyabrın 21-də Xəzər Universitetində Çin Tədqiqatlar Mərkəzinin fəaliyyətə başlaması münasibətlə əyani və onlayn formatda açılış mərasimi keçirildi.

Xəzər Universitetinin rektoru İradə Xəlilova, Azərbaycanın Çindəki səfiri Əkrəm Zeynallı, Çinin Azərbaycandakı səfiri xanım Qo Min və digərləri iştirak edib.

Bu il iki ölkə arasında diplomatik münasibətlərin qurulmasının 30-cu ildönümü olduğunu vurğulayan natiqlər, əlaqələrin müxtəlif sahələrdə uğurla inkişaf etdiyini diqqətə çatdırıblar.

Qeyd olunub ki, Azərbaycanın da dəstəklədiyi Çinin "Kəmər və yol" təşəbbüsü iki ölkə arasında əlaqələrin, o cümlədən elm və təhsil, mədəniyyət sahəsində əməkdaşlıq üçün yeni imkanlar yaradıb.

Müasir dövrdə iki ölkə arasında əlaqələrin intensiv inkişafının xalqlarımızın bir-birini daha yaxından tanımaq zərurətini ortaya çıxardığı nəzərə alınaraq, Xəzər Universitetində Çin Tədqiqatlar Mərkəzinin yaradılması ilə bağlı qərar qəbul edilib.

Pekin Dil və Mədəniyyət Universitetinin "Kə-

On October 21, an opening ceremony was held in visual and online format on the occasion of the launch of the Chinese Studies Center at Khazar University.

Rector of Khazar University Irada Khalilova, Ambassador of Azerbaijan to China Akram Zeynalli, Ambassador of China to Azerbaijan Ms. Guo Min and others participated in the event.

Emphasizing that this year is the 30th anniversary of the establishment of diplomatic relations between the two countries, the speakers pointed out that relations are developing successfully in various fields.

It was noted that China's "Belt and Road" initiative, supported by Azerbaijan, has created new opportunities for cooperation between the two countries, including in the fields of science, education, and culture.

Considering that the intensive development of relations between the two countries in modern times has revealed the need for our peoples to get to know each other more closely, a decision was made to establish the Center for China Studies at Khazar



mər və yol" Akademiyasının direktoru, Dünya Çinşünaslar Şurasının məsul işçisi Su Baofenq və Pekin Xarici Dillər Universiteti Azərbaycan dili kafedrasının müdiri, Çin İctimai Elmlər Akademiyasının dəvətli alimi, filologiya üzrə fəlsəfə doktoru Aqşin Əliyev Xəzər Universitetində Çin Tədqiqatlar Mərkəzi haqqında məlumat veriblər.

Qeyd olunub ki, Azərbaycanda Çin üzrə ixtisaslaşmış ilk və yeganə beyin mərkəzi ("Think tank") funksiyasını yerinə yetirəcək tədqiqat mərkəzi iki ölkə arasında tarixi əlaqələrin Çin və Azərbaycan mənbələri əsasında araşdırılması, Çin mədəniyyəti, iqtisadiyyatı, Azərbaycan-Çin münasibətləri mövzularında dərinləşdirilmiş tədqiqat işlərinin aparılması, humanitar, mədəniyyət, təhsil və elm əlaqələrinin dinamik inkişafına dəstək verilməsi istiqamətində fəaliyyət göstərəcək. Bundan başqa, mərkəz Azərbaycanda Çin dilinin tədrisinin optimallaşdırılması, təkmilləşdirilməsi və tədris metodlarının tədqiqi, Azərbaycan çinşünaslarının mərkəzin elmi fəaliyyətinə cəlb olunması, Çinin müvafiq tədqiqat və beyin mərkəzləri ilə əməkdaşlığın təmin edilməsi ilə də məşğul olacaq.

Xəzər Universitetində Çin Tədqiqatlar Mərkəzi dünyanın tanınmış çinşünasları və Çin üzrə ixtisaslaşmış tədqiqat mərkəzləri, eləcə də beyin mər-

*(Ardı səh.16-da)*

University.

Director of the Belt and Road Academy of Beijing Language and Culture University, Xu Baofeng, official of the World Council of Sinologists, and head of the Azerbaijani language department of Beijing Foreign Languages University, invited scholar of the Chinese Academy of Social Sciences, Ph.D. in philology, Agshin Aliyev gave information about the Chinese Studies Center at Khazar University.

It was noted that the research center, which will perform the function of the first and only think tank specializing in China in Azerbaijan, will conduct in-depth research on the historical relations between the two countries based on Chinese and Azerbaijani sources, on Chinese culture, economy, Azerbaijan-China relations, humanitarian, cultural, educational and will act in the direction of supporting the dynamic development of scientific relations. In addition, the center will deal with the optimization and improvement of Chinese language teaching in Azerbaijan and the study of teaching methods, the involvement of Azerbaijani Chinese scholars in the scientific activities of the center, and the provision of cooperation with relevant Chinese research and think tanks.

Chinese Research Center at Khazar University will cooperate with well-known Chinese scholars and research centers specializing in China, as

*(To be continued page 16)*




kəzləri ilə əməkdaşlıq edəcək, iki ölkənin pedaqoq və alimlərinin qarşılıqlı təmaslarının təşkilinə çalışacaq, tələbələr arasında Çində təhsillə bağlı müvafiq maarifləndirici tədbirlər həyata keçirəcək. Mərkəzin nəzdində Çin üzrə elmi data bazanın yaradılması da nəzərdə tutulub.

Qeyd olunub ki, mərkəz Azərbaycan-Çin münasibətlərinə dair araşdırma və məlumat xarakterli məqalələrin hazırlanmasına dəstək verəcək, iki ölkə arasında qeyri-dövlət qurumları (muzey, kitabxana və s.) arasında təmasların yaradılmasına yardım edəcək. Mərkəzin fəaliyyətinin davamlılığının və effektivliyinin təmin edilməsi məqsədilə yerli və xarici (Çin və digər müvafiq ölkələrdən) çinşünas alimlərdən ibarət elmi şuranın yaradılması, "Azərbaycan Beynəlxalq Çinşünaslıq" elmi jurnalının buraxılması, illik elmi konfransların və seminarların təşkil olunması, mütəmadi qarşılıqlı bədii və elmi tərcümə işlərinin həyata keçirilməsi, eləcə də tərcümə xidmətlərinin təklifi, çoxfunksiyalı lüğətlərin tərtib olunması və tədqiqi, Çin dili dərsliklərinin yazılması planlaşdırılıb.

Xəzər Universitetindəki Çin Tədqiqatlar Mərkəzinin yaradılmasında və fəaliyyətində əsas tərəfdaş Çinin Dünya Çinşünaslıq Mərkəzidir. Bundan başqa, Çinin digər müvafiq qurumları ilə də əməkdaşlıq nəzərdə tutulub və müvafiq ilkin əlaqələr artıq yaradılıb.

*AZRTAC* və digər saytlar tədbir haqqında geniş xəbər yayımlamışlar.

well as think tanks, will try to organize mutual contacts between educators and scientists of the two countries, and will carry out relevant educational events among students regarding education in China. It is planned to create a scientific database on China under the center.

It was noted that the center will support the preparation of research and informative articles on Azerbaijan-China relations, and will help establish contacts between non-state institutions (museums, libraries, etc.) between the two countries. In order to ensure the continuity and effectiveness of the center's activities, the creation of a scientific council consisting of local and foreign (from China and other relevant countries) sinologists, the publication of the "Azerbaijan International Chinese Studies" scientific journal, the organization of annual scientific conferences and seminars, and the implementation of regular mutual artistic and scientific translation works, as well as offering translation services, compiling and researching multifunctional dictionaries, and writing Chinese language textbooks are planned.

The main partner in the establishment and operation of the Chinese Research Center at Khazar University is China's World Sinology Center. In addition, cooperation with other relevant institutions of China is planned and relevant initial contacts have already been established.

*AZERTAC* and other websites have published news about the event.

***https://azertag.az/xeber/Xezer_Universitetinde_CHin_Tedqiqatlar_Merkezi_fealiyyete_baslayib-2344598***



## "MENTORUN 72 SAATI" ADLI "BOOTCAMP" TƏDBİRİNDƏ

## AT BOOTCAMP "72 HOURS OF A MENTOR"

Oktyabrın 21-23-də Xəzər Universitetinin Fizika və Elektronika departementinin müdiri Fəridə Tatardar, Kompüter elmləri departamentinin müəllimi Humay Hüseynova və Tarix və arxeologiya departamentinin müəllimi Kəmalə Mustafayeva Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin "İnnovasiyalar Mərkəzi" tərəfindən Şamaxıda Vergilər Nazirliyinin Təlim Tədris Mərkəzində "Gələcək üçün bacarıqlar" layihəsi çərçivəsində həyata keçirilən "Mentorun 72 saatı" adlı "Bootcamp" tədbirində iştirak ediblər.

Tədbirdə "Rəqəmsal dünyada yenilik", "Şəbəkələşmə", "Liderlik bacarıqları", "Komandanın effektiv idarə olunması", "Startup pitching", "Mentorluq, texnika və mexanizmləri", "Startapın həyat dövrü", "Təqdimat bacarıqlarının inkişaf etdirilməsi", "Maliyyə cəlb edilməsi strategiyaları", "Emosional intellekt" və "İdeya müsabiqəsi - İnnovativ məhsul inkişafı" mövzularında təlimlər keçirilimiş, sonra isə komandalar üzrə iş təşkil olunmuşdur. "Bilim Bakı" Mərkəzinin rəhbəri "Milli Teknoloji Hamlesi T3 Vakfi & Teknofest" haqqında da məlumat vermişdir.

2021-ci ilin aprel ayından etibarən həyata keçirilən "Gələcək üçün bacarıqlar" layihəsinin məqsədi innovasiya sahəsində kadr potensialının artırılması, təhsildə innovasiya fəaliyyətinin dəstəklənməsi, innovativ ideyaların inkişaf etdirilməsi üçün təhsil prosesində tələbələrə dəstək göstərilməsi və tələbələrin ölkənin texnoloji inkişafında önəmli rol oynayan kəşf, ixtira sahəsinə yönləndirilməsidir.

On October 21-23, Farida Tatardar, the head of the Physics and Electronics Department of Khazar University, Humay Huseynova, the lecturer of the Computer Science Department, and Kamala Mustafayeva, the lecturer of History and Archeology Department, visited the "Innovations Center" of the State Agency for Citizen Services and Social Innovations under the President of the Republic of Azerbaijan. participated in the "Bootcamp" event called "72 hours of Mentor" implemented within the framework of the "Skills for the Future" project at the Training Center of the Ministry of Taxes in Shamakhi.

Trainings on "Innovation in the digital world", "Networking", "Leadership skills", "Effective team management", "Startup pitching", "Mentoring, techniques and mechanisms", "Startup life cycle", "Development of presentation skills", " Financial attraction strategies", "Emotional intelligence" and "Idea competition - Innovative product development" were held, and then team work was organized. The head of "Bilim Baku" Center also informed about "National Technology Initiative T3 Foundation & Technofest".

The goal of the "Skills for the Future" project, implemented since April 2021, is to increase the capacity of personnel in the field of innovation, support innovation activities in education, provide support to students in the educational process for the development of innovative ideas, and direct students to the field of discovery and invention, which plays an important role in the technological development of the country.

## TƏLƏBƏLƏR "ATƏŞGAH MƏBƏDİ" DÖVLƏT TARİX-MEMARLIQ QORUĞUNDA VƏ "QALA" DÖVLƏT TARİX-ETNOQRAFİYA QORUĞUNDA OLUBLAR

## STUDENTS VISIT STATE HISTORICAL-ARCHITECTURAL RESERVE "ATESHGAH TEMPLE" AND GALA STATE HISTORICAL ETHNOGRAPHIC RESERVE

Oktyabrın 24-də Humanitar, təhsil və sosial elmlər fakültəsinin Tarix və Coğrafiya ixtisasında təhsil alan I kurs tələbələri Tarix və arxeologiya departamentinin müəllimi t.ü.f.d. Yaqub Məmmədovun rəhbərliyi ilə "Atəşgah məbədi" Dövlət Tarix-Memarlıq Qoruğunda və "Qala" Dövlət Tarix- Etnoqrafiya Qoruğunda olublar.

Qədim od məbədi və etnoqrafik muzey ilə tanışlıq tələbələrin əldə etdikləri nəzəri biliklərin möhkəmləndirilməsinə xidmət etməklə onlarda dərin təəssürat yaratmışdır.

On October 24, first-year students majoring in History and Geography of the School of Humanities, Education and Social Sciences, visited "Ateshgah Temple" State Historical-Architectural Reserve and "Gala" State Historical-Ethnographic Reserve under the guidance of Yagub Mammadov, Ph.D. in History, the lecturer of the Department of History and Archeology.

Acquaintance with the ancient fire temple and the ethnographic museum enhanced the theoretical knowledge gained by the students and made a lasting impression on them.



# TƏLƏBƏLƏR "ARXEOLOJİ RƏSM" PRAKTİK DƏRSİNDƏ

Oktyabr ayı ərzində Xəzər Universitetinin Humanitar, təhsil və sosial elmlər fakültəsinin Tarix müəllimliyi ixtisası üzrə təhsil alan birinci kurs tələbələri üçün AMEA Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutunun Muzey-sərgi zalında "Arxeoloji rəsm" adlı praktik dərslər keçilmişdir. Dərslər institutun əməkdaşı və eyni zamanda, Xəzər Universitetinin Tarix və arxeologiya departamentinin müəllimi Orxan Zamanovun təşkilatçılığı ilə Azərbaycan Rəssamlar İttifaqının üzvləri - Avropa Təbii Elmlər Akademiyasının üzvü İskəndər Məmmədov (qrafika) və Məryəm Məmmədova (bədii keramika) ilə birgə gerçəkləşdirilmişdir.

Tələbələrə gələcək peşə fəaliyyətlərində zəruri ola biləcək bilik və bacarıqlar öyrədilmiş, tarixi keramika ilə bilavasitə tanışlıq və onunla rəftar qaydaları aşılanmışdır. Dərslər, qeyd edildiyi kimi, Muzey-Sərgi zalında AMEA Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutunun Elmi fond və Ekspozisiya şöbəsinin müdiri Dr. Fərhad Quliyevin dəstəyi, yekun dərslər isə Xəzər Universitetinin Mərkəz kampusunda həmin kampusun koordinatoru Kəmalə Əsgərovanın dəstəyi ilə həyata keçirilmişdir.

Tələbələrə verilən tapşırıqlar və keçilən dərslərin nəticələri tədrisi aparan rəssamlar tərəfindən müsbət qiymətləndirilmiş və praktik dərs özünü doğrultmuşdur. Həmçinin, belə əyani dərsin Bakının tarixi məkanı olan İçərişəhərdə Muzey-sərgi zalında arxeoloji eksponatlar və artefaktlar arasında keçirilməsi, bilavasitə tarixi maddi-mədəni irslə təmasda olmaq gələcəyin gənc tədqiqatçıları və tarix müəllimləri üçün əhəmiyyətli bir təcrübə olmuşdur.

# STUDENTS IN "ARCHAEOLOGICAL DRAWING" PRACTICAL CLASS

During October practical classes called "Archaeological painting" were held in the museum-exhibition hall of the Institute of Archeology, Ethnography and Anthropology of ANAS for the first-year students of the School of Humanities, Education and Social Sciences of Khazar University majoring in History teaching. The lessons were organized by Orkhan Zamanov, an employee of the institute and at the same time, the lecturer of the History and Archeology Department of Khazar University, together with members of the Union of Azerbaijan Artists - member of the European Academy of Natural Sciences Iskander Mammadov (graphics) and Maryam Mammadova (art ceramics).

The students were taught the knowledge and skills that may be necessary in their future professional activities, they were instilled with direct acquaintance with historical ceramics and the rules of handling them. As mentioned, the lessons were held in the Museum-Exhibition hall with the support of Dr.Farhad Guliyev, the head of the Scientific Fund and Exposition Department of the ANAS Institute of Archaeology, Ethnography and Anthropology, and the final lessons were held in the Downtown campus of Khazar University with the support of Kamala Askerova, the coordinator of that campus. The tasks given to the students and the results of the lessons were positively evaluated by the teaching artists, and the practical lesson was justified. Also, conducting such a visual lesson in the museum-exhibition hall in Icherisheher, which is the historical place of Baku, among the archaeological exhibits and artefacts, directly coming into contact with the historical material and cultural heritage was an important experience for the young researchers and history teachers of the future.



# VURĞUN ƏYYUBUN 65 İLLİYİ VƏ "ƏDƏBİ HƏYAT" KİTABININ TƏQDİMATI İLƏ ƏLAQƏDAR XATİRƏ TƏDBİRİ

# COMMEMORATIVE EVENT ON THE 65TH ANNIVERSARY OF VURGUN AYYUB AND PRESENTATION OF THE BOOK "LITERARY LIFE"

Oktyabrın 25-də Xəzər Universitetinin Mərmər zalında Vurğun Əyyubun 65 illiyi və "Ədəbi həyat" (tərtibçilər Sima Əyyubova, Ləman Vurğun; elmi redaktor Bədirxan Əhmədli; ön sözün müəllifləri Əli Şamil, Bədirxan Əhmədli) kitabının təqdimatı ilə əlaqədar xatirə tədbiri keçirildi.

Vurğun Əyyubun Azərbaycan ədəbiyyatına dair müxtəlif məqalə və araşdırmalardan, şeir və hekayə təhlillərindən ibarət olan kitabı, əslində, ali məktəblərin filologiya və Azərbaycan dili və ədəbiyyatı müəllimliyi ixtisaslarında təhsil alan tələbələr üçün dərs vəsaiti qədər əhəmiyyətli bir əsərdir. Kitabda Məhəmməd Hadi, Abdulla Şaiq, Abbas Səhhət, Mirzə Ələkbər Sabir, Hüseyn Cavid, Cəfər Cabbarlı, Səməd Mənsur, Məmməd Araz kimi şairlərin müxtəlif şeirlərinin təhlili ilə yanaşı, hekayə təhlilləri, ədəbi proses və tənqid, rezensiyalar adlı fəsillər də mövcuddur.

Tədbiri Humanitar, təhsil və sosial elmlər fakültəsinin dekanı dosent Elza Səmədli açdı. O, Vurğun Əyyubun ölməz xatirəsinin onu tanıyanların qəlbində daim yaşayacağını vurğuladı. Sonra Vurğun Əyyubun həyat və yaradıcılığını əks etdirən videoçarx nümayiş olundu. Ardınca isə tələbələr Vurğun Əyyubun heç yerdə nəşr etdirmədiyi şeirlərindən nümunələr səsləndirdilər.

Kitabın təqdimatını "Ədəbi həyat" kitabının hazırlanmasında böyük əməyi olan Əli Şamil və professor Bədirxan Əhmədov etdilər. Kitabın tərtibatı Vurğun Əyyubun tələbəsi, Xəzər Universitetinin məzunu Nizami Əlisoya aiddir. Tədbirin davamında Dillər və ədəbiyyatlar departamentinin dosenti Xatirə Yusifova "Ədəbi həyat" kitabında yer alan şeir təhlillərindən birini - Cəfər Cabbarlının "Azərbaycan Bayrağına" şeirinin təhlilini iştirakçılara təqdim etdi. Sonra "Ədəbi həyat" kitabında Vurğun Əyyubun haqqında bəhs etdiyi tənqidçi İradə Musayeva, ya-

On October 25, a commemorative event was held in the Marble Hall of Khazar University on the 65th anniversary of Vurgun Ayyub and the presentation of the book "Literary Life"( designers Sima Ayyubova, Laman Vurghun, scientific editor Badirkhan Ahmedli).




The book, which consists of various articles and researches on Azerbaijani literature, poetry and story analyses by Vurgun Ayyub, is, in fact, an important work as a textbook for students studying philology and teaching Azerbaijani language and literature in higher schools. In addition to the analysis of various poems by poets such as Mahammad Hadi, Abdulla Shaiq,

Abbas Sahhat, Mirza Alakbar Sabir, Huseyn Javid, Jafar Jabbarli, Samad Mansur, Mammad Araz, there






zıçılar - Nəriman Əbdülrəhmanlı və Fəxri Uğurlu kürsüyə dəvət olundular. Onlar da Vurğun Əyyub haqqında xatirələrini bölüşüb, tədbirin təşkilatçılarına təşəkkürlərini bildirdilər.

Tədbirdə Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor, akademik Hamlet İsaxanlı çıxış edərək, Vurğun Əyyubun elmi və pedaqoji fəaliyyətindəki peşəkarlığını yüksək qiymətləndirdi. Tədbirdə iştirak edən Vurğun Əyyubun həyat yoldaşı Sima Əyyubova və qızı Ləman Vurğun tədbirin təşkilatçılığı üçün Xəzər Universiteti rəhbərliyinə təşəkkür etdilər.

Tədbirdə Vurğun Əyyubun şəxsi əşyaları, fotoları və sənədlərdən ibarət şəxsi kolleksiyası Milli Azərbaycan Tarixi Muzeyinin fondunda saxlanılmaq üçün ailəsi tərəfindən muzeyin baş mütəxəssisi Nüşabə Əsədovaya təqdim edildi.




are also chapters called story analyses, literary process and criticism, reviews.

The event was opened by Associate Professor Elza Samadli, Dean of the School of Humanities, Education and Social Sciences. She emphasized that the immortal memory of Vurgun Ayyub will always live in the hearts of those who know him. Then a video depicting the life and work of Vurgun Ayyub was shown. Afterwards, the students sang examples of Vurgun Ayyub's poems that were not published anywhere.

The presentation of the book "Literary Life" was made by Ali Shamil and Professor Badirkhan Ahmadov, who contributed greatly to its preparation. The design of the book belongs to Nizami Alisoy, a graduate of Khazar University who was Vurgun Ayyub's student. In the continuation of the event, Khatira Yusifova, associate professor of the Department of Languages and Literatures, presented to the participants one of the analyzes of poems included in the book "Literary Life" - the analysis of Jafar Jabbarli's poem "To the Azerbaijan Flag". Then the critic Irada Musayeva, whom Vurgun Ayyub talked about in the book "Literary Life", writers - Nariman Abdulrahmanli and Fakhri Ugurlu were given floors. They also shared their memories of Vurgun Ayyub and thanked the organizers of the event.

Professor academica, Hamlet Isakhanli, founder of Khazar University, chairman of the Board of Directors and Trustees, spoke at the event and highly appreciated Vurgun Ayyub's professionalism in his scientific and pedagogical activities. Vurgun Ayyub's wife Sima Ayyubova and daughter Laman Vurgun, who participated in the event, thanked Khazar University management for organizing the event.

At the event, Vurgun Ayyub's personal collection of personal belongings, photos and documents was presented by his family to Nushaba Asadli, the employee of the National Azerbaijan History Museum, to be kept in its fund.

# MİKROBİOLOGİYA İNSTİTUTU VƏ TORPAQŞÜNASLIQ VƏ AQROKİMYA İNSTİTUTU İLƏ MÜQAVİLƏ İMZALANMIŞDIR

# AN AGREEMENT SIGNED WITH INSTITUTE OF MICROBIOLOGY AND INSTITUTE OF SOIL SCIENCE AND AGROCHEMISTRY




Oktyabrın 26-da Xəzər Universitetində Elm və Təhsil Nazirliyinin Mikrobiologiya İnstitutu və Torpaqşünaslıq və Aqrokimya İnstitutu ilə Xəzər Universiteti arasında elmi-tədqiqat və pedaqoji sahələrdə birgə fəaliyyət barədə əməkdaşlıq müqaviləsi imzalanmışdır.

Tədbirdə Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor, akademik Hamlet İsaxanlı, universitetin rektoru dosent İradə Xəlilova, Torpaqşünaslıq və Aqrokimya İnstitutunun baş direktoru, professor, AMEA-nın müxbir üzvü Əlövsət Quliyev, Mikrobiologiya İnstitutunun baş direktoru, professor, AMEA-nın müxbir üzvü Pənah Muradov və digər əməkdaşlar iştirak etmişlər.

Müasir dövrdə elm və təhsilin qarşılıqlı əlaqələrini özündə ehtiva edən müqavilədə əsas məqsəd institutların alim və mütəxəssisləri ilə universitetin alim, müəllim və tələbə heyətləri arasında elmin və təhsilin təkmilləşdirilməsini, qarşılıqlı əlaqə və əməkdaşlığın inkişaf etdirilməsini dəstəkləmək, elmlə təhsilin müasir vəhdət modelini yaratmaqdır.

Müqavilənin ümumi müddəalarında təhsilin müxtəlif sahələrinin innovativ inkişafı məqsədilə institutların və universitetin mütəxəssisləri tərəfindən mütəmadi dəyirmi masaların təşkil edilməsi nəzərdə tutulur. Həmçinin, elmi əsaslandırılmış təkliflərin hazırlanması və müvafiq dövlət qurumları qarşısında vəsatətin qaldırılması planlaşdırılır.

On October 26, a cooperation agreement on joint activities in the scientific-research and pedagogical fields was signed between the Institute of Microbiology and the Institute of Soil Science and Agrochemistry of the Ministry of Science and Education at Khazar University.

The founder of Khazar University, the chairman of the Board of Directors and Trustees, professor, academician Hamlet Isakhanli, the rector of the university, associate professor Irade Khalilova, director general of the Institute of Soil Science and Agrochemistry, professor, corresponding member of ANAS Alovsat Guliyev, director general of the Institute of Microbiology, professor, corresponding member of ANAS Panah Muradov, and other employees attended the event.

The main purpose of the agreement, which includes the mutual relations between science and education in modern times, is to support the improvement of science and education, to develop interaction and cooperation between scientists and specialists from the institutes and scientists, teachers, and students at the university, and to develop a modern model of integrating science and education.

The general provisions of the agreement envisage the organization of regular round tables by specialists of institutes and universities for the purpose of innovative development of various fields of education. Additionally, scientifically based proposals will be prepared, and a petition will be submitted to govern-



Sənəddə, eləcə də, yeni dərslik və dərs vəsaitlərinə dair təkliflərin verilməsi və çapa hazırlanması, institutların laboratoriyalarında Xəzər Universitetinin professor-müəllim heyətinin və tələbələrinin institutların alimləri ilə birgə ekologiya, geologiya və geofizika elmlərinin müasir sahələri üzrə elmi-tədqiqat işlərinin aparılması nəzərdə tutulur.

Müqavilədə, həmçinin, elmi-tədqiqat proqramlarının, layihələrinin hazırlanmasına və qarşılıqlı maraq doğuran digər elmi fəaliyyətlərin həyata keçirilməsinə diqqət yetirilir.

ment agencies.

The document also provides proposals for new textbooks and their preparation for printing, as well as conducting scientific-research works in the modern fields of ecology, geology and geophysics in the laboratories of the institutes by the faculty and students of Khazar University together with the scientists of the institutes.

The agreement also focuses on the development of scientific research programs, projects and the implementation of other scientific activities of mutual interest.



## QAZİ UNİVERSİTETİNİN VƏ DUMLUPİNAR UNİVERSİTETİNİN NÜMAYƏNDƏLƏRİ "XƏZƏR"DƏ

## REPRESENTATIVES OF GAZI UNIVERSITY AND DUMLUPINAR UNIVERSITY AT KHAZAR UNIVERSTY



Oktyabrın 17-21-də Türkiyənin Ankara şəhərində yerləşən Qazi Universitetinin professoru Onur İnam və Türkiyənin Kütahya şəhərində yerləşən Dumlupinar Universitetinin mühazirəçisi Zeynep Duyar Erasmus+ İşçi Mobilliyi Mübadilə Proqramı çərçivəsində Xəzər Universitetinin Humanitar, təhsil və sosial elmlər fakültəsi, Təbiət elmləri və mühəndislik fakültəsi və Beynəlxalq əlaqələr ofisi tərəfindən qəbul edildi.

Proqramın ilk günü Tədris işləri üzrə prorektor Məhəmməd Nuriyev, Beynəlxalq əlaqələr üzrə prorektor Vlad Vernygora, İctimai əlaqələr və media üzrə direktor Əlövsət Əmirbəyli, Humanitar, təhsil və sosial elmlər fakültəsinin dekanı Elza Səmədova, Təbiət elmləri, sənət və texnologiya yüksək təhsil fakültəsinin dekanı Səidə Şərifova, Təbiət elmləri və mühəndislik fakültəsinin dekanı Fəxrəndə Əlimərdanova, Hüquq departamentinin müdiri Cabir Xəlilov, Fizika və elektronika departamentinin müdiri Fəridə Tatardar, Kimya mühəndisliyi departamentinin koordinatoru Rəsul Muradi və Beynəlxalq əlaqələr ofisinin koordinatoru Fatimə Vəliyevanın iştirakı ilə türkiyəli mütəxəssislərlə tanışlıq görüşü keçirildi.

Görüşdə Vlad Vernygora Xəzər Universiteti, Onur İnam Qazi Universiteti və Zeynep Duyar Dumlupinar Universiteti haqqında təqdimatla çıxış etdilər.

On October 17-21, Professor Onur Inam of Gazi University, Ankara, Turkey, and Zeynep Duyar, the lecturer of Dumlupinar University, Kütahya, Turkey, visited Khazar University's School of Humanities, Education and Social Sciences, School of Science and Engineering and International Relations office within the Erasmus+ Labor Mobility Exchange Program.

On the first day of the program, an introductory meeting with Turkish specialists took place with the participation of Vice-Rector for Academic Affairs Mahammad Nuriyev, Vice-Rector for International Relations Vlad Vernygora, Director of Public Relations and Media Alovsat Amirbeyli, Dean of the School of Humanities, Education and Social Sciences Elza Samadova, Dean of the Graduate School of Science, Art and Technology Saida Sharifova, Dean of the School of Science and Engineering Fakhranda Alimardanova, Head of the Law Department Jabir Khalilov, Head of the Physics and Electronics department, Rasul Muradi, Coordinator of Chemical Engineering Department Farida Tatardar, and Coordinator of the International Relations office Fatima Valiyeva.

At the meeting, Vlad Vernygora made a presentation about Khazar University, Onur Inam delivered a presentation about Gazi University and Zeynep

Növbəti olaraq, Fizika və elektronika departamentində Fəridə Tatardar və Kimya mühəndisliyi departamentində Rəsul Muradi ilə görüş keçirilmiş və qonaqlara departament və laboratoriyaların fəaliyyəti haqqında geniş məlumat verilmişdir.

Universitetin Kitabxana İnformasiya Mərkəzinin direktor müavini Aytac Misgərli qonaqları mərkəzin fəaliyyəti ilə tanış etmişdir.

Proqramın digər günlərində Onur İnamın Mexanika mühəndisliyi departamentinin koordinatoru Mehdi Kiyasatfar və Həyat elmləri departamentinin koordinatoru Cavid Ocaqi ilə fərdi görüşləri keçirilmişdir. Görüşlərdə iki universitet arasında departamentlərarası əməkdaşlıq haqqında müzakirələr oldu.

Onur İnam proqram çərçivəsində Təbiət elmləri və mühəndislik fakültəsinin tələbələrinə "Süni İntellekt" mövzusunda mühazirə söyləmişdir.

Zeynep Duyar Siyasi elmlər və fəlsəfə departamentinin müdiri Fərid Quliyev və departamentin müəllimi Baba Bayramov ilə görüşmüşdür. Həmçinin, Hüquq departamentinin müdiri Cabir Xəlilov və baş müəllim Akif Əlizadə ilə keçirilmiş görüşdə universitetlərin hüquq departamentlərinin iş prinsipi müqayisəli şəkildə müzakirə olunmuşdur.

Nailəxanım Mədəniyyət Mərkəzində qonaqlara Nailəxanım İsayevanın həyat və fəaliyyətini əks etdirən eksponatlar haqqında ətraflı məlumat verilmişdir.

Səfərin son günü isə türkiyəli mütəxəssislər "Atəşgah məbədi" Dövlət Tarix-Memarlıq Qoruğunda olmuş, Təhsil və sosial elmlər fakültəsi və Təbiət elmləri və mühəndislik fakültəsinin dekanları tərəfindən onlara proqramı uğurla başa çatdırdıqlarına görə sertifikat təqdim edilmişdir.





Duyar's presentation was on Dumlupinar University.

Then a meeting was held with Farida Tatardar at the Department of Physics and Electronics and Rasul Muradi at the Department of Chemical Engineering, and the guests were given extensive information about the activities of the departments and laboratories.

Aytac Misgarli, deputy director of the University's Library Information Center, introduced the activities of the center to the guests. On other days of the program, Onur Inam had individual meetings with Mehdi Kiyasatfar, the coordinator of the Mechanical Engineering Department, and Javid Ojagi, the Coordinator of the Life Sciences Department. In the meetings, there were discussions about inter-departmental cooperation between the two universities. Onur Inam gave a lecture on "Artificial Intelligence" to the students of the Faculty of Natural Sciences and Engineering within the framework of the program.

Zeynep Duyar met with Farid Guliyev, the head of the Department of Political Sciences and Philosophy, and Baba Bayramov, the lecturer of the department. Also, in the meeting held with the Head of the Law Department, Jabir Khalilov, and the senior teacher, Akif Alizadeh, the principle of work of law departments of universities was discussed in a comparative manner.

In the Nailkhanim Cultural Center, guests were given detailed information about the exhibits reflecting the life and activities of Nailakhanim Isayeva. On the last day of the visit, the Turkish specialists visited the "Fire Temple" State Historical-Architecture Reserve and were presented with a certificate for successfully completing the program by the deans of the School of Humanities Education and Social Sciences and the School of Science and Engineering.



# İNGİLİS DİLİ VƏ ƏDƏBİYYATI DEPARTAMENTİNİN MÜƏLLİMİ MURSİYA (UCAM) KATOLİK UNİVERSİTETİNDƏ

# LECTURER OF DEPARTMENT OF ENGLISH LANGUAGE AND LITERATURE AT CATHOLIC UNIVERSITY OF MURCIA (UCAM)

Xəzər Universiteti İngilis dili və ədəbiyyatı departamentinin müəllimi Gülnur Nəbiyeva Erasmus+ İşçi Heyətinin Mobilliyi (KA107) layihəsi çərçivəsində oktyabrın 17-21-də İspaniyanın Mursiya şəhərində Mursiya (UCAM) Katolik Universitetində səfərdə olub.

Səfərin ilk günü Tərcümə departamentinin professor-müəllim heyəti və rəhbəri ilə görüş olmuşdur. Proqram çərçivəsində Gülnur Nəbiyeva Ana Rosa Sanchez`in dərslərində dinləyici kimi iştirak etmişdir.

Həmçinin, Gülnur Nəbiyeva Ana Rosa Sanchez və Raquel Galián-Sabater`in ingilis dili B1 və B2 dərslərində 8 saatlıq mühazirə söyləmişdir.

Proqramın yekununda Gülnur Nəbiyeva universitetin Beynəlxalq əlaqələr və kommunikasiyalar üzrə vitse-prezidenti Lonneke Meijer tərəfindən sertifikatla təltif olunub.

Khazar University English Language and Literature Department lecturer Gulnur Nabiyeva visited the Catholic University of Murcia (UCAM) in Murcia, Spain on October 17-21 as part of the Erasmus+ Staff Mobility (KA107) project.

On the first day of the visit, there was a meeting with the faculty and head of the Translation and Interpretation Department. As part of the program, Gulnur Nabiyeva participated in Ana Rosa Sanchez's classes as a listener.

As well, Gulnur Nabiyeva lectured for eight hours in Ana Rosa Sanchez's and Raquel Galián-Sabater's English B1 and B2 classes.

At the end of the program, Gulnur Nabiyeva was awarded a certificate by Lonneke Meijer, the vice-president of the university for international relations and communications.



# NEFT MÜHƏNDİSLİYİ DEPARTAMENTİNİN MÜDİRİ İTALİYANIN TURİN POLİTEXNİK UNİVERSİTETİNDƏ

Xəzər Universiteti Neft mühəndisliyi departamentinin müdiri Dr. Elşən Abdullayev Erasmus+ İşçi Heyətinin Mobilliyi (KA107) layihəsi çərçivəsində oktyabrın 17-22-də İtaliyanın Turin Politexnik (Politecnico di Torino)Universitetində səfərdə olub.

Səfərin məqsədi müxtəlif tədqiqat laboratoriyalarında olmaq və tərəfdaş universitet ilə gələcək əməkdaşlıq yönümündə layihələri müzakirə etmək olmuşdur. Proqram çərçivəsində Dr.Elşən Abdullayevin universitetin professorları Alberto Godio və Laura Valentina Socco ilə görüşlərində əməkdaşlıq məsələləri, habelə georesurs və geoenergetika mühəndisliyi ixtisası üzrə tələbə mübadiləsi proqramının həyata keçirilməsi ilə bağlı müzakirələr aparılıb.

Həmçinin, Dr. Elşən Abdullayev universitetin Mineralogiya muzeyində və tədqiqat laboratoriyalarında, Valdiiridə praktiki sahə işində olub.

Dr.Elşən Abdullayevin səfəri professor Fulvia Chiampo tərəfindən təşkil olunub və onlar Erasmus potensialının artırılması layihəsini müzakirə ediblər.

Qeyd edək ki, professor Fulvia Chiampo 2022-ci ilin aprel ayında Erasmus+ Mübadilə proqramı çərçivəsində Xəzər Universitetində olub.

# HEAD OF PETROLEUM ENGINEERING DEPARTMENT AT POLYTECHNIC UNIVERSITY OF TURIN, ITALY

Head of Khazar University Petroleum Engineering Department Dr. Elshan Abdullayev visited Italy's Turin Polytechnic University (Politecnico di Torino) on October 17-22 as part of the Erasmus+ Staff Mobility (KA107) project.

The purpose of the visit was to see various research laboratories and discuss projects in the direction of future cooperation with the partner university. Within the framework of the program, Dr. Elshan Abdullayev's meeting with university professors Alberto Godio and Laura Valentina Socco covered the issues of cooperation, as well as implementation of the student exchange program for georesources and geoenergy engineering.

Also, Dr. Elshan Abdullayev visited the University's Mineralogy museum and research laboratories, and did practical field work in Valdiiri.

Dr. Elshan Abdullayev's visit was organized by Professor Fulvia Chiampo, and they discussed the Erasmus capacity building project.

Noted that Professor Fulvia Chiampo visited Khazar University in April 2022 as part of the Erasmus+ Exchange program.

## "CAMPUS FRANCE"-NİN ÖLKƏNİN TƏHSİL SİSTEMİ HAQQINDA TƏQDİMATI

## "CAMPUS FRANCE" PRESENTATION ABOUT THE COUNTRY'S EDUCATION SYSTEM





Oktyabrın 25-də Xəzər Universitetində Beynəlxalq əlaqələr ofisinin təşəbbüsü ilə Fransanın Azərbaycandakı səfirliyinin nəzdində "Campus France"nin koordinatoru, səfirliyin universitet əlaqələri və elmi əməkdaşlıq üzrə nümayəndəsi Augustin Huot de Saint-Albin tərəfindən keçirilən təqdimatda tələbələrə Fransanın ali təhsil müəssisələrinə qəbul qaydaları, təqaüd imkanları, mübadilə və ikili diplom proqramları haqqında məlumat verilib.

Görüşdə tələbələri maraqlandıran suallar cavablandırılıb.

On October 25, at the initiative of the international relations office at Khazar University, a presentation was held by Augustin Huot de Saint-Albin, the coordinator of "Campus France", the embassy's representative for university relations and scientific cooperation, at the Embassy of France in Azerbaijan. In the presentation, students were informed about the rules of admission to French higher education institutions, scholarship opportunities, exchange and double degree programs.

Questions of interest to students were answered at the meeting.

## UniLab LAYİHƏSİ ÇƏRÇİVƏSİNDƏ VİRTUAL GÖRÜŞ

## VIRTUAL MEETING WITHIN UniLab PROJECT

Oktyabrın 25-də Xəzər Universitetinin tərəfdaşı olduğu Erasmus+ UniLab layihəsi çərçivəsində tərəfdaş universitetlərin də iştirakı ilə növbəti virtual görüş keçirildi. Görüş layihənin koordinatoru Karme Rayonun nitqi ilə başladı və o, gündəlikdəki əsas məsələləri tərəfdaşlara təqdim etdi.

Görüşdə Barselonaya təhsil səfəri müddətində iştirakçıların hansı işləri görəcəkləri müzakirə olunub. Sonra indiyə qədər həyata keçirilən fəaliyyətlərdən, əldə olunan nəticələrdən, baş tutan yeniliklərdən və qarşıda duran əsas vəzifələrdən danışılıb.

UniLab layihəsinin virtual görüşündə Xəzər Universitetin universitetini İnkişaf ofisinin Layihə meneceri Jalə Rzayeva təmsil edib.

On October 25, another virtual meeting was held with the participation of partner universities within the Erasmus+ UniLab project, to which Khazar University is a partner. The meeting started with the speech of Karme Rayon, the coordinator of the project, who presented the main issues of the agenda to the partners.

During the meeting, the participants discussed what they will do during the study trip to Barcelona. Then they talked about the activities carried out so far, the results achieved, the innovations that have taken place and the main tasks ahead.

At the virtual meeting of the UniLab project, Khazar University was represented by Jala Rzayeva, Project Manager of the Development Office.

# LATVİYA HƏYAT ELMLƏRİ VƏ TEXNOLOGİYALARI UNİVERSİTETİNİN NÜMAYƏNDƏLƏRİ "XƏZƏR"- DƏ

# REPRESENTATIVES OF LATVIAN UNIVERSITY OF LIFE SCIENCES AND TECHNOLOGIES AT KHAZAR UNIVERSITY



Oktyabrın 26-da Latviya Həyat Elmləri və Texnologiyaları Universiteti ilə Xəzər Universiteti arasında görüş keçirilmişdir.

Görüşdə Xəzər Universitetinin rektoru dosent İradə Xəlilova, Təbiət elmləri, sənət və texnologiya yüksək təhsil fakültəsinin dekanı Səidə Şərifova, İqtisadiyyat və biznes yüksək təhsil fakültəsinin dekanı İnqilab Əhmədov, Təbiət elmləri və mühəndislik fakültəsinin dekanı Fəxrəndə Əlimərdanova, İqtisadiyyat və menecment fakültəsinin koordinatoru Maral Camalova, Beynəlxalq əlaqələr ofisinin koordinatoru Fatimə Vəliyeva, Latviya Həyat Elmləri və

*(Ardı səh.30-da)*

On October 26, a meeting was held between the Latvian University of Life Sciences and Technologies and Khazar University.

The meeting was attended by the rector of Khazar University, associate professor Irada Khalilova, the dean of the Graduate School of Science, Art and Technology Saida Sharifova, the dean of the Graduate School of Economics and Business Ingilab Ahmadov, the dean of the School of Science and Engineering Fakhranda Alimardanova, the coordinator of the School of Economics and Management Maral Jamalova, International Relations coordinator

*(To be continued page 30)*



Texnologiyaları Universitetindən isə rektor Dr. Irina Pilvere, Beynəlxalq Əməkdaşlıq Mərkəzinin rəhbəri Dr. Voldemārs Bariss, Baytarlıq fakültəsinin dekanı Dr. Kaspars Kovalenko və Latviyanın Azərbaycandakı səfirliyinin müşaviri Elmira Mirzəyeva iştirak etmişlər.

Görüşdə ikitərəfli əlaqələrin möhkəmlənməsinə dair ikili diplom proqramlarının qurulması və təhsil müəssisələri arasında tərəfdaşlıq və akademik əlaqələrin gücləndirilməsi istiqamətində müzakirələr aparılmışdır.

Qeyd edək ki, Latviya Həyat Elmləri və Texnologiyaları Universiteti elmi tədqiqatların, eləcə də akademik və peşəkar təhsil proqramlarının həyata keçirildiyi ali təhsil və elm müəssisəsidir. 2022-ci il iyunun 15-də Latviya Həyat Elmləri və Texnologiyaları Universiteti ilə Xəzər Universiteti arasında ikitərəfli əlaqələrin möhkəmlənməsinə dair müqavilə imzalanmışdır.

Görüşün sonunda hədiyyə mübadiləsi olmuşdur.

Fatima Valiyeva, the rector of the Latvian University of Life Sciences and Technologies Dr. Irina Pilvere, the head of the International Cooperation Center. Dr. Voldemārs Bariss, the dean of the School of Veterinary Medicine Kaspars Kovalenko and counselor of the Embassy of Latvia in Azerbaijan Elmira Mirzayeva.

At the meeting, discussions were held in the direction of establishing bilateral diploma programs and promoting partnership and academic relations between educational institutions.

It should be noted that the Latvian University of Life Sciences and Technologies is a higher education and science institution where scientific research, as well as academic and professional education programs are carried out. On June 15, 2022, an agreement on strengthening bilateral relations was signed between the Latvian University of Life Sciences and Technologies and Khazar University.

At the end of the meeting, gifts were exchanged.

## DEPARTAMENT MÜDİRİ KEMBRİC UNİVERSİTETİNDƏ KEÇİRİLƏN SEMİNARDA

UNIVERSITY OF CAMBRIDGE

## DEPARTMENT HEAD AT GLOBAL SEMINAR HELD AT CAMBRIDGE UNIVERSITY

Oktyabrın 23-28-də Coğrafiya və ətraf mühit departamentinin müdiri Rövşən Abbasov Böyük Britaniyanın Kembric Universitetində keçirilən "Milli Ekosistem Qiymətləndirmələri" qlobal seminarında iştirak etmişdir. Seminar Birləşmiş Millətlər Təşkilatının Ətraf Mühit Proqramı Dünya Konservasiya Monitorinq Mərkəzi (UNEP WCMC) tərəfindən təşkil olunmuşdur.

Tədbirdə dünyanın 10 ölkəsindən 50-ə qədər mütəxəssis iştirak etmişdir. Rövşən Abbasov "Azərbaycan şirin su ekosistemlərinin qiymətləndirilməsi" mövzusunda öz təcrübəsini paylaşmışdır.

Qeyd edək ki, Xəzər Universitetinin əməkdaşı Rövşən Abbasov Milli Ekosistem Qiymətləndirmələri qrupundan Koordinator aparıcı müəllifdir.

On October 23-28, Rovshan Abbasov, head of the Department of Geography and Environment, participated in the "National Ecosystem Assessment" global workshop held at the University of Cambridge, Great Britain. This seminar was organized by UNEP WCMC (United Nations Environmental Program World Conservation Monitoring Centre). Up to 50 participants from 10 countries of the world took part in the meeting. Rovshan Abbasov shared his experience on "Freshwater Ecosystem Assessment for Azerbaijan".

Note that, Rovshan Abbasov, Khazar University staff member, is the Coordinating Lead Author from the National Ecosystem Assessments group.

# UniLab

## KARYERA İNKİŞAF AYI

Xəzər Universitetinin Karyera İnkişaf Mərkəzi UniLab layihəsi çərçivəsində tələbələrin karyera imkanlarını artırmaq üçün oktyabr ayı ərzində davam edən təlimlərdən ibarət "Karyera İnkişaf Ayı" təşkil etmişdir.

İlk təlim oktyabrın 3-də oldu. "İş axtarışı" adlanan təlimdə "FireWorks" şirkətinin İnsan resursları üzrə mütəxəssisi Minə Şıxəlili və İşə qəbul üzrə mütəxəssis Gülnar Şahmuradova iştirakçılar ilə "SWOT" testi, "16 şəxsiyyət tipi" testi, öz təcrübələrinə əsasən iş axtarma üsulları, "yaxşı CV necə hazırlanmalıdır", "motivasiya məktubu nədir və necə yazılmalıdır", sosial şəbəkələrin, o cümlədən "LinkedIn" profilinin iş həyatında rolu, "professional "LinkedIn" profili necə olmalıdır" və "iş müsahibəsinə hazırlıq" kimi bir çox maraqlı mövzuları müzakirə etdilər.

Oktyabrın 7-də keçirilən təlim "Gənclər bank sektorunda" mövzusunda idi. Azərbaycan Respublikası Mərkəzi Bankının İstehlakçıların Hüquqlarının Müdafiəsi Departamentinin Maliyyə savadlılığı şöbəsinin müdiri Xumar Hüseynova bank sektorunda karyera qurmaq istəyən tələbələrə bu barədə məsləhətlərini verdi və təcrübələrini bölüşdü.

Növbəti təlim oktyabrın 12-də Ernest&Young (EY) Bakı ofisinin mütəxəssisləri Məhərrəm Hüseynzadə, Fəridə İsrafilbəyova və Pərviz İsmayılzadənin iştirakı ilə baş tutdu.

Təlimin əvvəlində tələbələrə şirkətlə tanış olmaq üçün broşürlər paylandı. Sonra təlimçilər Ernest&Young (EY) şirkəti haqqında tələbələri ətraflı məlumatlandırdılar, karyerasını BIG 4-də qurmaq istəyən tələbələrə  məsləhətlər verdilər.

Oktyabrın 20-də keçirilən təlimdə BMT-nin İnkişaf Proqramının"Milli Adaptasiya Planı" layihəsinin köməkçisi Cəvahir Muradova tələbələrə karyeralarını beynəlxalq təşkilatlarda necə qura biləcəkləri haqqında ətraflı məlumat verdi. İştirakçılara, həmçinin, BMT İnkişaf Proqramı tərəfindən hədiyyələr təqdim olundu.

Təlimlər  tələbələrin suallarını ətraflı cavablandırmaq və geniş müzakirələr aparılması şəraitində keçmişdir.

Oktyabrın 25-26-da Karyera inkişaf Ayının yekunu olaraq Karyera sərgisi təşkil edildi.

## CAREER DEVELOPMENT MONTH

The Career Development Center of Khazar University has organized "Career Development Month" which consists of ongoing trainings during the month of October to increase the career opportunities of students within the framework of the UniLab project.

The first training took place on October 3. In the "Job Search" training, "FireWorks" Human Resources Specialist Mina Shikhalili and Recruitment Specialist Gulnar Shahmuradova had discussions with participants on many interesting topics such as "SWOT" test, "16 personality types" test, job search methods based on their own experience, "how to prepare a good CV", "what is a motivation letter and how to write it", the role of social networks, including the "LinkedIn" profile in business life, "how to have a professional "LinkedIn" profile" and "preparation for a job interview".

The training held on October 7 was on "Youth in the banking sector". Khumar Huseynova, head of the Financial Literacy Department of the Consumer Rights Protection Department of the Central Bank of the Republic of Azerbaijan, gave her advice and shared her experiences to students who want to build a career in the banking sector.

The next training took place on October 12 with the participation of experts of Ernest & Young (EY) Baku office, Maharram Huseynzade, Farida Israfilbeyova and Parviz Ismayilzade.

At the beginning of the training, brochures were distributed to the students to familiarize them with the company. In addition, the trainers provided detailed information about Ernest&Young (EY), as well as advice for students who want to pursue careers in the BIG 4.

In the training held on October 20, Javahir Muradova, the assistant of the UN Development Program "National Adaptation Plan" project, gave detailed information to the students about how they can build their careers in international organizations. The participants were also presented with gifts by the United Nations Development Program.

Students' questions were answered in detail during the trainings and extensive discussions were conducted. The Career Development Month concluded with a career exhibition on October 25-26.







# "XƏZƏR"DƏ KARYERA SƏRGİSİ

Oktyabrın 25-26-da Xəzər Universiteti Karyera Mərkəzinin təşkil etdiyi Karyera Ayı çərçivəsində iki günlük karyera sərgisi keçirildi.

Universitetin Mərmər zalında keçirilən sərgidə tələbələr ABŞ səfirliyi, "Azərbaycan Mərkəzi Bankı", "SOCAR", "DOST" agentliyi, "Azərbaycan Beynəlxalq Bankı", "Norm", "Azercell", "Kapital Bank", "ExpressBank", "Azərkosmos", "JW Marriott", "YARAT", "KPMG", "BakerTilly", "EY", "Barattson", "Ekvita", "FireWorks", "Deloitte", "AIESEC" və digər müxtəlif nüfuzlu şirkətlər və beynəlxalq qurumlardan olan nümayəndələrlə tanış olmaq imkanı tapdılar. Şirkətlər, həmçinin, öz məhsullarından tələbələrə hədiyyə etdilər.

Bundan əlavə, sərgidə keçirilən müxtəlif maraqlı viktorinaların qalibləri də Karyera Mərkəzindən hədiyyələr qazandılar.











# CAREER FAIR AT KHAZAR UNIVERSITY

On October 25-26, a two-day career exhibition was held as part of the Career Month organized by Khazar University Career Center.

At the fair held in the Marble Hall of the Neftchilar building, students had the opportunity to meet representatives from the U.S. Embassy, “Central Bank of the Republic of Azerbaijan”, “SOCAR”, “DOST” agency, “ABB Azerbaijan”, “Norm”, “Azercell”, “Kapital Bank”, “ExpressBank”, “Azercosmos”, “JW Marriott”, “YARAT”, “KPMG”, “BakerTilly”, “EY”, “Barattson”, “Ekvita”, “FireWorks”, “Deloitte”, “AIESEC” and other prestigious companies and international organizations on both days. Companies also presented their promotional products to students.

In addition, various interesting quizzes were held at the fair and students were given surprise gifts by the Career Center.






# "NARKOMANİYAYA QARŞI MÜBARİZƏ" MÖVZUSUNDA MAARİFLƏNDİRİCİ TƏDBİR

# AN EDUCATIONAL EVENT ON "FIGHT AGAINST DRUG ADDICTION"






Oktyabrın 28-də Xəzər Universitetində Nizami Rayon Polis İdarəsi və Nizami Rayon İcra Hakimiyyətinin iştirakı ilə "Narkomaniyaya qarşı mübarizə" mövzusunda maarifləndirici tədbir keçirilmişdir.

Tədbirdə Xəzər Universitetinin rektoru dosent İradə Xəlilova, İctimaiyyətlə əlaqələr və media üzrə direktoru Əlövsət Əmirbəyli, Nizami RPİ-nin rəisi polis polkovniki Ziya Əliyev, rəis müavini polis polkovnik-leytenantı Zaur İsayev, Yetkinlik yaşına çatmayanlarla profilaktiki işin təşkili bölməsinin rəisi polis mayoru Natiq Yusifov, Narkotiklərlə mübarizə bölməsinin rəisi polis baş leytenantı Elvin Əliyev, Veteranlar şurasının üzvü Firdovsi Bayramov, Yetkinlik yaşına çatmayanlarla profilaktiki işin təşkili bölməsinin baş inspektor polis kapitanı Günel Mirzəyeva, inspektoru polis leytenantı Qadir Hüseynov və universitet tələbələri iştirak etmişlər.

İradə Xəlilova tədbiri giriş sözü ilə açaraq, narkomaniya ilə mübarizənin vacibliyini, tələbələrin bu sahədə maariflənməsinin əhəmiyyətini qonaqların və tələbələrin diqqətinə çatdırmışdır.

Sonra söz Nizami RPİ-nin rəisinə və əməkdaşlarına verilmişdir. Narkomaniya və onun fəsadları haqqında tələbələrə ətraflı məlumat verilmiş, bundan qorunmağın yolları göstərilmişdir.

Əlövsət Əmirbəyli çıxış edərək, narkomaniyaya qarşı mübarizə yolunda görülən işlər, bu işdə tələbələrin rolu haqqında məlumat vermişdir.

Sonda Nizami RPİ-nin əməkdaşları tələbələrin suallarını cavablandırmışlar.

On October 28, an educational event on "Fight against drug addiction" was held at Khazar University with the participation of the Nizami District Police Department and the Nizami District Executive Authority.

The event was attended by Khazar University rector associate professor Irada Khalilova, director of Public Relations and Media Alovsat Amirbeyli, Nizami RPI Chief Police Colonel Ziya Aliyev, Deputy Chief Police Lieutenant Colonel Zaur Isayev, head of the department for organizing preventive work with minors police major Natig Yusifov, head of the anti-drug department, police senior lieutenant Elvin Aliyev, member of the veterans' council Firdovsi Bayramov, police captain Gunel Mirzayeva, chief inspector of the division of preventive work with minors, inspector police lieutenant Gadir Huseynov, and university students.

Opening the event with an introductory speech, Irada Khalilova brought to the attention of the guests and students the importance of the fight against drug addiction and the importance of educating students in this field.

Then the floor was given to the head and employees of Nizami RPI. Students were given detailed information about drug addiction and its consequences, and ways to prevent it were shown.

Alovsat Amirbeyli gave a speech and informed about the work done in the fight against drug addiction and the role of students in this work. In the end, employees of Nizami RPI answered the students' questions.



# АККРЕДИТАЦИЯ ВУЗОВ В АЗЕРБАЙДЖАНЕ – ЧТО И КАК БУДЕТ ОЦЕНИВАТЬСЯ?

*Sputnik Азербйджана опубликовал статью (автор Зульфия Гулуева, 04.11.2022), содержащиеся ответы экспертов на этот вопрос. Предлагаем нашим читателям ответ учредителя Университета Хазар, председателя Совета Директоров и Попечителей профессора, академика Гамлета Исаханлы.*

В Азербайджане вновь стал актуальным вопрос об аккредитации вузов. Как сообщил в эфире телеканала AZTV министр науки и образования Эмин Амруллаев, этот процесс стартует в ближайшее время.

Министр напомнил, что критерии оценки для аккредитации вузов были утверждены в октябре.

"В основном они связаны с деятельностью вузов (работа со студентами, научно-исследовательская деятельность и т.д.) и качеством преподаванием. Оценивание будет осуществляться независимыми экспертами. Каждый гражданин Азербайджана сможет ознакомиться с отчетом об аккредитации высших учебных заведений", - отметил Амруллаев.

Учредитель Университета Хазар, первого англоязычного вуза в Азербайджане, Гамлет Исаханлы сказал Sputnik Азербайджан, что практика аккредитации высших учебных заведений применяется во всем мире. Он отметил, что впервые она была введена в 70-е годы XIX века в Чикаго (США).

По его словам, в разных странах есть свои правила: вузы проходят аккредитацию каждые четыре, пять или семь лет. Аккредитация-это проверка соответствия качества образования в учебном заведении определенным стандартам.

"Во всем мире вузы поддерживаются государством. Так, за госсчет оплачивается учеба студентов частных университетов, которые при поступлении набрали максимально высокий балл. Помимо этого, государство обеспечивает таких студентов стипендией. Поэтому оно заинтересовано в качестве обучения в вузах. Кроме оценки кадрового потенциала, материально-технической базы и условий обучения, в процессе аккредитации также выясняют, как обстоят дела на кафедрах бакалавриата, магистратуры и докторантуры", - сказал Исаханлы.

На Западе по итогам подобных проверок вузы, не соответствующие установленным требованиям, не закрываются, просто государство перестает оказывать им поддержку. Вначале оно выдвигает перед ними требование о том, чтобы все выявленные недостатки и недочеты были устранены. Если этого не происходит, государство приостанавливает финансовую поддержку этих вузов, возобновляя ее только после того, как все "минусы" будут исправлены. Как будет осуществляться этот процесс в Азербайджане – покажет время, сказал собеседник агентства.

Исаханлы отметил, что несколько лет тому назад высшие учебные заведения в Азербайджане уже проходили аккредитацию, но пожизненной она быть не может, поэтому переаккредитация должна осуществляться регулярно, через определенный период времени.

Он отметил, что оценку деятельности вузов могут осуществлять независимые эксперты и специалисты, в том числе и приглашенные из-за рубежа.

***https://az.sputniknews.ru/20221104/akkreditatsiya-vuzov-v-azerbaydzhane--chto-i-kak-budet-otsenivatsya-448241622.html***




## "XƏZƏR"İN DOKTORANTININ KİTABLARI İRANDA ÇAP OLUNUB

Xəzər Universitetinin Təbiət elmləri, sənət və texnologiya yüksək təhsil fakültəsinin doktorantı Fəribə Fərhənginin İranda kitabları çap olunub.

Fəribə Fərhənginin farsca yazdığı "Yek mard - yek şahr" kiabı Azərbaycan dilində ("Bir igid - bir şəhər") təbrizli Fatimə Mənafzadənin tərcüməsində, ingilis dilində (A Man, a Sity) müəllifin öz tərcüməsində Təbrizdə Ritm Yayım Evində işıq üzü görüb.

Kitab şah diktaturasına qarşı Məşrutə inqilabının görkəmli xadimi, əsas liderlərindən biri və xalq qəhrəmanı Səttar xanın fəaliyyətindən bəhs edir.

Fəribə Fərhənginin çap olunmuş ikinci kitabı öz şeirlərindən və rəsm əsərlərindən ibarət farsca "Doxtəre aftab" ("Günəşin qızı") və ingiliscə ("Daughter of the Sun") şap olunmuş kitabıdır.

Nəfis şəkildə Səmt Rovşən Kələme nəşriyyatında (Bəndərə-Abbas şəhəri) hazırlanmış kitabda şeirlər hər bir rəsm əsərinin yanında məzmuna müvafiq yerləşdirilmişdir.

## THE BOOKS OF KHAZAR UNIVERSITY'S DOCTORAL STUDENT PUBLISHED IN IRAN



The books of Fariba Farhangi, a doctoral student of Khazar University's Graduate School of Science, Art and Technology, have been published in Iran.

The Azerbaijani version of the poem "Yek mard - yek shahr" ("Bir igid - bir şəhər") written by Fariba Farhangi in Persian translated by Fatima Manafzadeh from Tabriz and its English version (A Man, a City) translated by the author herself, was published in Tabriz in Ritm Broadcasting House.

The book deals with the activities of Sattar Khan, the prominent figure of the Constitutional revolution against the Shah's dictatorship, one of its main leaders and a national hero.

Fariba Farhangi's second published book is "Dochtere Aftab" ("Daughter of the Sun") in Persian and English ("Daughter of the Sun"), consisting of her poems and paintings.

In the book elegantly prepared by Samt Rovshan Kalame publishing house (Bandare-Abbas city), the poems are placed next to each painting according to the content.




## PSİXOLOGİYA DEPARTAMENTİNİN MÜƏLLİMİNİN MƏQALƏLƏRİ *EUROPEAN PSYCHIATRY* VƏ *EUROPEAN NEUROPSYCHOPHARMACOLOGY* JURNALLARINDA

Xəzər Universitetinin müəllimi və doktorantı Ülkər İsayevanın birinci müəllif olduğu "Exploring the association between brain-derived neurotrophic factor (BDNF) levels and longitudinal psychopathological and cognitive changes in Sardinian psychotic patients" ("Beynin neyrotrofik faktoru (BDNF) səviyyələri ilə Sardiniyalı psixotik xəstələrdə uzununa psixopatoloji və koqnitiv dəyişikliklər arasında əlaqənin araşdırılması") adlı məqaləsi Kembric Universiteti Nəşriyyatı tərəfindən *European Psychiatry* jurnalında, həmmüəllifi olduğu "Psychotropic drug repurposing for COVID-19: a Systematic Review and Meta-Analysis" ("COVID-19 üçün psixotrop dərmanların təkrar istifadəsi: sistematik icmal və meta-təhlil") adlı məqaləsi isə Elsevier tərəfindən *European Neuropsychopharmacology* jurnalında dərc edilib.

## ARTICLES BY THE LECTURER OF PSYCHOLOGY DEPARTMENT IN THE JOURNALS *EUROPEAN PSYCHIATRY* AND *EUROPEAN NEUROPSYCHOPHARMACOLOGY*

Khazar University lecturer and PhD student Ulker Isayeva's first-authored article entitled "Exploring the association between brain-derived neurotrophic factor (BDNF) levels and longitudinal psychopathological and cognitive changes in Sardinian psychotic patients" was published by Cambridge University Press in the *European Psychiatry* journal, and her co-authored article "Psychotropic drug repurposing for COVID-19: a Systematic Review and Meta-Analysis" was published by Elsevier in the *European Neuropsychopharmacology* journal.




*https://www.cambridge.org/core/journals/european-psychiatry/article/exploring-the-association-between-brainderived-neurotrophic-factor-bdnf-levels-and-longitudinal-psychopathological-and-cognitive-changes-in-sardinian-psychotic-patients/44098F9508CF42DE7A1A4D4A5D89F42B*
*www.sciencedirect.com*

"XƏZƏR XƏBƏR"İN AMEA NİZAMİ ADINA ƏDƏBİYYAT İNSTİTUTUNDA BÜROSU



# "KİTABİ-DƏDƏ QORQUD"UN PAKİSTANDA URDU DİLİNDƏ NƏŞRİNİN TƏQDİMATI KEÇİRİLİB

Ədəbiyyat İnstitutunda "Kitabi-Dədə Qorqud"un Pakistanda urdu dilində nəşrinin təqdimatı keçirilib. Təqdimatda Pakistan Ədəbiyyat Akademiyasının Prezidenti, professor Yusif Xuşk, Avrasiya Yazarlar Birliyinin başqanı, "Qardaş qələmlər" dərgisinin baş redaktoru Yaqub Öməroğlu, Azərbaycan Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı Anar, AMEA-nın müxtəlif institutlarının direktorları və bir çox ziyalılar iştirak ediblər.

Təqdimatı giriş sözü ilə AMEA-nın prezidenti, Ədəbiyyat İnstitutunun baş direktoru, akademik İsa Həbibbəyli açaraq Ədəbiyyat İnstitutu ilə Pakistan Ədəbiyyat Akademiyası arasında qarşılıqlı əməkdaşlıq əlaqələrinin konkret layihələr üzrə uğurla davam etdirildiyini diqqətə çatdırıb. Bu vaxta qədər çap olunmuş kitablar, keçirilmiş konfranslar, əməkdaşlıq müqavilələri, müxtəlif tədbirlər barəsində ətraflı məlumat verib.

Yayda "Kitabi-Dədə Qorqud"un urdu dilində çap ilə bağlı təklif etdik. Professor Yusif Xuşkun böyük səyləri ilə "Kitabi-Dədə Qorqud" ilk dəfə urdu dilində çap olunub. "Kitabi-Dədə Qorqud" Azərbaycan xalqının milli kimliyidir. Pakistan xalqı "Kitabi-Dədə Qorqud"u urdu dilində oxumaqla Azərbaycanı incəliklərinə qədər tanıyacaq. Bu iş Pakistan-Azərbaycan əlaqələrinə misilsiz töhfədir.

Pakistan Ədəbiyyat Akademiyasının Prezidenti, professor Yusif Xuşk eposun urdu dilində nəşri haqqında ətraflı məlumat verib: "Hazırda Azərbaycan Respublikasının Pakistandakı səfiri bizə çox kömək edir, əlaqələrimizin inkişafına səy göstərir. Azərbaycan yazıçıları üçün Pakistan yazıçıları yad deyillər və ya əksinə. Pakistan Ədəbiyyat Akademiyası Pakistanda yenidən Azərbaycan ədəbiyyatının seçilmiş əsərlərini urdu dilində çap etdirmişdir. Bununla belə bu kitab Azərbaycan ədəbiyyatının urdu dilinə tərcüməsi baxımından çox böyük inkişafdır. Ən vacib məqam odur ki, kitab Azərbaycan Yazıçılar Birliyinin XIII qurultayı ərəfəsində çap olunmuşdur. "Kitabi-Dədə Qorqud" dastanı Azərbaycanın ən qədim dastanıdır və ilk dəfədir ki, urdu dilinə tərcümə edilmişdir".

Təqdimatda Azərbaycan Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı Anar, Əlyazmalar İnstitutunun baş direktoru, akademik Teymur Kərimli, Azərbaycan Aşıqlar Birliyinin sədri, Əlyazmalar İnstitutunun şöbə müdiri, professor Məhərrəm Qasımlı və digərləri nəşrin əhəmiyyətindən danışıblar.




# BEYNƏLXALQ TÜRK AKADEMİYASI İLƏ BİRGƏ ELMİ-NƏZƏRİ SEMİNAR

Ədəbiyyat İnstitutunda Beynəlxalq Türk Akademiyasının əməkdaşları ilə elmi-nəzəri seminar keçirilib. Seminarda Beynəlxalq Türk Akademiyasının prezidenti vəzifəsini icra edən Füzuli Məcidli, Nəpil Batılxan və Aida Eyvazlı da iştirak ediblər.

AMEA-nın vitse-prezidenti, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun baş direktoru, akademik İsa Həbibbəyli çıxışında bildirib ki, "Beynəlxalq Türk Akademiyasının sabiq prezidenti Darxan Kıdırəli Azərbaycanla, türk dünyası ilə Beynəlxalq Türk Akademiyası arasında böyük əlaqələr qurub. Azərbaycanla əlaqələrə daim əhəmiyyət verib. O, bizim institutun Fəxri doktorudur. Onu nazir seçilməsi münasibətilə təbrik edirik. İndi növbə Azərbaycana keçib, Füzuli Məcidli Beynəlxalq Türk Akademiyasına rəhbərlik edir.

Monqolustanda qazıntılar aparılıb. Böyük türk düşərgəsi, Orxon-Yenisey abidələrinin mənşəyi tapılıb. Bu seminarda orada görülən işlərdən danışacağıq. Biz bu tarixi kəşfinə, elmə verdiyi töhfələrə görə Beynəlxalq Türk Akademiyasına minnətdarlığımızı bildiririk.

130 ildən çoxdur ki, bu abidələr əsasən mətn kimi öyrənilir. Hələ ki, Orxon-Yenisey abidələri ədəbiyyat, tarix, fəlsəfə, coğrafiya baxımından öyrənilməyib. 1950-ci illərdə bir tədqiqat aparılıb. Artıq ədəbiyyat yönümündən öyrənməyin zamanıdır".

Beynəlxalq Türk Akademiyasının prezidenti vəzifəsini icra edən Füzuli Məcidli seminarın təşkili üçün təşəkkürümü bildirib. Əlavə edib ki, "akademik İsa Həbibbəylinin Beynəlxalq Türk Akademiyasının qurucularından biri kimi, yaradılmasında və inkişafında çox böyük töhfəsi olub. Beynəlxalq Türk Akademiyası 2016-cı ildən Monqolustanda arxeoloji qazıntılar həyata keçirir. İlkini Altay dağlarından başlamışdıq. Monqolustanın iki bölgəsində görülən işlərin fotolarını görürsünüz. Bu yazıların oxunmasında böyük əməyi keçən alimlərdən biri də Nəpil bəydir".

Seminarda Nəpil Batılxan çıxış edərək nümayiş olunan fotolardakı abidələr haqqında ətraflı məlumat verib.

**Gülnar Səma**
*Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu,*
*İctimaiyyətlə əlaqələr şöbəsi*



# NİZAMİ GƏNCƏVİ. KİMLİYİ VƏ İDEYALAR ALƏMİ

**Hamlet İsaxanlı**

*Əvvəli jurnalın 419-cu (iyul 2022),420-ci (sentyabr 2022),421-ci (oktyabr 2022) nömrələrində*

## "İsgəndərnamə" və coğrafi məkan

İsgəndər taxta çıxan kimi xəbərçi gəlib "qara zəngilər"in Misir üzərinə hücum etdiyini və İsgəndər köməyə gəlməsə, vəziyyətin çox pis olacağını söylədi: "Nə Misir, nə Əfrəncə, nə də Rum qalacaq" ("Şərəfnamə", 1037). Nizami`nin İsgəndəri kömək istəyən heç kimdən köməyini əsirgəmir. İsgəndər öz ordusu ilə hərəkətə keçir, düşmən qüvvəsinin məskunlaşdığı yerə doğru yola düşür.

Zəngibar şahı böyük ordu toplamışdı:

*Həbəş sağda, bərbər solda idi,*
*Ortada divsayağ zəngi durmuşdu* (1314).

Zəngibar farsca "qara sahil" deməkdir, ərəbcədə bu Zəncibar şəkli aldı; bu ad ilə Nizami, görünür ki, çağdaş Tanzaniya və onun ətrafında yerləşən zənci xalqları nəzərdə tutmuşdu. Hazırda Zənzibar Tanzaniyanın bir hissəsidir.

Ağır döyüşdə zəngiləri məğlub edən İsgəndər "Misirə daxil oldu, camaata nəvaziş göstərdi" (1496), dəniz kənarında İsgəndəriyyə (Aleksandriya) adı qoyulan "Yaşıl bahar kimi bir şəhər saldı" (1501) və "O, dənizi keçərək Ruma gəldi" (1506).

**Qeyd.** Makedoniyalı Aleksandr onlarla şəhərin əsasını qoymuş və ya adını dəyişdirib, Aleksandriya etmişdir. Bu şəhərlərdən ən böyüyü Nil deltasında, Aralıq dənizi sahilində yerləşən və əsası (-331)-ci ildə qoyulan Aleksandriya (indiki İsgəndəriyyə) şəhəridir.

Antik yunan dövründə dünyanın böyük güclərindən biri İran idi. Ərazi və əhali sayı baxımından Yunanıstan kiçik, İran böyük idi. "İsgəndərnamə"də yunanların İrana xərac verdiyi və bunun İsgəndər taxta çıxan zaman da davam etdiyi deyilir. Öz gücünə inamı olan İsgəndər bu işə son qoymaq fikrinə düşdü – "Mən nə üçün Daraya xərac verim?" (1609). Beləliklə, İsgəndər özünü fateh kimi gördü, İranı və ümumiyyətlə, dünyanı fəth etməyə girişdi:

*İranlılara xidmət etməkdən çəkindi*
*İranı fəth etmək fikrinə düşdü* (1573)
*Dünyaya sahib olmaq fikrinə düşdü* (1667).



Nizami Gəncəvi

Əlbəttə, Nizami İranı yüksək qiymətləndirir, Marağa hökmdarı Əlaəddin Körpə Arslana ithaf etdiyi "Yeddi gözəl"də bu hökmdarı tərif edərkən, İranı dünyanın ürəyi kimi təqdim edir:

*Bütün aləm bədəndir, İran isə ürək*
*Bunu deyən belə bir bənzətmədən xəcalət çəkməz.*
*Çünki İran Yer (kürəsinin) ürəyidir,*
*Ürəyin isə bədəndən yaxşı olduğu məlum şeydir*[39].

Və bu tərifin canı olaraq hökmdara "Ürək sənsən" və "Sənin vilayətin isə o məmləkətin özəyidir" (359) deyir. Lakin, Nizami, Firdovsidən fərqli olaraq, İranın əfsanəvi və qəhrəmanlıq dövrlərinə xüsusi müraciət etmir, üstəlik, İran şahlarına, o cümlədən, öz qəhrəmanları Bəhram Gur və Xosrov Ənuşirvana pərəstiş etmir, əksinə onları danlayır, qadın qəhrəmanlarının dili ilə onları elm və mərifət öyrənməyə və ədalətə çağırır. Nizami baş, ideal qəhrəmanı olaraq yunan əsilli İsgəndəri – Makedoniyalı Aleksandrı seçir, daha doğrusu, yaradır.



*İran hökmdarı Dara. Qədim Roma şəhəri Pompeydə "Faun evi"ndə mozaika*

İran şahı Dara və İsgəndər savaşa hazırlaşırlar. Nizami bu iki ordunun hansı xalqlardan toplandığı barədə maraqlı fikir yürüdür: Dara İran, Çin, Xarəzm, Qəznə və Qur`dan ("Şərəfnamə", 1806-7), İsgəndər isə Misir, Əfrəncə, Rum və Rusdan qoşun düzəldir (1842). Burada və ümumiyyətlə, "İsgəndərnamə"də ilk baxışdan o dövr üçün anlaşılmaz olan "Rus" məsələsi – bu anaxronizm aşağıda müzakirə olunacaq.

İsgəndər İranda "atəşpərəsliyi ortadan qaldırmağa girişdi", "Atəşə pərəstiş edənlərin tüstüsünü çıxardı" (2819), sonra Babilə, Babildən "Azərabadgan tərəfə yönəldi" (2836). Odlar yurdu Azərbaycanda "özündən yanan" atəşi də külə döndərdi:

[39] Gəncəvi N. 1197. Yeddi gözəl. 356-357.

*O yerdə daş hasar içində bir ataş yanırdı,*
*Atəşpərəst onu "özündən yanan" adlandırırdı* (2838).
*Əmr etdi, qədim yanan atəşi*
*Söndürdülər və külə döndərdilər* (2840).

**Qeyd.** Firdovsinin "Şahnamə"sində atəşpərəstliyə hücum edilmir.

Nizami`nin İsgəndəri İranda son məntəqəyə – İsfahana getdi və orada Daranın qızı Rövşənəklə evləndi.

**Qeyd.** Yunan qaynaqlarında Aleksandr`ın evləndiyi və adı Roksana kimi keçən qız əslində hökmdar Dara`nın deyil, soqdialı bir zadəganın qızıdır. Lakin, Aleksandr Dara`nın böyük qızı Stateira, eləcə də İran Əhəməni şahı 3-cü Artakserkses`in qızı Parisatis`lə də evlənmişdi.

İsgəndər, nəhayət, İstəxr məntəqəsində taxta oturdu:

*Getdi İstəxrə, başına tac qoydu* (3061).

**Qeyd.** Gerçək Makedoniyalı Aleksandr, doğrudan da, İstəxrə (Persepolis yaxınlığında yerləşən məntəqəyə) getmiş və atəşpərəst mərkəzi sayılan bu şəhəri dağıtmışdı.

Bu təntənədən sonra İsgəndər bir ziyarət edib, ana vətənə dönmək fikrində idi; mömin şəxs olan Nizami öz İsgəndər`ini Kəbəyə aparmamış rahatlıq tapmazdı:

*Əcəm mülkü şaha ram olandan sonra*
*O, Ərəb mülkünə yola düşdü* (3273).
*İlk əvvəl Kəbənin qapısını döydü* (3292).
*Bir daha o, İraq mülkünə gəldi,*
*Öz evinə qayıtmaq fikrinə düşdü* (3299).

Bu anda Azərbaycandan gələn qasidin verdiyi xəbər İsgəndər`in planlarını kökündən dəyişdirdi.

*Bu anda Azərabadgan hökmranından*
*Azadələr kimi bir qasid gəldi...* (3300).

Abxaz və "Ərməndə atəşə pərəstiş edirlər" (3304) və onlar Abxaza tabedirlər. İsgəndər lazım gələni etdi:

*Qoşunu Babildən Ərmənə çəkdi.*
*Bu bulaşıqdan o ölkəni təmizlədi* (3310-11).

Nəticədə, "Abxaz diyarının sərkərdəsi–Dəvali" (3316) ona tabe oldu. Nizami Tiflis şəhərini də İsgəndərə bağlayır, bir qoca demiş "Ki, Tiflisi o abad etmişdir" (3336).
Və sonra

*Bərdədəki Nüşabəyə tərəf yönəldi* (3341).

* * *



Gəncədə Nizami məqbərəsi yanında Nüşabə və İsgəndər heykəli

Nizami`nin İsgəndər`i elə-belə, ancaq fəth üçün yürüş etmir, əsasən insanları, ölkəni zalımlardan, fəlakətdən qurtarmaq məqsədilə savaşa girir, İsgəndər`in savaşı ədalətli savaşdır. Misiri Zəngibardan xilas etmək, İrana ədalətli hökmdar ehtiyacını ödəmək, Abxaz və Ərməni atəşpərəstlikdən təmizləmək istəyir. İnsanları öldürən, əsir alan, şəhərləri dağıdan, yandıran Makedoniyalı Aleksandr Nizami`yə yaddır, Nizami`nin İsgəndər`i nahaq qan tökməyən, insanlara kömək edən ədalətli hökmdardır.

Psevdo-Kallisfen rəvayətinə görə Aleksandr elçi adı ilə Həbəşistan şahzadəsi Kandaki xanımın sarayına gedir. Lakin, şahzadə xanım elçinin davranışından şübhələnir və sarayında saxlanılan şəkilə görə İsgəndər`i tanıyır. Aleksandr başqa bir yerdə amazon xanımlarla da rastlaşır; bu da Aleksandr romanından götürülmüşdür. "Şahnamə"də İsgəndər elçi sifətilə Həbəşistana deyil, Əndəlüs şahzadəsi Kaydaf xanımın sarayına gedir; üstəlik, İsgəndər kişilərsiz yaşayan döyüşkən amazon xanımlar ölkəsinə də ayrıca baş çəkir. Nizami bu mövzunu daha dərindən işləmiş və onu Afrika, ya Əndəlüslə deyil, öz vətəni ilə, bugünkü dillə desəm, Azərbaycanla bağlamışdır. Nizami İsgəndəri öz Gəncəsinin yanında – Bərdədə yerləşən gözəl hökmdar xanım, "Əqli mətin, ürəyi açıq, sözü şirin" (3368) Nüşabə`nin yanına gətirir. "Bərdə mülkü gözəldir" (3346):

*Əgər sənə quş südü lazımdırsa, burada tapılar,*
*Torpağını qızıl suyuyla yoğurmuşlar* (3353-4).

Hərçənd ki, Nizami Bərdənin əvvəl belə gözəl olduğunu deyir, şairin öz zamanında isə "O nardan, nərgizdən ancaq iz qalmışdır" (3557). Nizami amazonlar haqqında əfsanələrə xüsusi yer ayırmır, bu cəhətdən də Nüşabə`ni irəli çəkir:

*Sinəsi yasəmən, baldırı gümüş qızlar*
*Hər işdə onunla birgə olarlar* (3386).
*Bütün işləri qadınlara tapşırmışdı,*
*Kişiləri görməyə ehtiyac duymurdu* (3372).

Nizami ənənəyə sadiq qalır; İsgəndər elçi sifətində Nüşabənin sarayına gəlir, Nüşabə onu şəklinə görə tanıyır, onlar dostlaşırlar.

Gerçək, tarixi Makedoniyalı Aleksandr Qafqaza ayaq basmamışdır. Nizami`nin "İsgəndərnamə"sində isə İsgəndərin Qafqaza gəlməsi, Nüşabə ilə dostlaşması və ruslarla bağlı sonrakı hadisələr əsərin çox mühüm hissəsini təşkil edir. Nizami qarşısına qoyduğu məqsədə çatmaq üçün tarixi istədiyi kimi dəyişdirir, İsgəndər`i onun dövründə tarix səhnəsində adı çəkilməyən ölkələrə aparır, xalqlarla görüşdürür, döyüşlərə girməyə məcbur edir.

İsgəndər "Şirvandan şir kimi yürüyüb keçdi" (3887), Dərbənd qalasını aldı, o yerin camaatını "vəhşi xasiyyətli" (3987) qıpçaqlardan qorumaq üçün o "dar yolda sədd" (3994) salınması əmrini verdi. Sonra "Dərya kənarınca, sahil boyunca" (4289) cənuba döndü, Rey və Xorasanı fitnəkar və zülmkarlardan təmizlədi, "atəşpərəstlərə cəza verildi" (4312), "Xorasanlıların qulağını burdu" (4345).

* * *

Nizami İsgəndərin fateh olduğunu unutmur. İsgəndərin Hindistan yürüşü "Ədalət" və ya "kömək etmək" naminə deyil, sadəcə həvəsdən, fəth ehtirasından, hətta "kabab yemək" istəyindən irəli gəlir:

*İran mülkü tamam mənim oldu,*
*İndi Hindistana at sürmək istəyirəm* (Şərəfnamə, 4368).
*Məst filin ətindən kabab yeyim* (4395).

İsgəndər Gilan, Rey, Herat, Nişapur, Mərv, Bəlx, Kirman və Ğəznədən keçib, Hind torpaqlarına daxil olur, Keyd adlı Hind hökmdarı İsgəndərə qiymətli hədiyyələr (o cümlədən, "pəri sifətli qız" – 4488) verib sülhə nail olur. İsgəndər ikinci Hind hökmdarı Fur (yunanca: Por və ya Poros) ilə savaşa digər hallarda olduğu kimi yanaşmır, onunla məktublaşmır, uzatmadan savaşa girib qalib gəlir. Nizami İsgəndər və Fur orduları arasında (-326)-cı ildə Pəncabda baş verən böyük Hidaspes savaşı barədə heç nə demir.

İsgəndəri Çinə də sanki hansısa zülmü durdurmaq və ya ədaləti bərpa etmək istəyi deyil, həvəs dartıb aparır.

*Hindistandan Təbbət (Tibet -H.İ.) diyarına getdi,*
*Təbbətdən keçib Çin hüduduna gəldi* (4566).

Çin xaqanı casus göndərib İsgəndərin nə düşündüyünü bilmək istəyir. Casusun İsgəndər barədə gəldiyi fikir – "Heç kəsin qanını tökməyə tələsmir" (4636), "Xuda ondan razıdır, məxluq isə şad" (4637) Çin xaqanını sülh aramağa sövq edir. Nizami`nin Çin anlayışı bir qədər qarışıqdır; çinli deyəndə kim nəzərdə tutulur – çincə danışan, Çin xalqının nümayəndəsimi ya Çinin şimalında yaşayan Çin türkümü? Nizami İsgəndəri Çin xaqanı adlandırdığı hökmdarla görüşdürür. İsgəndər Çin ilə savaşmadan yaxşı münasibət qurmaq istəyir, Çin xaqanına məktubunda belə yazır:

*Həbəş hüdudundan Çinə gəlmişəm,*
*Məğribdən Məşriqə at çapmışam* (4694).

*İran torpağından bura hərb üçün gəlmədik* (4689).
*Qoşunu Çin hüduduna ona görə çəkdim ki*
*Turan mülkünü ələ gətirəm* (4959).




*Rəssam Mikayıl Abdullayev*

Nizami Çin xaqanı barədə hörmət doğuran ifadə işlədir:

*Əfrasiyab mülkünün varisi*
*Günəştək Çindən başını ucaltdı* (4773).

Xaqan İsgəndər`in qonağı ikən "Rum əhlinin rəssamlığı" güclüdür, ya "Çin naxışı?" deyə mübahisə başlayır (5062-5). Məsələni aydınlaşdırmaq məqsədilə rumlu və çinli iki sənətkar arasında yarış keçirilir. Son nəticədə hər iki sənətkarın işi bəyənilir (5066-5093). Nizami həmçinin, məşhur rəssam Mani`nin Çinə səfəri barədə danışır; çinli sənətkar Mani`ni təəccübləndirən və heyran edən "Saf büllurdan parlaq bir hovuz" düzəltdi, bunun qarşılığında Mani "Həmin hovuz üstündə ölü it çəkdi" və çinliləri heyran etdi (5094-5110). Bu yarışlarda Çin tərəfi təmsil edənin "əsl çinli" olduğu qənaəti təbiidir.

Nizami Çin xaqanını gah "Çin hökmdarı", gah da "Türk hökmdarı" kimi təqdim edir. Nizami türk kəlməsini çox müxtəlif mənalarda işlədir. O, bir tərəfdən etnik türklərdən, onların geniş yayılmasından söhbət açır:

*Xəzər dağlarından Çin dənizinə qədər*
*Hər yeri türklərlə dolu görürəm* (5525).

Digər yandan türk sözündən gözəl, gözəllik, ağsifət, güc-qüdrət kimi keyfiyyətləri vəsf edən çoxçalarlı metafor kimi istifadə edir.

Çin Nizami`nin ən çox sevdiyi, ən çox müraciət etdiyi coğrafi-mədəni anlayışlardan və metafor kimi işlətdiyi sözlərdən biridir[40].

* * *

(*Davamı var*)

[40] İsaxanlı H. Böyük çaylar qərbdən şərqə doğru axır. (Великие реки текут с запада на восток.) Bax: Çin Azərbaycanlıların gözü ilə. Китай глазами Азербайджанцев. 2013. Bakı:Letterpress. səh. 51-64, 169-183.

# "XƏZƏR"Ə TƏŞƏKKÜR
# LETTER OF THANKS

*2022-ci il oktyabrın 27-də BMT Günü və BMT-Azərbaycan əməkdaşlığının 30 illiyi münasibətilə keçirilən tədbirdə Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor, akademik Hamlet İsaxanlı və Xəzər Universitetinin Kamera orkestri iştirak etdi.*

*Kamera orkestri Azərbaycanın Himnini və 3 hissədən ibarət klassik milli musiqini ifadə etməklə öz yüksək bacarığını nümayiş etdirdi. Tədbirdən sonra BMT-nin Azərbaycandakı Rezident Əlaqələndiricisi Vladanka Andreeva professor, akademik Hamlet İsaxanlıya dərin təşəkkürünü bildirən məktub və Kamera orkestrinin təltif olunduğu sertifikatı göndərmişdir.*

*On October 27, 2022,the founder of Khazar University, chairman of the Board of Directors and Trustees, professor, academician Hamlet Isakhanli and the Khazar University Chamber Orchestra took part in the event held on the occasion of the UN Day and the 30th anniversary of UN-Azerbaijan cooperation.*

*The chamber orchestra demonstrated its high skills by playing the Anthem of Azerbaijan and classical national music.*

*After the event, Vladanka Andreeva, the Resident Coordinator of the UN in Azerbaijan, addressed a letter expressing deep gratitude to professor, academician Hamlet Isakhanli and a certificate awarding the Chamber orchestra.*

**Birləşmiş Millətlər Təşkilatı**
**Azərbaycan**

**Hörmətli Professor Hamlet İsaxanlı,**

27 oktyabr Birləşmiş Millətlər Günü münasibətilə keçirilən tədbirdə Xəzər Universitetinin Kamera orkestrının nümayiş etdirdiyi möhtəşəm bacarığa görə sizə dərin minnətdarlığımı bildirirəm. Azərbaycan milli himninin və 3 hissəli milli klassik musiqinin qeyri - adiliyi Birləşmiş Millətlər Təşkilatı və Azərbaycan əməkdaşlığının 30-cu ildönümünə zənginlik qatdı.

Mən Kamera orkestrının çıxışı haqda dövlət rəsmilərindən, səfirlərdən, eyni zamanda özəl sektor nümayəndələrindən, bütün iştirakçılardan və mediadan çoxlu müsbət rəylər qəbul etdim. Siz orkestrinizin, müəllim və tələbələrinizin inanılmaz bacarıq, istək və fədakarlıqlarına görə qürur duymalısınız.

Mən Musiqi və incəsənət departamentinin rəhbəri Zülfiyyə Sadıqovaya bizimlə əməkdaşlığa və tədbirimizin təşkil olunmasında göstərdiyi dəstəyə görə xüsusi təşəkkürlərimi bildirirəm.

Gələcəkdə də Xəzər Universiteti ilə əməkdaşlığımızı davam etdirmək niyyətindəyəm.

*Hörmətlə,*

**Vladanka Andreeva**
*BMT-nin Rezident Əlaqələndiricisi*

16 noyabr 2022

# MƏKTUBU
# TO KHAZAR UNIVERSITY

**United Nations**
**Azerbaijan**

**Dear Professor Hamlet Isakhanli,**

I would like to express my deep gratitude to the Khazar University Chamber Orchestra for their excellent performance at the United Nations Day event on 27 October. An exceptional performance of the Azerbaijani national anthem and the three pieces of the national classical music have become a great addition to the celebration of the 30th anniversary of the UN-Azerbaijan partnership.

I received lots of positive feedback from all our guests about the performance of the Chamber Orchestra, including the Government officials, ambassadors, as well as representatives of the private sector, civil society and the media. You should be proud of your orchestra, combined of teachers and student performers, for their incredible talent, passion and dedication.

My special thanks go to Ms. Zulfiya Sadigova, head of the Music and Art Department at Khazar University, for her partnership and support during the organisation of the UN Day event.

I am looking forward to a continued partnership with Khazar University.

*Your sincerely,*

**Vladanka Andreeva**
*United Nations Resident Coordinator*

*November16, 2022*



CERTIFICATE OF APPRECIATION

awarded to

KHAZAR UNIVERSITY
CHAMBER ORCHESTRA

for their outstanding performance at the UN Day event
dedicated to the 30th anniversary of the UN-Azerbaijan partnership

October 2022

UNITED NATIONS OFFICE IN AZERBAIJAN BAKU

Vladanka Andreeva
UN Resident Coordinator
Republic of Azerbaijan

Date: 28 October 2022



## 8 NOYABR ZƏFƏR GÜNÜNƏ HƏSR OLUNMUŞ TƏDBİR

Xəzər Universitetinin Tarix və arxeologiya departamenti tərəfindən noyabrın 4-də 8 Noyabr Zəfər Günü ilə bağlı tədbir keçirildi.

Tədbirdə II Qarabağ müharibəsində şəhid olmuş leytenant Murad Nağıyevin anası Xavər Məhəmmədi və ailə üzvləri iştirak etdilər.

Hümanitar, təhsil və sosial elmlər fakültəsinin dekanı Dos. Elza Səmədli, Tarix və arxeologiya departamentinin müdiri Dr. Telman Nüsrətoğlu, departamentin müəllimləri Rüxsarə Quliyeva və Bayram Quliyevin çıxışlarında Ermənistan-Azərbaycan münaqişəsinin tarixinə nəzər salındı, 44 günlük müharibədə Azərbaycan ordusunun qazandığı böyük zəfərdən və bunun Azərbaycan xalqı və gənclər üçün daşıdığı dəyərdən bəhs olundu. Bayram Quliyev, həmçinin, Qarabağ bölgəsinə etdiyi səfərlə bağlı təəssüratlarını fotoşəkillərlə hazırlanmış slayt formasında təqdim etdi.

Tədbirin ən təsirli hissəsi rejisor Kamran Ağabalayevin iştirakı ilə şəhid Murad Nağıyev haqqında filmin nümayişi oldu. Filmdə şəhidin öz qələmindən çıxan şeirlər də səsləndirildi və iştirakşılar tərəfindən maraqla qarşılandı. Şəhidin anası Xavər Məhəmmədi oğlunun xatirəsinin yad edilməsinə görə ailə adından minnətdarlığını bildirdi.

## EVENT DEDICATED TO NOVEMBER 8 VICTORY DAY



On November 4, an event on November 8 Victory Day was held by the Department of History and Archeology of Khazar University.

The event was attended by the mother of lieutenant Murad Nagiyev, martyr of the Second Karabakh war, Khavar Mahammadi and his family members. The dean of the School of Humanities, Education and Social Sciences, Asoc.Prof. Elsa Semedli, the head of the Department of History and Archeology, Dr.Telman Nusratoghlu, and the lecturers of the department, Rukhsara Guliyeva and Bayram Guliyev, spoke about the history of the Armenian-Azerbaijani conflict, the great victory of the Azerbaijani army in the 44-day war, and its significance for the people of Azerbaijan and the youth. Bayram Guliyev's impressions of visiting the Karabakh region were presented via a slide show made up of photographs.

The most effective part of the event was the screening of the film about martyr Murad Nagiyev with the participation of director Kamran Agabalayev. The poems written by the martyr were read out in the movie, and received with interest by the participants. The mother of the martyr expressed gratitude on behalf of the family for commemorating her son's memory in this way.




# "SOLMA, YAŞA, XARIBÜLBÜL" ADLI FLEŞMOB KEÇİRİLMİŞDİR

Noyabrın 4-də "Şuşa ili" və 8 noyabr Zəfər günü münasibətilə Xəzər Universitetinin Dillər və ədəbiyyatlar departamentinin təşkilatçılığı ilə "Solma, yaşa, Xarıbülbül" adlı fleşmob keçirilmişdir. Tədbirdə Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri, professor, akademik Hamlet İsaxanlı iştirak etmişdir

Tələbələr vətənpərvərlik ruhunda şeir və musiqilərin fonunda 28 illik əsarətdən sonra azad olan və əbədi olaraq Şuşada var olacaq xarıbülbülü canlandırmışlar.

Musiqi və incəsənət departamentinin tələbələri tədris ili ərzində hazırladıqları "Qarabağ Azərbaycandır" adlı zəfər kompozisiyalı əsərləri ilə iştirak etmişlər. Müğənni Taleh Balakişiyev və Rövşanə Balakişiyevanın Mədəniyyət və İncəsənət Universitetinin tələbələrinin müşayiəti ilə "Qarabağ şikəstəsi" və "Xudayar təsnifi"ni ifa etmələri fleşmobun məzmununu daha da mənalandırmışdır.

Tədbirdə Xəzər Universitetinin məzun qazilərindən Cavad Həşimov və Xəyyam Şahbazov, Təhsil, humanitar və sosial elmlər fakültəsinin dekanı, dosent Elza Səmədova çıxış etmişlər. Çıxışlarda Zəfərin təntənəsinin arxasında dövlətimizin, xalqımızın və ordumuzun birlik və fədakarlığının dayandığı vurğulanmışdır. Fleşmobun sonunda tələbələr vətənpərvərlik ifadə edən musiqilərin müşayiəti ilə rəqs etmişlər.

# A FLASHMOB"DO NOT FADE, LIVE, KHARI-BULBUL" HELD

On November 4, on the occasion of the "Year of Shusha" and November 8 Victory Day, a flash mob called "Solma, Yasha, Kharibulbul" was held with the organization of the Department of Languages and Literatures of Khazar University. The event was attended by the founder of Khazar University, the chairman of the Board of Directors and Trustees, professor, academician Hamlet Isakhanli.

In the spirit of patriotism, the students revived the khari-bulbul, which was freed after 28 years of slavery and will remain in Shusha for all time, against the background of poems and music.

The students of the university's music and art department participated in the event with their triumphant compositions called "Karabakh is Azerbaijan" which they prepared during the academic year. Singer Taleh Balakishiyev and Rovshana Balakishiyeva, accompanied by the students of the University of Culture and Arts, performed "Karabakh Shikestesi" and " Tasnif of Khudayar " which made the content of the flash mob even more meaningful.

Khazar University graduate veterans Javad Hashimov and Khayyam Shahbazov, dean of the School of Education, Humanities and Social Sciences, Associate Professor Elza Samadova spoke at the event. In the speeches, it was emphasized that the unity and dedication of our state, people and army stood behind the celebration of Victory. At the end of the flash mob, students danced to patriotic music.

## DEKAN ALMANİYANIN AZAD BERLİN UNİVERSİTETİNDƏ *MEDIATS* LAYİHƏ TOPLANTISINDA

Oktyabrın 20-23-də İqtisadiyyat və menecment fakültəsinin dekanı Dr.Ceyhun Məmmədov Hollandiya Biznes Akademiyasının və Ukraynanın KROK Universitetinin koordinasiya etdiyi "Mediasiya: Təlim və Cəmiyyətin Transformasiyası" *MEDIATS* layihəsi çərçivəsində Almaniyanın Azad Berlin Universitetində olub.

Səfər oktyabrın 21-də Biznes İdeyasının İnkişafında Təsir və Davamlılıq mövzusunda seminarla başlayıb. *MEDIATS* tərəfdaşları işçi qrupu yaradıb, mediasiya strukturlarının və proqramın davamlılığı üzərində işləyiblər. Seminarın nəticəsi olaraq *MEDIATS* komandası yeni layihə hazırlayıb və oktyabrın 22-də keçirilmiş Sahibkarlıq Sammitinə təqdim edib.

Oktyabrın 22-də idarəetmə iclası keçirilib və *MEDIATS* layihəsinin fəaliyyətlərinin icra gedişi müzakirə edilib, gələcək fəaliyyət istiqamətləri müəyyən olunub.

## DEAN IN *MEDIATS* PROJECT MEETING AT FREE BERLIN UNIVERSITY IN GERMANY

On October 20-23, within the framework of the project "Mediation: Training and Society Transformation" *MEDIATS* coordinated by the Netherlands Business Academy in the Netherlands and co-coordinated by KROK University in Ukraine, Dr. Jeyhun Mammadov, Dean of the School of Economics and Management, visited Freie Universität Berlin in Germany.

The visit started on October 21 with a workshop on Impact and Sustainability in Business Idea Development. *MEDIATS* partners formed a working group and worked on the sustainability of mediation structures and the program. As a result of the workshop, the *MEDIATS* team developed a new project and submitted at the Entrepreneurship Summit on October 22.

On October 22, a management meeting was held, and the implementation progress of *MEDIATS* project activities was discussed, and future activities were defined.



# XƏZƏR UNİVERSİTETİNİN ƏMƏKDAŞLARI *MEDIATS* BEYNƏLXALQ İDARƏETMƏ GÖRÜŞÜNDƏ

# KHAZAR UNIVERSITY STAFF MEMBERS IN *MEDIATS* PROJECT MEETINGS

Oktyabrın 25-dən noyabrın 2-dək Hollandiya Biznes Akademiyasının və Ukraynanın KROK Universitetinin koordinatorluğu ilə "Mediasiya: Təlim və Cəmiyyətin Transformasiyası" layihəsi çərçivəsində *MEDIATS* Beynəlxalq İdarəetmə görüşü Gürcüstanın İliya Dövlət Universitetində və Batumi Şota Rustaveli Dövlət Universitetində baş tutdu.

Oktyabrın 25-29-da İliya Dövlət Universitetində keçirilən tədbirdə Xəzər Universiteti İqtisadiyyat və menecment fakültəsinin dekanı Dr. Ceyhun Məmmədov, Psixologiya departamentinin koordinatoru, sertifikatlı mediator Mələk Kərimova, İqtisadiyyat və biznesin idarə edilməsi fakültəsinin magistratura pilləsinin müəllimi, mediator Alidə Mahmudova iştirak ediblər.

Görüşdə mediator Alidə Mahmudova Azərbaycanda mediasiyanın inkişafı ilə bağlı təqdimatla çıxış etdikdən sonra Xəzər Universitetinin əməkdaşları Azərbaycan, Gürcüstan, Ukrayna və Avropa İttifaqının nümayəndələri ilə mediasiya üzrə ölkələrindəki vəziyyətlə bağlı panel müzakirələrində iştirak ediblər. Alidə Mahmudova və Mələk Kərimova Azərbaycanda tətbiq olunan mediasiya prosesi ilə bağlı öz peşə təcrübələrini bölüşüb, sualları cavablandırıblar.

Dr. Ceyhun Məmmədov Xəzər Universitetində layihənin icrası ilə əlaqədar mövcud vəziyyətlə bağlı çıxış edib. O, mediasiya üzrə MBA proqramının strukturu, qəbul olunan tələbələrin sayı və kredit tələbləri haqqında iştirakçılara ətraflı məlumat verib. Layihənin davamlılığı məsələsinə toxunan Dr. Məmmədov tərəfdaş universitetlər və Azərbaycanın Mediasiya Şurası ilə əməkdaşlığın genişləndirilməsi istiqamətində aparılan işlərin, Gəncə Dövlət Universiteti ilə mediasiya ilə bağlı davamlı birgə tədbirlərin və seminarların təşkilinin əhəmiyyətini vurğulayıb.

Oktyabrın 29-dan noyabrın 2-dək Hollandiya Biznes Akademiyasının və Ukraynanın KROK Universitetinin koordinatorluğunun Batumidə təşkil edilən növbəti İdarə Heyətinin iclasında Xəzər Universitetini Dr. Ceyhun Məmmədov və Mələk Kərimova təmsil etdilər. Bu görüşdə yekun hesabatın elektron formasının, yekun maliyyə hesabatlarının və əlavələrin hazırlanması nəzərdən keçirilmiş və müzakirə edilmişdir.

On October 25 – November 02, within the framework of the project "Mediation: Training and Society Transformation" *MEDIATS* coordinated by the Netherlands Business Academy in the Netherlands and co-coordinated by KROK University in Ukraine, International Highlight Event and Management Meeting took place at Ilia State University and Batumi Shota Rustaveli State University in Georgia, respectively.

At Ilia State University on October 25-29, Khazar University was represented by Dr. Jeyhun Mammadov, dean of the School of Economics and Management, Ms. Malak Karimova, a certified mediator and coordinator at the Psychology Department, and Ms. Alida Mahmudova, a certified mediator and instructor of Mediation at Graduate School of Economics and Business.

Followed by the presentation of Ms. Alida Mahmudova on the development of mediation in Azerbaijan, Khazar University staff participated in the panel discussion of comparative trends in

Azerbaijan, Georgia, Ukraine, and the European Union. Ms. Alida Mahmudova and Ms. Malak Karimova shared their professional experiences and answered audience questions.

Meanwhile, Dr. Jeyhun Mammadov delivered a speech on the project implementation at Khazar University. He gave detailed information to the participants about the structure of the MBA program in Mediation, the number of students admitted, the syllabuses, and credit requirements. Touching on the issue of project sustainability, Dr. Mammadov emphasized ongoing work on the extension of cooperation with partner universities and the Mediation Council of Azerbaijan, and the organization of continuous joint events and seminars related to mediation with Ganja State University.

At the management meeting on October 29 – November 02, Khazar University was represented by Dr. Jeyhun Mammadov and Ms. Malak Karimova. Preparation of the Final Report E-Form, Final Financial Statements, and Annexes was overviewed and discussed.

## NARKOMANİYAYA QARŞI MÜBARİZƏ HƏFTƏSİ: SİLSİLƏ SEMİNARLAR

## WEEK OF FIGHTING DRUG ADDICTION: A SERIES OF SEMINARS

Oktyabrın 27-dən noyabrın 5-dək Xəzər Universiteti Psixologiya departamentinin müəllimi və Respublika Narkologiya Mərkəzinin psixoloqu Ramin Allahverdiyev tərəfindən İngilis dili müəllimliyi, Dizayn və İqtisadiyyat ixtisaslarının tələbələri üçün "Psixoaktiv maddələrin istifadəsinin zərərli təsirləri" ilə bağlı seminarlar təşkil edildi.

Seminarlardan məqsəd tələbələrin psixoaktiv maddələrin insan sağlamlığına vurduğu ziyanlar haqqında məlumatlandırılması idi və bəzən gənclərin sosioekonomik və ailə problemləri ilə əlaqədar maddə istifadəsinə maraq duyduqları, bəzən də buna uyğun olmayan sosial çevrələrin mənfi təsirlərinin səbəb ola biləcəyi haqqında müzakirələr aparıldı. Tələbələrə psixi və fiziki sağlamlıqlarını necə qoruya biləcəkləri, nələr edə biləcəkləri ilə bağlı alternativ yollar haqqında məlumat verildi və sualları cavablandırıldı.

From October 27 to November 5, Ramin Allahverdiyev, a teacher of the Khazar University Psychology Department and a psychologist of the Republican Narcology Center, organized seminars on "Harmful effects of the use of psychoactive substances" for students of English language teaching, Design and Economics majors.

The purpose of the seminars was to inform the students about the harms of psychoactive substances to human health, and discussions were held on the fact that sometimes young people are interested in substance use due to socioeconomic and family problems, and sometimes it can be caused by the negative effects of inappropriate social circles. Students were given information about alternative ways to protect their mental and physical health, what they could do, and their questions were answered.

## "XƏZƏR"İN MÜƏLLİMİ "QLOBALLAŞMA DÖVRÜNDƏ MİLLİ-MƏNƏVİ DƏYƏRLƏRİN QORUNMASI" LAYİHƏSİNİN TƏQDİMATINDA

## KHAZAR UNIVERSITY FACULTY MEMBER AT PRESENTATION "PROTECTION OF NATIONAL AND MORAL VALUES IN THE ERA OF GLOBALIZATION" PROJECT

Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin maliyyə yardımı ilə "Dialoq və İnkişaf Naminə" İctimai Birliyinin həyata keçirdiyi "Qloballaşma dövründə milli-mənəvi dəyərlərin qorunması" layihəsinin təqdimatı oktyabrın 27-də Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) Biznes və menecment fakültəsinin və Humanitar fənlər kafedrasının təşkilatçılığı ilə keçirilib.

Tədbirdə "Dialoq və İnkişaf Naminə" İB-nin (DİNİB) idarə heyətinin üzvü Günay Hacıyeva layihə barədə məlumat verib.

Sonra İqtisadi Araşdırmalar və Təhlil Mərkəzinin rəhbəri, Xəzər Universitetinin müəllimi Radil Fətullayevin də qatıldığı müzakirələr aparılıb, çıxışlar dinlənilib. Çıxışlarda gənclərin milli-mənəvi dəyərlərinin inkişafının, milli məfkurənin gələcək nəsillərə ötürülməsinin, tarixi azərbaycançılıq ideyalarının daha da inkişaf etdirilməsinin əhəmiyyətindən danışılıb.

*Tehsil-press.az* və digər saytlar tədbir haqqında xəbər yayımlamışlar.

The presentation of the project "Protection of national and moral values in the era of globalization" carried out by the "For Dialogue and Development" Public Union with the financial assistance of the Agency for State Support to Non-Governmental Organizations of the Republic of Azerbaijan was held on October 27, with the organization of Azerbaijan State University of Economics (UNEC) Faculty of Business and Management and Department of Humanities

At the event, Gunay Hajiyeva, a member of the board of directors of "For Dialogue and Development" PU, provided information about the project. Then discussions took place, in which Radil Fatullayev, head of the Center for Economic Research and Analysis, Khazar University faculty member, also participated, and speeches were heard. In the speeches, the importance of the development of the national and moral values of the youth, the transfer of the national ideology to future generations, and the further development of the ideas of historical Azerbaijaniness were discussed.

*Tehsil-press.az* and other websites published news about the event.

*http://tehsil-press.az/index.php?newsid=71544#newsbase1*

# "BİLİM BAKI" MƏRKƏZİNİN DİREKTORU TƏLƏBƏLƏR ÜÇÜN İNFOSESSİYA KEÇİRMİŞDİR

# "BILIM BAKU" CENTER DIRECTOR HOLDS AN INFORMATION SESSION FOR STUDENTS






Noyabrın 1-də "Teknofest"-in Azərbaycandakı rəsmi nümayəndəliyi "Bilim Bakı" Mərkəzinin direktoru Yusuf Polat Xəzər Universitetinin tələbələri üçün infosessiya keçirmişdir.

Tədbirdə Xəzər Universitetinin rektoru dosent İradə Xəlilova, İctimaiyyətlə əlaqələr və media üzrə direktor Əlövsət Əmirbəyli, Təbiət elmləri və mühəndislik fakültəsinin dekanı dosent Fəxrəndə Əlimərdanova, departament rəhbərləri, müəllim və tələbələr iştirak ediblər.

Fəxrəndə Əlimərdanova tədbiri giriş sözü ilə açaraq, qonaqları və tələbələri salamlayıb, "Teknofest" yarışması və Xəzər Universitetinin festivalda iştirak edən tələbələri haqqında ətraflı məlumat vermişdir. Rektor İradə Xəlilova universitet tələbələrinin bu cür yarışmalarda iştirakının onların gələcək fəaliyyəti üçün faydalı olduğunu bildirib, tələbələri belə yarışlarda aktiv iştirak etməyə çağırıb.

Tədbirin digər hissəsi olan infosessiya "Bilim Bakı" mərkəzinin direktoru Yusuf Polatın təqdimatı ilə davam edib. Təqdimat tələbələrin böyük marağı ilə qarşılanıb və onların sualları Yusuf Polat tərəfindən cavablandırılıb.

On November 1, Yusuf Polat, the director of the "Bilim Baku" Center, the official representative of "Teknofest" in Azerbaijan, held an info session for students of Khazar University.

Khazar University rector associate professor Irada Khalilova, director of Public Relations and Media Alovsat Amirbeyli, dean of the School of Science and Engineering associate professor Fakhranda Alimardanova, department heads, faculty members and students participated in the event.

In her opening speech Fakhranda Alimardanova welcomed the guests and students, and gave detailed information about the "Teknofest" competition and Khazar University students participating in the festival. Rector Irada Khalilova said that the participation of university students in such competitions is useful for their future activities, and urged students to actively participate in such competitions.

The info session, which is another part of the event, continued with the presentation of Yusuf Polat, director of the "Bilim Bakı" center.

The presentation aroused great interest of the students and their questions were answered by Yusuf Polat.



## TƏLƏBƏLƏR BAYTARLIQ ELMİ-TƏDQİQAT İNSTİTUTUNDA

Noyabrın 1-də Xəzər Universiteti Həyat elmləri departamentinin Baytarlıq təbabəti üzrə koordinatoru b.ü.f.d. Ayaz Məmmədov və Baytarlıq təbabəti ixtisası üzrə təhsil alan 3-cü kurs tələbələri Kənd Təsərrüfatı Nazirliyinin Baytarlıq Elmi-Tədqiqat İnstitutu (BETİ) və onun nəzdindəki Baytarlıq Klinikasında olublar.

BETİ əməkdaşları tərəfindən seroloji müayinələr, kəndtəsərrüfatı heyvanlarının infeksiyon xəstəlikləri, yoluxmayan xəstəliklər, mikoloji, arı xəstəliklərinin müayinəsi, quşların infeksiyon xəstəlikləri və s. ilə əlaqədar avadanlıqlar, müasir tədqiqat metodları haqqında tələbələrə geniş məlumat verildi.

Sonra isə tələbələr Baytarlıq klinikasında heyvanların müayinəsi, qanın ümumi analizi, xəstəliklərin diaqnostikası, müalicəsi və s. işlərlə tanış oldular.

## STUDENTS AT VETERINARY RESEARCH INSTITUTE

On November 1, Ayaz Mammadov, Ph.D. in Biology, the coordinator of the Department of Life Sciences of Khazar University, and the 3rd year students studying Veterinary Medicine visited the Veterinary Scientific Research Institute of the Ministry of Agriculture and its Veterinary Clinic.



The staff of the Veterinary Research Institute provided the students with detailed information about the equipment and modern research methods related to serological examinations, infectious diseases of agricultural animals, non-infectious diseases, mycological, examination of bee diseases, infectious diseases of birds et c.

Then the students got acquainted with animal examination, general analysis of blood, diagnosis and treatment of diseases et c. in the Veterinary clinic.

# "100 İL ŞƏRƏFLİ ÖMÜR" FİLMİNİN TƏQDİMATI

# "100 YEARS OF GLORIOUS LIFE" FILM PRESENTATION

Noyabrın 2-də Xəzər Universiteti, "Aydınlığa doğru" Milli-Mənəvi Dəyərlərin Qorunması İctimai Birliyi və "Damla" Aztəminatlı Ailələrə Qayğı İctimai Birliyinin təşkilatçılığı ilə universitetin Mərmər salonunda Hacı Zeynalabdin Tağıyevə həsr olunmuş "100 il şərəfli ömür" filminin təqdimatı keçirildi. Ekran əsərinin ssenari müəllifi, quruluşçu rejissoru və baş prodüseri Cəlaləddin Qasımovdur.

Universitetin İctimai əlaqələr və media üzrə direktoru Əlövsət Əmirbəyli tədbiri giriş sözü ilə açaraq, qonaqları və toplaşanları salamladı, tədbirin tələbələr üçün əhəmiyyətindən danışdı.

"Aydınlığa doğru" İctimai Birliyinin sədri, tanınmış telejurnalist Solmaz Əmirli Hacı Zeynalabdin Tağıyevin Azərbaycandan kənarda tanınmasına xidmət edən bədii-sənədli filmin yüksək sənətkarlıqla hazırlandığını, Lissabonda "Heritales International Heritage" Film Festivalının finalçı sertifikatına layiq görüldüyünü, həmçinin Lissabondakı Lusofona Universitetində nümayiş olunduğunu diqqətə çatdırdı. Qeyd etdi ki, bu festivala dünyanın fərqli mədəniyyətlərinin tanıdılması, mədəni irs tarixi mövzusunda çəkilmiş filmlər qəbul edilir.

Film nümayiş etdirildi. Nümayişdən sonra tarixçi alim, professor Fidovsiyyə Əhmədova, AMEA-nın elmi işçisi, Azərbaycan İlahiyyat Universitetinin müəllimi Elvüsal Məmmədov, İqtisadi Araşdırmalar və Tədris Mərkəzinin rəhbəri, Xəzər Universitetinin müəllimi Radil Fətullayev və "Dimet" klinikasının baş həkimi Səfərbəy Səfərbəyov çıxış etdilər. Onlar milli-mənəvi dəyərlərin qorunmasında vacib olan məqamlardan danışdılar.

Tədbirin davamı olaraq tələbələr H.Z.Tağıyevlə bağlı verilmiş 5 sualı cavablandırdılar. Seçilmiş tələbələr mükafatlandırıldılar. Sonda Xəzər Universitetinin rəhbərliyinə göstərdiyi dəstəyə görə təşəkkür edildi.

On November 2, the presentation of the film "100 years of glorious life" dedicated to Haji Zeynalabdin Taghiyev was held in the marble hall of the university with the organization of Khazar University, "Aydınlığa doğru" Public Union for the Protection of National Moral Values and "Damla" Public Union for Care of Low-Income Families. This screenplay was written, produced, and directed by Jalaladdin Gasimov.

Alovsat Amirbeyli, the director of Public Relations and Media of the University, opened the event with an introductory speech, welcomed the guests and the audience and spoke about the importance of the event for students.

The well-known TV journalist Solmaz Amirli, who chairs the public union "Aydınlığa doğru" drew attention to the fact that the feature-documentary film, which served to make Haji Zeynalabdin Taghiyev known outside of Azerbaijan, was made with high mastery, was awarded the finalist certificate of the "Heritales International Heritage" Film Festival in Lisbon, and was also demonstrated at Lusofona University in Lisbon. She noted that films made on the topic of introducing different cultures of the world and the history of cultural heritage are accepted for this festival.

The film was shown. After the demonstration, the historian, professor Fidovsia Ahmedova, researcher of ANAS, the lecturer of the Azerbaijan Theological University Elvusal Mammadov, the head of the Center for Economic Research and Education, the lecturer of Khazar University Radil Fatullayev and the chief physician of the Dimet clinic Safarbey Safarbekov spoke after the demonstration.

As a continuation of the event, students answered 5 questions about H.Z. Taghiyev. Selected students were awarded. In the end, Khazar University administration received a commendation for their support.





1978-ci il iyul ayının 1-də Hamletlə birlikdə, Minskdə təşkil olunmuş "Funksional fəzalar üzrə Ümumittifaq Məktəbi" adlı konfransda iştirak etmək üçün Bakı-Xarkov-Minsk reysi ilə Xarkova uçduq.

Gecəyə qədər vaxtımız olduğundan, bir zamanlar Ukraynanın paytaxtı olmuş tarixi Xarkov şəhərini dolaşdıq, xatirə şəkli çəkdirdik, bir qədər də restoranda dincəldik və əyləndik. Hekayə bura qədər olduqca bəsitdir, göründüyü kimi. Əsl macəralar Minskdə baş verdi ki, bu da ayrı bir söhbətin mövzusudur.

# "XƏZƏR"İN SORAĞINDA" RİSALƏSİNİ OXUDUQDAN SONRA PAYLAŞMAQ İSTƏDİYİM İNCƏLİKLƏR HAQQINDA

*Bütün məclislərimizin canı-ruhu olan unudulmaz Nailə`xanımın əziz xatirəsinə*

## Proloq

Xəzər Universitetinin təsisçi rektoru olmuş Hamlet İsaxanlı (İsayev) ilə mənim tanışlığım 1967-ci ilin dekabr ayına, 3 il sürən əsgərlikdən Azərbaycan Dövlət Universitetinin (ADU, indiki Bakı Dövlət Universiteti) Mexanika-riyaziyyat fakültəsinin III kursuna döndüyüm vaxta təsadüf edir, yəni bu ilin dekabr ayında tanışlığımızın 55 illik yubileyi keçirilə bilər. Və bu yubileydə Hamlet (Kosalı) və məndən (Poylu) başqa, bizim kimi ADU-nun Mexanika-riyaziyyat fakültəsi Azərbaycan bölməsinin 1970-ci il məzunları Fərhad Hüseynov (Göyçay), Abbas Əzimov (Lahıc, Bakı), Səmədağa Abdullayev (Cəlilabad), Alı Yusifov (Dağ Kəsəmən), Fəxrəddin Axundov (Salyan), Lətif İsmayılov (Aşırallar), Məmməd Mustafayev (Sadıxlı), Adıgözəl Dosiyev (Ləmbəli) və digərləri də iştirak edə bilərlər əlbəttə.

Yuxarıda adlarını zikr etdiyim yoldaşlar mənim əsgərlikdən sonra doğmalaşa bildiyim dostlar idilər və Hamlet ilk vaxtlar bunların arasında yox idi. Onunla nisbətən yaxınlaşmağım III kursun II semestrində ikimizin də Arif İsmayılovun açdığı "Funksional analiz və funksiyalar nəzəriyyəsi" (əslində isə "Psevdoanalitik funksiyalar nəzəriyyəsi") ixtisasını seçməyimiz, əlaçı olaraq bir-birimizi qəbul etməmiz oldu. Lakin bizim nisbətən yaxınlaşmamıza səbəb olan bu hadisələrlə yanaşı, bu yaxınlaşmanı əngəlləyən səbəblər də ard-arda meydana çıxmaqdaydı. Onlardan birincisi və ən təsirlisi III kursun yay tətilindən döndükdən sonra, avqustun sonuna yaxın (dərslər 1 sentyabr – bilik günündə başlayırdı) qidadan zəhərlənməyim və poliklinikada ilk qarşıma çıxan həkimin cinayətkar laqeydliyi və səriştəsizliyi üzündən ölümlə təkbətək, üz-üzə qalmağım olmuşdu (gözüm görmür, qulağım eşitmir, dilim də söz tutmurdu, çünki yalnız oksigen balışı ilə nəfəs alırdım). Mən ancaq Neft

Dağlarından özünü yetirən böyük qardaşım Nəcəfin sayəsində Semaşko adına (indi Nağıyev adına) xəstəxananın travmatologiya şöbəsinə aparıldım və oranın qəbul otağında bəxtimə çıxan növbətçi həkim, yüksək keyfiyyətli cərrah, gözəl insan olan Asif Əhmədlinin, gecikmədən, bilavasitə qəbul otağında üzərimdə apardığı cərrahiyyə əməliyyatları, daimi nəzarəti, ara vermədən çalışması (və yeni əməliyyatları) sayəsində, nəhayət noyabrın ortasında kəfəni yırtıb, sevdiyim yoldaşların səflərinə qayıda bildim.

Təkrara yol verib qeyd etməliyəm ki, mənim bu xeyli uzun sürən ölüm-dirim mücadiləm zamanı yuxarıda adlarını zikr etdiyim yoldaşlar məni heç vaxt yalnız qoymadılar. Faktiki olaraq IV kursun ikinci semestrində dərslərə müntəzəm olaraq gələ bilməyim bizi xeyli yaxınlaşdırsa da, yay tətilində Gəncə (Kirovabad) şəhərində baş tutan 56 günlük hərbi xidmət bizi yenə bir-birimizdən ayırdı. Üzərimdə aparılmış əməliyyatları görən hərbi həkim komissiyası məni hələlik hərbi qulluğa yararsız hesab etdi. V kursda başlayan pedaqoji praktika da bizim "aramıza girdi" – Hamlet praktikanı 132№li, mən isə 199№li məktəbdə keçəsi olduq. Və bu zaman mən yataqxanada, Hamlet isə sonradan, əsgərlik gündəliklərindən də bildiyimiz kimi, Həzi Aslanov küçəsində, gələcək həyat yoldaşı Nailə Əskərligilin yaşadığı 31№li evdə kirayənişin olaraq qalırdı.

Türkün sözü, "dahası da var". Hamlet Mirabbas Qasımovla əlaqə yaradıb, onunla diplom işi yazdığı zaman, mən özümün və rəhbərimin səhlənkarlığı ucbatından, diplom işinin başını buraxıb, dövlət imtahanlarına hazırlaşmağa başladım. Mart ayında dekanlıqdakı bölgü zamanı təyinatım (ən yüksək bal sahibi olaraq) Akademiyanın Riyaziyyat və Mexanika İnstitutuna yazıldığı halda, anamın xəstəliyi və vəfatı səbəbi ilə rektorluqdakı təyinatda iştirak edə bilmədim və siyahıda qabağım boş qaldı. Mən də bu (mənə görə) ədalətsizliyə üsyan edərək, kimsə ilə məsləhətləşmədən müəllimə ehtiyacı olan Cəlilabad rayonunun yolunu tutdum və buna görə indi də peşman deyiləm. Axı mənim dostum Səmədağanın təyinatı da ora, yaşadığı rayona idi. Bu yaxşı idi əlbəttə, amma məni Hamletdən daha da uzaqlaşdırmaq baxımından pis idi.

* * *

Daha sonra Hamlet MDU-da, mən isə az sonra BDU-da aspirant olaraq bir-birimizdən uzaq və xəbərsiz qaldıq. Bizim növbəti yaxınlaşmamız onun dissertasiya müdafiə edib, elmlər namizədi olduqdan və mənim də aspiranturanı ciddi bir elmi nəticəm (məqalə, konfransda iştirak və s.) olmadan bitirib, gənc və ümid verən mütəxəssis olaraq BDU-nun Fizika fakültəsinin Riyaziyyat kafedrasında işləməyimlə, 1974-75-ci tədris ilindən başladı. Bu zaman Hamlet AMEA-nın Riyaziyyat və Mexanika İnstitutunda işləməklə yanaşı, BDU-nun mexanika-riyaziyyat fakültəsində dərs verirdi və funksional analiz üzrə artıq bir neçə diplomçusu da vardı. Və bizim daha da yaxınlaşmamız (həm şəxsi, həm də elmi cəhətdən) onun, əsasən diplomçuları üçün təşkil etmiş olduğu seminarda mənim kifayət qədər aktiv iştirakım və 1976-cı ilin avqustunda baş tutan evliliyim oldu. Hamletin isə artıq Aygün və Zeynəb adında iki qızı vardı. Bu yaxınlaşmanın şahidi olaraq da onun mənə 6.09.1976-cı tarixdə hədiyyə etdiyi "Əzizim İsmixana dərin hörmətlə" avtoqraflı 1973-cü ilin avtoreferatını, 1975-i ilin "Funksional analiz və onun tətbiqləri" və 1976-cı ilin "SSRİ Elmlər Akademiyasının məruzələri" jurnallarındakı eyni avtoqraflı məqalələrini göstərə bilərəm.

Yaxınlaşma dalğasının növbəti yüksəlişi mənim 1976-cı ilin son üç ayında MDU-da keçən ixtisas artırma kursundan, Hamletin maraq dairəsinə daxil olan "Ədədi oblast" mövzusunda kifayət qədər əli dolu qayıtmam və bunun nəticəsi olaraq da artıq 1977-ci ildə Hamletin tələbə və aspirantlar üçün təşkil etdiyi "Operatorların ədədi oblastı" adlı seminarda həmsədrliyim oldu. Buna da şahid olaraq onun mənə 1977-ci ildə "Qardaşım və həmkarım" avtoqrafı ilə bağışladığı və "Успехи математических наук" jurnalında çap olunmuş məqaləsini göstərə bilərəm. Yenə də Hamlet ailəsinin, məxsusi olaraq onun həyat yoldaşı Nailə xanımın təşəbbüsü ilə artıq biz eyni həyətdə və eyni mərtəbədə qonşu olaraq yaşayır və çalışırdıq. Və bu çalışmaların nəticəsində mənim gələcəkdə müdafiə edəcəyim "Operatorların və normalı cəbr elementlərinin ədədi oblastı" mövzusundakı dissertasiyamın əsas müddəaları artıq 1978-79-cu tədris ilində alınmış oldu.

Daha sonra Hamlet doktorluq dissertasiyası və aspirantlarının, mən isə namizədlik dissertasiyam, tələbə və abituriyentlərimin arxasınca qaçdıq və paralel olaraq müxtəlif səviyyədə olan bu işlərdə hər ikimiz də müvəffəq olduq. Bütün bunlar və daha sonra başlayan milli azadlıq və meydan hərə-

katında iştirakımız, artıq Hamletgilin Əhmədlidə bizdən məkanca uzaq yaşamalarına baxmayaraq, bizi daha da yaxınlaşdırırdı. Artıq Hamlet müəllim Voznesenski adına Leninqrad Maliyyə-İqtisad İnstitutunun Bakı filialında Riyaziyyat kafedrasının müdiri vəzifəsində işləyirdi və ingilis dilli özəl bir universitetin yaradılmasının zəruriliyi ideyası da elə bu zamanlar (zamanın tələbinə cavab olaraq) yaranmağa başlamışdı.

* * *

Əlavə etmək istərdim ki, mənim bu ideyalardan, onların inkişaf dinamikasından heç bir xəbərim olmamışdı və 30 il boyunca, ta bu günə qədər də olmadı. Bizim söhbətlərimiz əsasən riyaziyyat və şeir-sənət, oxuduğumuz kitablar, seyr etdiyimiz filmlər haqqında olardı. Məsələ burasındadır ki, mənim təbiətim etibarilə nəyisə qurmaq, sonra onu idarə etmək sahəsində nə səriştəm, nə də bu işə həvəsim olmamışdı. Qısa sürən Xalq Cəbhəsi hakimiyyəti dövründə BDU-nun rektoru rəhmətlik Səməndərov Firudin əvvəl mənə qiyabi və axşam şöbələri üzrə prorektor, sonra isə Fizika fakültəsinin Riyaziyyat kafedrasında müdir vəzifəsini təklif edib, bu işdə kifayət qədər israr etsə də, mən razılıq vermədim və sonra da mənim 19 il sürəcək olan Türkiyə səfərim (Odisseyam) başladı.

Bu illər ərzində söhbətimizin mövzusu heç dəyişmədi. Universitet quruculuğu haqqında kəlmə kəsdiyimiz yadıma gəlmir və həyatın cilvəsinə bax ki, yeni çıxan kitab və məqalələrini haradasa hamısını mənə bağışlayan Hamlet müəllim "Xəzərin" sorağında" kitabını mənə verməmişdi. Bu kitabla yalnız bir təsadüf nəticəsində tanış ola bildim. 2022-ci ilin 27 iyununda Raqib Quliyev və Fərhad Hüseynovun da qatıldığı bir görüşə Hamlet müəllim bir çanta dolusu kitabla gəlmişdi və bu kitablar əsasən Fərhad müəllim üçün (onun ricası üzərinə) nəzərdə tutulmuşdu. Kitabların içində olan "Xəzər"in sorağında" kitabı çantadan çıxanda, Fərhad "bu kitab məndə var" deyincə, nəhayət ona mən talib oldum və kitabı oxuduqdan sonra da bu gördüyünüz yazının yazılmasına qərar verdim. Çünki bu kitabın məni gəzdirdiyi "mağaralarda" mənim əvvəllər bilmədiyim, bilincə də gözümü, ağlımı və könlümü "oxşayan" çox incə şeylər tapdım özüm üçün. Bu yazının ələ alınması, o könül oxşayan incəlikləri dostlarla paylaşmaq istəyindən irəli gəlmişdir.

Yeri "getməmişkən" əlavə edim ki, söhbətin mövzusu nə olur olsun, oradan mənim yeni, bilmədiyim bir şeyi əxz etməyim dəyərlərin başında gəlir. Məncə bu çox vacib faktordur. Təsadüfi deyil ki, Quran-i Kərimin ilk enən "Ələq" (ana rəhminin divarına yapışmış mayalanmış yumurta) surəsinin 5-ci ayəsində, "O, insana bilmədiklərini öyrətdi" deyilmişdir.

## İncəliklər

İncəliklər artıq kitabın özünə və içindəki fəsillərə verilən adlarda özünü göstərməyə başlayırdı. Misal üçün, "Yerlə göy arasında" (təyyarədə), "Dərin quyu içində" (Hamlet bu quyunu "Xəzər"in başı buluddan nəm çəkən minarəsinə çevirməyi bacardı), "Sarayın astanasında" (burada Nazirlər Kabinetinin "Elçi daşı" nəzərdə tutulur. Hər orada oturanı saraya almırdılar əlbəttə), "Kommunist partiyası və...rektorluq oyunu" (Kommunist partiyası getsə də, rektorluq oyunu həmişə qalacaqdır), "Hava tutulub açılır" (şərait anbaan dəyişir, gah zirvədə fəxrlə ətrafı seyr edirsən, gah da dərənin dibində şimşək və ildırımlardan qorunmağa yer arayırsan), "Zəlzələ" (buradan az itkilərlə çıxmaq üçün "yükümüzü təpənin başına yığmamız lazım"), "Üsyan" (Qiyam zəfər çalınca adı olur inqilab) və nəhayət "Şıltaq adamın yumşaldılması" («Укрощение строптивого») və ya "Biz yenə yaşadıq torpaq üstündə" (Çox şükür, ay Hamlet! Allah Səməd Vurğuna da rəhmət eləsin).

Fəsillərin sayı 21-dir. Bu bir yandan "oçko" deyilən və qələbədən xəbər gətirən bir müjdəçi olmaqla yanaşı, ağıl-zəhmət-cəsarət üçlüsünün möcüzəvi (7) birliyinin Xəzər Universitetinin timsalında reallaşmasına bir işarədir.

## Fəsil 1. Yerlə göy arasında

1990-cı ilin iyul ayında London-Bakı reysi ilə uçan və həmişə olduğu kimi yol qeydləri etməklə məşğul olan Hamlet müəllimin ağlına, yəqin ki, plenar məruzəçi kimi qatılmış olduğu Beynəlxalq Dandi konfransındakı ikili və çoxtərəfli görüşlərin təsiri nəticəsində, bir ideya gəldi. Bu yerdə sözü

Hamlet müəllimin özünə verək, çünki o, bizim sözlə demək istədiklərimizi məcazi olaraq "sazla" deyəcəkdir:

"Cəmiyyətin söykəndiyi mənəvi dəyərlər çürüməyə başlamış, iqtisadi təməl dağılmaqda idi.

Təyyarədə deyildim sanki, yerlə göy arasında asılı qalmış bir vəziyyətdə, bir çəkisizlik halında hiss edirdim özümü. Düşüncələrimin bir duman şəklində məndən ayrıldığını hiss etdim elə bil. "Görəsən kiçik bir universitet yarada bilərəmmi?"

## Fəsil 2. Dərin quyu içində

"Bakıya qayıtdıqdan sonra bir az dincəlib işə çıxdım. O zaman mən N.A.Voznesenski adına Leninqrad Maliyyə-İqtisad İnstitutunun Bakı filialında işəyirdim. AXTİ (Azərbaycan Xalq Təsərrüfatı İnstitutu) ciddi nöqsanlara görə bağlanmışdı. Filialın direktoru Raqib Quliyev intriqalar sonucu tezliklə Fuad Ələsgərovla əvəz olundu. Onunla səmimi söhbət alınmadı və millət vəkili seçkisində onunla yanaşı mənim namizədliyimin də irəli sürülməsi, onsuz da "kor" olan münasibətləri əməllibaşlı korladı".

Bütün bu olumsuzluqlara, qurulan quyu-tələlərə baxmayaraq Hamlet mətin, sərrast addımlarla irəlilədi və qazılan quyuları, xəyalında qurduğu və gələcəkdə qurulacaq olan universitetin "minarələrinə" çevirməyi bacardı.

## Fəsil 3. Bir yazının arxasınca

"1990-ın yayında "Elm və təhsil sistemi haqqında mülahizələr" yazısı yazıldı. Yaxınlara paylandı. Bunların arasında Saleh Məmmədov da vardı (bu yazı ilk dəfə "Xəzər Xəbər"də 1996-1997-də nəşr olundu). "İynə ulduzu" boyda kiçik də olsa, ümidimiz vardı. Məqalə 3-4 aydan sonra, qısaldılmış və yalı-quyruğu qayçılanmış halda "Bakinski raboçiy" qəzetində 25 yanvar 1991-ci ildə "Toçka zreniye uçyonoqo" rubrikasında, Azərbaycan variantı isə 1991-ci ilin 17 mayında "Kommunist" qəzetində "Mülahizələr, təkliflər" rubrikasında "Təhsil dünyəvi xarakter daşımalıdır" adı altında çap olundu. Bu da qısaldılmışdı, amma ifadə və cümlələrimə çox toxunulmamışdı. Məsxərə olaraq və məmnunluqla əlavə edim ki, bu məqalə çıxanda, açılmasını möcüzə hesab etdiyim universitetin yaradılması barədə Nazirlər kabineti artıq qərar vermiş və mən də bu istiqamətdə fəaliyyətə başlamışdım".

## Fəsil 4. "Elm və təhsil sistemi haqqında mülahizələr"

"İngilis dili və kompüterləşdirməyə ali təhsil sisteminin həyati vacib hissəsi kimi xüsusi qayğı göstərilməlidir. Hər fənn "xüsusi çəkiyə"- kreditə malik olmalıdır. İlk növbədə daha çox ehtiyac hiss olunan sahələrdə mütəxəssislər yetişdirmək zəruridir. Müxtəlif tipli ali təhsil ocaqlarının yanaşı fəaliyyət göstərməsi məqsədəuyğundur. İnsanlara seçim haqqı tanınması tərəqqinin zəruri olan əsasıdır".

## Fəsil 5. Sarayın astanasında

Söz yenə Hamlet İsaxanlıdadır:

"1990-ın sentyabrı idi. Xəbər alış-verişi, saray çəkişmələri, yaşamağın çətinlikləri mövzuları kollektiv müzakirələrə tabe tutulur və eninə-uzununa istismar olunurdu. 2-3 adam bir araya gələndə isə pul və sevgi məsələləri ön plana keçirdi.

Artıq məqalə müzakirə olunur və mənə suallar yönəldilirdi təbii olaraq. Zarafatla: "Müzakirəsini istədiyim bu məqalə artıq müzakirə olunur, deməli əsas iş görülüb, qalıb qeyri-əsas işlər (*universitet qurmaq*-İ.Y.). Bax budur əsas məsələ". (Sonuncu ifadə Hamletin məşhur monoloqundandır: *That is the question*-red).

Saleh Məmmədov XTİ-nin Riyaziyyat kafedrasına gəldi, məqaləni oxuduğunu, bəyəndiyini söylədi və "Fikrin nədir?" deyə özünəməxsus ötkəm səslə soruşdu. "Nə olmalıdır ki?" deyə əks sualla cavab verdim. "Çalışacam ki, çap olunub yayılsın bu düşüncələr, bəlkə bir xeyri oldu".

-Bəlkə Baş nazir Həsən Həsənova xəbər verim bu düşüncələr barədə. Axı mən onun maliyyə məsələləri üzrə müşaviriyəm...

Bundan əvvəl bir dəfə görmüşdüm Həsən müəllimi. Səbəbkar Kanadanın Həlifaks şəhərində yerləşən Dalhauzi universitetindən olan dostlarım Yaqub Şəfai və Heydər Rəcəvi olmuşdular. Y.Şəfai, F.Ələsgərov və mənim televiziyada çıxışımızdan sonra, Şəfai məşhur olmuş, Həsənov onunla görüşmək istəmişdi. Əvvəl Şəfaini sorğu-suala tutandan sonra, "Dalğa" verilişində Kanadaya səfərdən danışan riyaziyyatçı Hamlet sən deyilsənmi?" deyə soruşdu və bu sualla bizi təəccübləndirdiyindən ləzzət aldığını da gizlətmədi. Bu görüş bir "ekzotika" (təsadüf) kimi qalmışdı yadımda.

-Yəni deyirsən bundan bir şey çıxar? O zaman, Let`s go!

Bəlkə bu da bir yoldur. Beləliklə naməm saraya yollandı."

## Fəsil 6. Dönüş

Rus dilindəki "perelom" (qırılma) sözü, yeni bir şey, misal üçün hər hansı bir sahədə dönüş yaradılması hadisəsi barədə işlədilir. Bir şairimizin gözəl ifadəsi ilə, bu "dönüş" ancaq "qatarın relsdən çıxıb" qəza vəziyyətinin yaranması ilə mümkün olur ki, Hamlet də qorxub-çəkinmədən ustalıqla bu "qəza"nı törətmişdi. Sözü yenə də Hamlet müəllimə verək:

"Leninqrad Maliyyə-İqtisad İnstitutunun Bakı filialı yenidən müstəqilləşdikdən sonra, filial olan zaman planlanmış olan islahatların izi-tozu belə qalmadı. Kadr yenilənməsi dondurulmuşdu. Riyazi proqramlarda iqtisadi termin və məsələlərin (məs. Leontyev modeli) lüzumsuzluğunu iddia edənlər də az deyildi.

Elə bu zamanlar Nazirlər Kabinetindən dəvət gəldi və gözəl "bir payız axşamı" Saleh Məmmədovla birlikdə ora yollandıq...

H.Həsənov, "İdeyalarından bir az xəbərim var. Qısaca de görüm nə fikirdəsən, nə etmək istəyirsən?"- deyə sözə başladı.

Mən söhbətin girişsiz başlanacağını və belə açıq şəkil alacağını gözləmirdim. Ona görə də sürətli şahmatda olduğu kimi neytral gediş edib, düşünməyə vaxt qazanmaq qərarına gəldim.

-Təhsil sistemi ilə bağlı bəzi fikirlərimi dilə gətirmişəm və bunun müzakirəsinə nail olmaq istəyirdim. Çox şadam ki, belə yüksək səviyyədə bu barədə sorğu-sual olunuram.

-Mən səni dəvət etmişəm ki, nə cür universitet qurmaq istədiyini özündən eşidim - deyərək yeni gediş edən Baş nazir təzyiqi daha da gücləndirdi. Bu sual mənim üçün çox gözlənilməz idi. Xoşa gələn bir vəziyyət yarandığını hiss etdim. Artıq söhbətə rəvan şəkil vermək mümkün deyildi, şahmatçıların dili ilə desək, taktika ön plana çıxmışdı. Kəskin gediş etməyi qərara aldım:

-Məgər Azərbaycanda bu gün yeni universitet yaratmaq mümkündür?

Bununla təəccüb və şübhəm də ortaya çıxmış oldu.

Baş nazir gülümsədi: "Hər halda mən səni bu məsələ ilə əlaqədar dəvət etmişəm. Nə dərəcədə ciddi planların olduğunu bilmək istəyirəm."

Birdən-birə içimdə bir həyəcan dalğası yarandı (*soliton, sunami*-İ.Y.). Bu görüşün çox vacib olduğunu hiss etdim və nə isə gözəl bir şey alınacağına əminlik hissi məni bürüdü. Çox şeyin özümə inamımdan, inandırma və əsaslandırma gücümdən asılı olduğunu duydum. Uduzma təhlükəsi sovuşmuş və yaxşı bir oyun nümayiş etdirmək imkanı əldə etmiş şahmatçı kimi həvəsə gəldim.

-Azərbaycan ali məktəb sisteminə yeni nəfəs, yeni cərəyan hava, su kimi zəruridir. Çıxış yollarından biri, məncə (*Məncə bu gündən belə, vicdan azadlığı lazımdır elə*-İ.Y. ) yeni tipli özəl ali məktəb yaratmaqdan ibarətdir.

-Yeni deyəndə nəyi başa düşəcəyik? Sovet ali məktəblərinin nəyi pisdir ki?

-Sovet elminin nailiyyətlərini heç kim inkar edə bilməz və sovet ali məktəbləri də pis deyil. Mən bizim ali məktəblərin ən yaxşı zamanlarının artıq arxada qaldığını, təhsilin səviyyəsinin aşağı düşdüyünü, elmi araşdırmaların zəiflədiyini demək istəyirəm.

-Bunu biz də bilirik, bəs təklifin nədir? Necə bir ali məktəb yaratmaq istəyirsən ki, bu geriliklər orada olmasın?

-Yeni yaradılacaq ali məktəbdə təhsil pullu olacaq, yəni tələbələr illik təhsil haqqı ödəməlidirlər. Müəllimlər çox diqqətlə seçiləcək, elmi səviyyəsi, müəllimlik qabiliyyəti və ziyalılığı nəzərə alınacaq. Tələbənin məsuliyyəti, müəllimin maaşı artacaq, dövlətdən tələb olunan xərclər azalacaq. İngilis di-

linə xüsusi fikir veriləcək. Başqa sözlə, yaradılacaq məktəb ingilisdilli ali məktəb olacaq.

-Bəs ingilis dilində dərs vermək üçün müəllimi haradan alacaqsan?

-Təbiət elmləri üzrə demək olar ki, problem yoxdur. Sosial-siyasi və humanitar elmlərdə isə, şübhəsiz, ingilisdilli mütəxəssisləri xaricdən dəvət etməli olacağıq.

-Xaricdən necə dəvət edəcəksən? Hansı pulla?

Mən gülümsədim, əsas məsələdən uzaqlaşmamaq xatirinə bu sualın üstündən keçməyi qərara aldım.

-Az sayda müəllimin gəlməsi üçün müəyyən yollar var... Dostlarımız da var, onların xidmətindən istifadə etmək lazım gələcək. Bir dəstə xarici alim Azərbaycana gəlmək, bizə kömək etmək istəyirlər.

Həsənov kreslonu geriyə itələyib ayağa durdu. Biz də (Saleh və mən) ayağa qalxdıq."

Yeni universitet yaratmaq ideyası Həsənovun ağlına batmışdı və burada əsas rolu Hamlet müəllimin dünya təhsil sistemi, onların strukturları, inkişaflarının hərəkətverici qüvvələri haqqında geniş bilgisi olduğunu baş nazirə nümayiş etdirə bilməsi olmuşdur heç şübhəsiz. Bunu Baş nazirin son sözündən də görmək olur:

"-Sənin Avropa-Amerika təhsil sistemini bilməyin də bu iş üçün çox vacibdir.

-Bir dəfə də gəlin, hansı ixtisaslar olacaq, hansı məsələləri həll etmək lazım gəldiyini dəqiqləşdirək və bir kağız, bir sənəd hazırlayaq, dedi və gülümsədi."

Sırada kafedra müdirliyini təhvil vermək məsələsi vardı ki, Hamlet müəllim bunu da ağrısız-acısız, üzərində məxsusi olaraq dayanmadan həll etdi. Biz də dayanmayaq bizim üçün heç bir məna kəsb etməyən bu hadisənin üzərində.

## Fəsil 7. İşıq və kölgə

Hava açılıb tutulur. İşıq kölgəni yaradır, kölgə də borclu qalmır, işığın düzxətt boyunca yayılmasından xəbər verir. Həsənovla ikinci görüşə tezislərlə gedilir və bu görüş əsnasında onlar matros köynəyində olduğu kimi ağ və qara zolaqların bir-birini əvəzlədiyi zaman kəsimindən keçirlər ki, bu da məzkur bölümün adını şərtləndirmiş olur.

Əlbəttə, dəvətin özü, orada sənin tezislərinin dinləniləcək olması işıq idi. Və bu işıqda yaradılması düşünülən ilk fakültələr - İqtisadiyyat və menecment, Riyaziyyat və kompüter elmləri çox cazibədar görünürdü. Tibb təhsilinin təşkili nə qədər ağır olsa da, nə zamansa bu barədə düşünmək lazım olacaqdı. Adamın varlığına işıq hakim olarkən, o, ağır olan işlər haqqında düşünməyə də özündə cəsarət və güc tapır.

Bu işıqlı düşüncələrlə görüşə tələsən Hamlet müəllim 5 dəqiqə gecikir və anındaca ətrafı "kölgə" çulğayır. Dəhlizdə gözləyən Saleh Məmmədovla Baş nazirin kabinetinə girəndə onda gördükləri qaş-qabaq və ondan salamlarına cavab olaraq aldıqları "könülsüz şəkildə baş tərpətməsi və tərs -tərs baxması" kölgəni daha da qatılaşdırdı.

Növbəti işıqlı zolaq gecikmənin səbəbi barədə bir neçə, əslində ciddi məna kəsb etməyən sözlərin sərfindən və Həsənovun bu məsələni çox uzatdığının fərqinə vararaq gülümsəməsi və "Yaxşı-yaxşı, əyləşin. İşləriniz necə gedir?" şəklində müraciətindən başladı. Hətta "İqtisadiyyat və menecment" fakültəsinin qabağına "diyirlənmək" istənən "Nazirlər Soveti yanında Xalq Təsərrüfatını İdarəetmə İnstitutu" o qədər zəif göründü və iki kəlməlik məntiqlə bərtərəf olundu ki, bundan söhbətin gedişi kölgələnmək yerinə bir qədər də işıqlandı. Hətta işıq o qədər güclü oldu ki, Hamlet müəllimin hər zaman ehtiyatda saxladığı və yeri gələndə həvəslə istifadə etdiyi yumora da yer tapıldı. Və bunun davamı olaraq, gələcəkdə ehtiyacımız olacaq ingilisdilli savadlı siyasətçilər hazırlamaq məsələsi, Beynəlxalq hüquq elmləri fakültəsinin də yaranacağı haqda razılaşma ilə öz həllini tapdı.

Növbəti kölgə Riyaziyyat və kompüter elmləri fakültəsi adının zikr olunmasına Həsənovun "Riyaziyyat kimə lazımdır? Kimdir riyaziyyatdan ötrü can qoyan və ya pul xərcləyən?" şəklində reaksiyası və Hamletin sifətinin tutulması ilə zühur etdisə də, baş nazirin gülümsəyərək, "Hə, sənin riyaziyyatçı olduğunu unutmuşdum" replikası ilə səhnəni tərk etdi.

Yeni, daha qaranlıq və aydınlanacağı yaxın gələcəkdə çətin görünən kölgə Tibbi və bioloji elmlər ixtisasının gəlişi ilə eyni zamanda ətrafı bürüdü. Həsənovun reaksiyası anında və qəti oldu: "Yox, yox, bu məsələni sonraya saxlayaq. Deyəsən, tibb institutunun qəzəbindən də qorxmursunuz. Bunun üçün sizə "buyurun", "sağ olun" deyən olmayacaq".

"İşıq və kölgənin növbəti rəqsləri" gələcək universitetin adı və binası ilə bağlı müzakirə zamanı meydana çıxdı. Ümumi ad üçün, baş nazirin "kölgəli" "institut və ya kollec" təklifinin Hamlet müəllimin məntiqli izahından (magistratura, doktorantura ilə yanaşı müxtəlif ixtisasların mövcudluğu və ABŞ tipli olması) sonra "işıqlı" "Universitet" ilə əvəz olunması gerçəkləşdi və hələlik Həsənovun təklif etdiyi "İngilisdilli Azərbaycan Universiteti" adı üzərində dayanıldı.

Yer məsələsi isə məsələni əməlli-başlı qarışdırdı. Buna Baş nazir "Bina və pul asan məsələ deyil, əslində isə çox çətin, demək olar ki, həlli olmayan məsələdir" deyə münasibət bildirdi. Bu sətirləri oxuyan zaman Halikarnas Balıqçısı adını daşıyan Cevat Şakir Kabaağaclının "Mavi sürgün" əsərindən bir ifadə yadıma düşdü. Orda deyilirdi ki, "Türkiyə Cümhuriyyəti dövlətindən pul qoparmaq, dörd illik buğanın azı dişini çıxarmaq qədər çətin işdir".

Bir şeirdə deyildiyi kimi, Baş nazir, "əvvəl çətin işdir deyə söylədi, sonra çətin işə çarə eylədi". Onun həlli ondan ibarət oldu ki, "Nazirlər Soveti yanında Xalq Təsərrüfatını İdarəetmə İnstitutu"nun rektoru Rəhim Rəhimovun razılığını alaraq, yeni yaradılan universitet üçün müvəqqəti olaraq onların binasında bir-iki otaq ayrılmasını təmin etdi. Yer məsələsinin bu cür həlli nəticəsində "işıq" və "kölgə" bir birinə qarışıb yerlərini bir "qeyri-müəyyənlik dumanlığına" tərk etdilər. Bu, "dəvənin (yeni universitetin) noxtasını eşşəyin (Xalq Təsərrüfatı İdarəetmə İnstitutu) quyruğuna bağlamaq" kimi bir şey olurdu ki, dəvənin açısından heç cür arzu olunan deyildi əlbəttə.

## Fəsil 8. Üçqat sədd... və hazırlıq sərəncamı

Bu fəsildə universitetin yaranması yolunda səddin arxasınca yeni sədlər çəkilməsinə baxmayaraq, nəhayət Baş nazir tərəfindən hazırlıq sərəncamı imzalanır. Burada da Hamletin kritik məqamlarda gecikməyən və sürətli şahmatın taktik gedişlərini xatırladan müdaxilələri əsas rolu oynadı. Artıq Baş nazir yanındakı toplantıda iştirakçıların sayı R.Rəhimov və Nazirlər Soveti Elm və təhsil şöbəsinin müdiri Ş.Əliyevin də dəvət olunması ilə artmışdı.

Rəhimov xeyli ehtiyatla, "biz bir binada fəaliyyət göstərərkən münasibətlərimiz necə tənzim olunacaq?" deyə narahatlığını büruzə verərkən, onu anında başa düşən Həsənov, "Narahat olma, bu ingilisdilli universitet sadəcə müvəqqəti olaraq sizin institutun nəzdində fəaliyyət göstərəcək" deməklə Rəhim müəllimi rahatlatdısa da, bu "nəzdində" sözü universitet yaradanların kefinə əməllicə soğan doğramış oldu. Bu sözlə, artıq işə başlamadan fəaliyyət məhdudlaşdırılmış olmurdumu? Hamletin "Bəlkə nəzdində sözünü işlətmədən işə başlayaq və bir az bərkidikdən sonra özümüzə bir yer taparıq" replikası Baş nazirin qətiyyəti qarşısında nəticəsiz qaldı.

Ən çətin iş olan maliyyələşmə məsələsinin dəqiqləşməsi (dövlət tərəfindən maliyələşmə və ya bir dəfəlik yardım) təxirə salındı. Və ilkin olaraq hər birində 15 nəfər olmaqla 3 qrup qəbul etmək barədə razılığa gəlindi. Amma Həsənovun bu universitet yaratmağa hazırlıq sərəncamına imza atması üçün sərəncam layihəsini daha 3 adamla – artıq bizə məlum olan R.Rəhimov, Maliyə naziri B.Qarayev və Xalq təhsili naziri R.Feyzullayev ilə razılaşdırmaq lazım idi. Burada əsas, yenə də sürətli şahmat oyununu xatırladan maraqlı söhbət Feyzullayevlə oldu ki, bunun nəticəsində universitetin onsuz da kifayət qədər uzun olan adına bir də "Xalq Təhsili Nazirliyi nəzdində" şəklində bir yamaq vuruldu. Bir yerdə dayanmaq və ya geriləmək yerinə, yamaqlı şalvarda irəliləmək qərarı alındı və zaman bu qərarın (Brest sülhü kimi) doğruluğunu sübut etdi.

İxtisaslara gəlincə, Feyzullayev "Beynəlxalq hüquq və siyasi elmlər" adını eşidincə, "Beynəlxalq hüquq" lazım deyil, müəllimin (ADU-nun rektoru Mirabbas Qasımov) bu məsələyə münasibəti müsbət olmaz" deyə sədd çəkərkən, "O zaman Beynəlxalq münasibətləri götürək" gedişi ilə Hamlet müəllim bu səddi də aşdı. Bu arada "Tibb və ekologiya" ixtisasının "tibb"indən (diri-diri udulmamaq üçün) vaz keçilsə də, tibb və digər ixtisasların bir il sonra başlanılması ideyası, məntiqli taktik gedişlərlə ən azı kağız üzərində gerçəkləşdirilə bildi. Və nəhayət, daha bir neçə görüşlər və razılaşmaların sonunda, sərəncam 1991-ci il dekabrın 20-də Baş nazir tərəfindən imzalandı.

## Fəsil 9. Nizamnamə və yeni görüşlər

Sərəncam imzalandıqdan sonra sanki sadəcə iki iş qalırdı: nizamnamə yazmaq və təsdiq üçün bəzi görüşlər keçirmək. Amma Hamlet belə düşünmürdü, çünki ortada qərara çevrilməmiş çox sayda "hazırlıq sərəncamları" mövcud idi. Xüsusən belə gərgin, "yolun çətin, dünyanın qaranlıq" olduğu

bir zamanda, o, heç də "atını bir yana çəkmək" fikrində deyildi. Ona görə də, xəyalın gerçəkliyə çevriləcəyi bir məqamda, ara vermədən və şəraitlə ayaqlaşa bilən gərgin iş rejiminə keçmək tələb olunurdu. Bu proses haradasa "maneələri dəf edərək qaçmağa" bənzəyirdi, bir fərqlə ki, bunların arasında insan faktoru ilə əlaqəli bəlli olmayan, yeni və gözlənilməz maneələr də vardı.

Nizamnamə hazırlanan zaman xarici faktorlardan asılılıq minimuma endirilmişdi. Kadr məsələləri saziş əsasında həll olunur və maaşlar universitet tərəfindən müstəqil olaraq təyin olunurdu. Bəs bu müstəqillik deyil də, nə idi? Xariclə müstəqil olaraq əlaqə yaratmaq maddəsinə "XTN Xarici Əlaqələr İdarəsi ilə əməkdaşlıq vasitəsilə" sözü əlavə olundu. Universitetin müstəqilliyini təsdiqləyən, onun XTİİ-nin bir hissəsi olmadığını bir daha nümayiş etdirən "Bakı Şəhər İcraiyyə Komitəsi tərəfindən 1991-in sonuna qədər universitet üçün bina ayırması" maddəsi də Hamletin ciddi cəhdi sayəsində Nazirlər kabinetinin qərarına daxil olundu.

Tədris olunan fənlərin ən azı bir qisminin tələbələr tərəfindən seçilə bilməsi maddəsi isə "tərpədilməz" tədris planlarının "yuxarıdan" məcburi şəkildə endirilməsinin qarşısını almağa yönəlmişdi. Bu arada yenə aktivliyi çox arzu olunan Tələbə Birliyi, elmi-tədqiqatlara görə qrant ayrılması, nəşriyyat təşkil etmə hüququ kimi maddələr də yaddan çıxarılmamışdı. Yalnız bir maddəni – "Universitetdə siyasi partiyaların fəaliyyəti qadağandır" maddəsini keçirmək mümkün olmadı, axı bu maddə hakim Kommunist partiyasının işinə yaramırdı.

Bu sətirləri vaxtilə kitabdan oxuduğum, indi də yazdığım zaman ağlıma, bir zamanlar (1972) oxuduğum "Tehran, Yalta, Potsdam" kitabı gəlir. Bu kitabda 2-ci Dünya müharibəsi zamanı SSRİ, ABŞ və Böyük Britaniya liderlərinin üç görüşünün protokolları toplanmışdı. Burada, xüsusən müharibə sonrası sərhədlərin müəyyən olunduğu Potsdam görüşündəki çoxgünlük "fikir döyüşlərinə", onların zərgər dəqiqliyinə və incəlikərlinə valeh olmuşdum. Hamlet müəllimin "Xəzəri" yaratmaq yolundakı danışıqları ilə tanış olarkən də oxşar heyranlığı yaşamış oldum.

* * *

Riyaziyyatda "ümumiləşmiş funksiya" anlayışı var. Mövzunu çox genişlətmədən qeyd etmək istəyirəm ki, hər hansı funksional fəzada təsir göstərən ümumiləşmiş funksiya sadəcə bir xətti məhdud funksionaldır, yəni hər funksiyaya qarşı bir ədəd qoyur. Və bu funksional haqqında tam bilgi əldə etmək üçün, onun müəyyən "seçilmiş" və "kifayət" qədər çox sayda "məhək funksiyalar"a göstərdiyi təsiri bilmək kifayət edir. Axı əslində təbii olan da budur. Əbəs yerə deməyiblər ki, "Dostunu mənə göstər, sənin kim olduğunu söyləyim".

Qurucu Hamlet müəllim haqqında müəyyən təsəvvür eldə etmək üçün, onun tanıdığımız şəxslərlə münasibətlərinə, onun o adamlarla necə davranmağına nəzər salmaq kifayət edəcəkdir. Sadəcə insani münasibətlərdə tərs əlaqənin mövcudluğu nəticəsində münasibət əsnasında davranış forması tərəf – müqabildən asılı olaraq dəyişə bilər. Misal üçün XTİİ-nin rektoru R.Rəhimovun Hamletə institutun elmi şurasında iştirakı və ona ayrılan otağın qapısı üzərinə ad-familiyasının yazılması barədə təklifinə cavab olaraq, onun bu təkliflərin hər ikisindən əsaslandırılmış, məntiqli və nəzakətli imtinası nəticəsində, onunla ehtiyatla davranan Rəhimov xeyli rahatlamış və "hər hansı çətinlik əmələ gələrsə mənə müraciət etməyi unutma" deyərək, əlini onun kürəyinə vurmuşdur. Bu barədə "Bəzi iç işlər" adlı 10-cu bölümdə yazılmışdır.

Hamlet müəllimin bu, "ümumiləşmiş funksiya" qiyafətindəki sərgüzəştləri "Tarixə daxil olan imza" adlı 11-ci fəsildə də davam edir. Nazirlər kabinetinə son dəvəti gözləyən zaman, o, təsadüfən köhnə "rəqibi" Fuad Ələsgərovla qarşılaşır və onun "Təbrik edirəm, eşitmişəm ki, yeni universitet yaradırsan" replikasına, "Hə, nəsə elə bir şey ortada var, amma hələ söhbətdir" deyərək, mövzunu özü bildiyi, bacardığı kimi "malalamışdı". Burada Hamleti yönləndirən faktor, Fuadın Ayaz Mütəllibovla yaxınlığı və Ayazla Baş nazirin arasının sərinliyi barədə informasiyaya sahib olması idi. Və bu dialoqun nəticəsində də Fuadın ağzından "Bir kömək lazımdırsa, de, çəkinmə" dəvətiyyəsi çıxdı.

Bu bölümün və bəlkə də risalənin ən maraqlı epizodu, ingilis dilli yeni universitet yaratmaq haqqında qərarın Baş nazir tərəfindən imzalanması epizodu idi heç şübhəsiz. Burada kulminasiya nöqtəsinə o zaman çatılır ki, Həsən müəllim qərarı imzalamadan qabaq, qabarıq şüşəli eynəyini düzəldib, tam da "Arşın mal alan"da Soltan bəydən "Bəs mənim muzdum nə olacaq?" deyə soruşan Əsgər kimi, "Yaxşı, mən imzalayıram, sən universitet yaratmaqla həyatını maraqlı edirsən, bəs mən

nə qazanıram?" sualı ilə Hamletə müraciət edir.

Bu epizodda da Hamlet müəllim sərrast atəşlə hədəfi tam ortasından, onluqdan vurur. Odur ki, vaxt itirmədən ümumiləşmiş funksiya qiyafətini növbəti dəfə dəyişir. (Dirakın riyaziyyat və fizikada yer tutan məşhur Delta funksiyasına çevirir). Bunun üçün Hamletin Baş nazirə, bu imzanın sıradan bir imza deyil, gələcəyə gedən tarixi bir imza olduğunu xatırlatması kifayət edir. O, anlayır ki, doğrudan da türklər demiş, Mustafa Kamal kimi bir "ilkə" imza atır. Və Baş nazir "amma yaman dedin , haa!" deyərək, qərarı imzalayır.

## Fəsil 12. Kommunist partiyası və ... rektorluq oyunu

Bu fəsildə Hamlet müəllim "Ümumiləşmiş funksiya" olaraq iki "məhək funksiya" ilə əyani və qiyabi olaraq qarşılaşıb. Yeni yaradılan universitet həm XTN, həm də XTİİ -nin nəzdində olduğundan, universitetə rektor təyin olunması əmri də hər iki müəssisə rəhbəri tərəfindən imzalanmalı idi. Bu rəhbərlər isə, bildiyimiz kimi, Rəhimov və Feyzullayev idilər. İki imzalı və iki möhürlü bir qərarla rektor təyin olunma prosesinin başlanğıcında məlum olur ki, Hamlet bir zamanlar yalnız xaricdəki həmkarları ilə əlaqə saxlamaq naminə daxil olduğu Sov.İKP-nin sıralarını 1990-cı il yanvar qırğını sonrası partiya biletini təhvil verərək tərk etmişdir.

Məsələ burasında idi ki, Kommunist partiyası üzvü olmayanı müəssisənin başçısı vəzifəsinə uyğun görmürdülər. Rəhimovun bu mövzuda Feyzullayevlə telefon məşvərətindən sonra Hamletə təklif olunur ki, rektor təyin olunması üçün partiya biletini geri götürməsi lazım olacaq və onlar bu işdə ona kömək edə bilərlər. Hamlet isə bu təklifi, çox qısa, ancaq sanballı "Heç vaxt!" nidası ilə qətiyyətlə rədd edir. O, birmənalı şəkildə məqsədinin yeni universitetin yaradılması olduğunu bildirərək, lazım gələrsə bu yolda hər cür qurbana, o cümlədən bütün cazibəli vəzifələrdən imtina etməyə hazır olduğunu bəyan edir. Nəticədə, Hamlet müəllim yeni universitetin prorektoru (və rektor əvəzi) təyin olunur (18.04.1991). Nəhayət "adı nəhəng, özü hələlik cırtdan olan" bir qurum – "Azərbaycan Respublikası Nazirlər Kabinetinin Xalq Təsərrüfatını İdarəetmə İnstitutu və Xalq Təhsili Nazirliyi nəzdində İngilisdilli Azərbaycan Universiteti" tədris və elmi işlər üzrə prorektor Hamlet müəllimin rəhbərliyi altında fəaliyyətə başlamış oldu.

## Fəsil 14. Hava tutulub açılır...

Bu fəslin adı 7-ci fəslin "İşıq və kölgə" adını canlandırır hafizələrdə. Amma bu tutulub-açılma, o işıq və kölgə kimi ağrılı xarakterdə deyildi və bir növü "daldan atılan daş" təsiri bağışlayırdı. Burada Hamlet müəllim bir "ümumiləşmiş funksiya" kimi qabağına çıxan "funksiyaların" hər birinə fərqli şəkildə təsir göstərərək (sözlə, ağılla, məntiqlə əlbəttə), özünə lazım olan dəyəri əldə edə bilir. Bu funksiyalar isə kifayət qədər "mürəkkəb" idilər. Bunlar XTİİ-nin rektoru Rəhim Rəhimov, ADU-nun rektoru Mirabbas Qasımov, Azərbaycan Dövlət İqtisad Universitetində və XTİİ-də İstanbul Universitetinin menecment kurslarının təşkili üçün Bakıya gəlmiş və türk dünyasında kifayət qədər tanınmış Turan Yazqan, nəhayət Azərbaycan Dövlət Tibb Universitetinin rektoru, sonralar hətta Azərbaycan prezidenti vəzifəsini icra etmiş Yaqub Məmmədov idilər. Bunlar hamısı yeni yaranan universitetdə özlərinə bir rəqib görür və təbii olaraq ona indidən soyuq münasibət bəsləyirdilər. Bunların səfində həmçinin Azərbaycan Xarici Dillər İnstitutu (AXDİ) da vardı əlbəttə.

Rəhim müəllimin iradı "Bakinski raboçiy" qəzetində yeni universitetlə bağlı yazıda Hamletin adının rektor olaraq keçməsi ilə bağlı idi ki, Hamletin bu irada münasibəti öz sözü (əslində sazı) ilə desək, zarafatyana: "Yeni rektor seçilən kimi onun hüzuruna gedib, məni rektor kimi qələmə verdiklərinin böyük səhv olduğunu söylərəm. Bundan başqa daha nə edə bilərəm, deyin, ona da mən hazır". Və bu "qızıl kimi" sözlərin qarşısında Rəhim müəllimə ancaq başını bulamaq qalmışdı.

Mirabbas müəllim isə, Hamletin yeni universitetin xeyli uzaq gedən perspektivlərindən açdığı geniş söhbətdən məmnun qalaraq ona... yeni yaranan universiteti ADU-nun bir fakültəsinə çevirməyi təklif edir. Hamlet isə (yenə "saz" ilə) "Bu iş bir az sərbəstlik və çeviklik tələb edir, həm də hüquqi cəhətdən bu təklifi əsaslandırmaq çox ağır olar" deyərək, yaxasını kənara çəkir.

"Türk dünyası araşdırmaları vakfı"nın müdiri kimi geniş fəaliyyət göstərən Turan Yazqan`ın "Yazıq Azərbaycan türkləri, əvvəlcə rusca oxumağa məcbur idilər, indi də siz onları ingiliscə oxumağa

təhrik edirsiniz" iradına, Hamlet müəllim, "Burada ingilis dili yalnız yüksək intellekt sahibi, peşəsini yaxşı mənimsəmiş, ölkəsini, millətini, mədəniyyət və ədəbiyyatını sevən, eyni zamanda dünyaya açıla bilən gənclər yetişdirmək kimi ülvi bir məqsədə çatmaq üçün yalnız bir vasitədir" kimi sərrast və sanballı sözlərlə qarşılıq vermişdir.

* * *

Bu fəsildə ən maraqlı görüş isə, əlbəttə, Tibb Universitetinin rektoru Yaqub müəllimlə olan görüş idi və bu görüşdə Hamlet, "ümumiləşmiş funksiya"nın bütün imkanlarını səfərbər edərək, müəllimin bu quruculuq işinə baxışını 180 dərəcə dəyişə bilmişdir. Belə ki, söhbətin başlanğıcında bu işin olmasına əsla izin vermək fikrində olmayan, onun yolu qarşısında qırmızı işıq yandıran və hücum mövqeyindən çıxış edən Yaqub müəllim, söhbət zamanı yavaşlamış və söhbətin sonuna doğru qırmızı işığı yaşılla əvəz edərək, Hamletlə birlikdə hərəkət edəcəyini elan etməyə qədər irəli getmişdir. Məncə, bu nəticə də Hamlet müəllimin əvvəlcədən düşünülmüş (şahmat diliylə desək – domaşnyaya zaqotovka - ev hazırlığı) və vəziyyətdən asılı olaraq çevik şəkildə forma dəyişə bilən siyasətinin nəticəsi olaraq vaqe olmuşdu.

Bu möhtəşəm dialoqun başlanğıcı haqqında təsəvvürünüz olsun deyə, sözü qısa müddətə "saz sahibi" Hamlet müəllimə verək: "O, məni gözləyirdi və salamlaşdıqdan sonra birbaşa mətləbə keçdi: Eşitmişəm bir universitet açıbsınız, nə universitetdir o? Mən bu şəkildə suala cavab vermək əvəzinə, hörmətli rektorun fikrini bir qədər də açmasını gözlədim. Yaqub müəllim də yavaşıdı". Vəssalam. Başlanğıcdakı bu kiçik, amma kifayət qədər təsirli priyom, söhbətin formasını dəyişmək üçün yetərli olmuşdu. Bunun davamı isə artıq texnika məsələsi idi və "sürətli şahmat" oyununda kifayət qədər təcrübə qazanmış biri olaraq, Hamlet bu işi məharətlə qələbədən xəbər verən finişə qədər çatdırdı.

Bu yerdə mənim yadıma bir zamanların sevimli kinosu olan "Zayçik" filmi düşdü. Əvvəllər utancaq və cəsarətsiz olan Zayçik, bir anlaşmazlıq nəticəsində 1-2 ay ömrü qaldığını bilincə, ona həyatda iz qoymaq üçün qısa müddətdə yaxşı, xeyirxah işlər görmək üçün inanılmaz cəsarət və mənəvi güc-qüvvət gəlir. Və o, bu cəsarətlə bir yol tapıb, yaşayış binalarının həyətində yerləşən uşaq əyləncə meydançasını ləğv etmək istəyən mənzil-təsərrüfat idarəsinin ipə-sapa yatmayan, olduqca kobud müdirinin kabinetinə girə bilir. Müdir isə bunun kim olduğunu və nəyə gəldiyini bilincə (tam da Yaqub müəllim kimi) ayağa qalxıb bağırmağa başlayır. Bunun müqabilində, artıq hər cür qorxu hissindən azad olan (1-2 aylıq ömrü qalıb adamın) Zayçik, müdirə pıçıltını andıran çox aşağı diapazonlu bir səslə "Niyə bağırırsınız?" deyə sual edəndə, müdir əvvəl ürkək-ürkək ətrafa boylanır, sonra kresloya çöküb alçaq ton və təəccüblə "Nə olub ki?" deyə soruşur. Bax bu nöqtə kobudluğun, xamlığın qırıldığı nöqtə idi və bundan sonra müdir ən azından bu vəziyyətdə artıq əvvəlki kimi kobud ola bilməzdi.

Fəslin sonunda anamız təbiətlə bağlı olaraq və başlığı yada salan "havalar tutulub-açılır" ifadəsi yer alır ki, bu da fəslin başındakı məcazi "hava tutulub-açılır" ifadəsindən fərqli olaraq, doğrudan da, bir başa hava ilə əlaqədar səslənmişdir ki, bunun davamı olaraq da "Dolan bulud boşalacaq, bu hökmüdür təbiətin" (S. Vurğun - red.) kimi çox təsirli bir ifadə yer alır. Bənzəri bir ifadəni mən Türkiyənin Kocaeli universitetində işlədiyim zaman, tərəfindən hörmət gördüyüm və şəxsiyyətinə rəğbət bəslədiyim milyonçu Rəhmi Seymenə həsr etdiyim şerin bir bəndində dilə gətirmişəm: "O, sözünün ağasıdır, Bulud oldu yağasıdır, İsmixanın qağasıdır, Minnətdaram Seymenə mən!"

## Fəsil 15. Zəlzələ

Zəlzələ bir təbiət hadisəsi olaraq, yerin dərin qatlarında kifayət qədər iri layların yerdəyişməsi və bir-birinə sürtünməsi zamanı (fayın qırılması deyir türklər buna) yaranan çox böyük enerjinin yerin səthində meydana gətirdiyi dağıntıları yaradan hadisəyə verilən addır. Cəmiyyətdə də oxşar hadisələr baş verir ki, bunun da səbəbi "əl çatmayan, ün yetməyən dərinliklərdə" olduğu halda, törətdiyi fəsadlar hər kəs tərəfindən müşahidə oluna bilir və bunu zəlzələ adlandırmaq çox təbii olur əlbəttə. Bu fəsildə yeni yaranan universiteti "beşiyindəcə" boğmalı olan və kulislərdə (dərində) hazırlanmış bir plandan söhbət getdiyindən, fəslin "Zəlzələ" adlanması da təbiidr.

Əlavə etmək istərdim ki, Quran-i Kərim`in 114 surəsindən 99-cu surənin adı "Zilzal"dır (ərəbcə Zəlzələ) və məncə tək bu fəsildə Quran`dan bir ayə nümunəsi verilir (17-ci İsra surəsinin 36-cı ayəsi). Bu ayədə "Bilmədiyin bir şeyin dalına düşmə, buna görə qulaq, göz və ürək hamısı sorğuya

çəkiləcəklər" deyə buyurulur. Bunun fərqli yozumları ola bilər. Biri odur ki, bilmədiyin qeyri-müəyyən ortamda qərar qəbul edərkən, səhv etmə, günaha girmə ehtimalı böyükdür və buna görə bütün orqanlarınız məsuliyyət daşıyacaq. İkinci variantda bu cür davranışla özünü, öz reputasiyanı təhlükəyə atmış olarsan ki, bu da arzu olunan bir şey deyil. Əbəs yerə deməyiblər ki, "tanımadığın atın arxasına keçmə".

Məsələ belə cərəyan edib ki, tələbə qəbulu üçün qızğın işin getdiyi bir məqamda Hamlet müəllimə çatdırılır ki, Feyzullayev, "Artıq biz Hamletdən geri çəkildik" deyə siqnal verib. Və bəzi ağzıgöyçəklər bu siqnalı, 1917-ci ilin 25 oktyabrında, "Avrora" kreyserindən açılan və Rusiyada Müvəqqəti hökuməti devirəcək olan "Qış sarayına hücum" əmrini bildirən top atəşinin analoqu hesab edirdilər. Amma Hamlet müəllim müəyyən zaman kəsiyində səbri, ağlı və məntiqi ilə sübut etdi ki, müvəqqəti olan "O və qurmaq istədiyi universitet deyil", bu universiteti "beşikdə boğmağa" siqnal vermiş və yeltənmişlərin özləridirlər.

Ard-arda gələn naxoş xəbərlərin ardınca Rəhim müəllim, bu gün, hələlik XTİ-nin nəzdində olan "İngilisdilli Universitetə" yoxlama gələcəyini bildirəndə, Hamlet müəllimin reaksiyası "Nəyi yoxlamağa?!" kimi ritorik sual olur. Bunlar gecə-gündüz demədən işləyir, qəbul imtahanlarını yüksək səviyyədə keçirməyə hazırlaşırlar və artıq demək olar ki, hazırdırlar. Sonra məlum olur ki, Təhsil Nazirliyində artıq "İngilis Dilli Universitet"in tələbə qəbuluna hazır olmadığı barədə akt tərtib olunub və bu akt 5 nəfər tərəfindən imzalanmalıdır. Nazirin birinci müavini, komissiyanın rəhbəri Fikrət Babayev və daha iki nəfər Nazirlik nümayəndəsi ilə birlikdə XTİ-nin rektoru Rəhim Rəhimov da akta imza atandan sonra, sənədi Hamlet müəllimə imza üçün uzadınca, o, "Hərə öz qələmi ilə imza atsa məsləhətdir. İndi üstümdə qələm yoxdur, qoy sənəd sabaha qədər məndə qalsın" deyərək (!) düşünüb - daşınmaq üçün vaxt qazanır.

Əslində isə bu manevrin məqsədi fələyin bu ədalətsiz gərdişinə qarşı üsyan bayrağını açmaq üçün vaxt qazanmaq idi və bu vaxt artıq qazanılmışdı, bir gün də olsa. Axı Gecə Sabaha hamilə idi və nə doğulacağı da məlum deyildi. Hadisə özlüyündə Key Xosrovun, Ağa Məhəmməd şah Qacarın aqibətini yada salır. M.P.Vaqifin M.V.Vidadiyə yazdığı şeirdən bir beyt elə bu barədədir:

*Sübh söndü, şəb ki, xəlqə qiblə idi bir çıraq,*
*Gecəki iqbalı gör, gündüzdəki idbarə bax!*

Hamlet institutdan evə qayıtmadı, dəniz sahilinə gedib qarışıq fikir-xəyalını özü dediyi kimi "ipə-sapa düzdü" və Xəzərdən üsyana başlamaq üçün xeyir-dua istədi.

Biz də 1968-ci ilin yayında Hüseynov Fərhadla birlikdə tezdən Xəzər sahilinə gedib, o vaxt indiki İqtisad Universitetində yerləşən Hərbi kafedrada imtahan vermək üçün xeyir-dua aldıq və nəticəmiz 2 dənə "əla" oldu. Mən özüm də 1983-cü ilin 28 sentyabrında yenə tezdən sahilə gedib dissertasiya müdafiəm üçün Xəzərdən xeyir-dua almışam. Bu fəslin gedişatından da göründüyü kimi, növbəti – 16-cı fəslin adı "Üsyan" olacaq. Haydı irəli!

## Fəsil 16. Üsyan

Mən Hamlet müəllimin başlatdığı bu üsyanı "Ağıllı Üsyan" adlandırar və onun devizinin "Nə şiş yansın, nə kabab" olduğunu vurğulamaq istərdim. Əgər Təhsil Nazirliyinin faktiki olaraq yeni yaranan Universiteti bağlamaq qərarına bir "şiş", Nazirlər Kabinetinin Universitet açmaq qərarına bir "kabab" kimi baxsaq, görərik ki, Hamlet Nazirliyin qərarını imzalamamaqla yanaşı, elə bir kompromis variant düşünmüş ki, bu universiteti "beşikdə boğulmaqdan" qurtarmaqla yanaşı, Nazirlik "işçilərinin" qəzəbinin nisbətən azalmasına və onların da bu kompromis varianta meyllənməsinə gətirib çıxardı. Məncə bunun səbəbini, kompromis variantın hazırlanmasında Hamletin hesab-kitabı bir riyaziyyatçı dəqiqliyi ilə nəzərə alması və eyni zamanda bir siyasətçi, həm də bir şahmatçı kimi, "Müdafiə üsyan üçün məğlubiyyətə bərabərdir" kəlamından xəbərdar olmasında axtarmaq lazımdır.

Hamletə lazım idi ki, onun qaldırdığı qiyam (ayaqlanma) məğlub olmasın, ciddi dəyişikliklərə səbəb olan inqilaba çevrilsin, yersiz "yamaq" təsiri yaratmasın görənlərdə. Bir şeirdə də deyildiyi kimi, "Qiyam zəfər çalınca, adı olur inqilab; Yamaq "yamaq" olmazdı, düşsəydi yerinə bab". Bu iş-

də Hamletin arsenalında göydə "Haqq-ədalət", yerdə isə Həsənovun imzaladığı "daşdan keçən" bir qərar vardı. Nazirliyin arsenalı isə "yüksək təzyiqli qaz və hikkə"dən ibarət idi. Bu hikkəni azaltmağa yönəlmiş fikirlər, Hamlet müəllimin komissiyanın səlahiyyətli bir üzvü kimi "Akta əlavə" adı altında qələmə aldığı və Təhsil Nazirliyinə göndərmək üçün Rəhim müəllimə verdiyi sənəddə öz əksini tapmışdı.

Deyirəm bu yerdə yenə Hamlet müəllimin "sazlı" ifadəsinə yer verək: "Artıq hərəkət planı mənə aydın idi. Kiminsə tərtib etdiyi və dörd komissiya üzvü tərəfindən imzalanmış mətnə qol çəkməyəcəyimi elan edirəm və hər iki tərəf üçün məqbul sayıla biləcək ağlabatan güzəştli variant olaraq indiki tələbə qəbulunu "hazırlıq şöbəsinə qəbulla" əvəz etmək fikrini atıram ortaya". Bununla Hamlet müəllim zamanlama və sərrastlıq cəhətdən qoca ovçu Zeb Stumpun, yaralı Moris Ceraldı pələngin pəncəsindən qurtaran atəşinə bənzər (*"Başsız atlı" romanından* - red.) kifayət qədər riskli bir atəş açmış oldu ki, bunun cavabının nə olacağını da əvvəlcədən müəyyən etmək mümkün deyildi. Yalnız müəyyən təxminlər irəli sürülə bilinərdi ki, bunlardan biri də Nazirliyin "yumşalması" və universitetin "yaşamağa davam etməsi" ola bilərdi. Elə də oldu və bu da növbəti – 17-ci fəslin adını müəyyən etdi.

## Fəsil 17. "Şıltaq adamın yumşaldılması" və ya "Biz yenə yaşadıq torpaq üstündə"

Əlbəttə, türklər demiş, "Bu şarkı burada bitmez" və bu "Nəğmə" indi də davam edir. Nəğmənin davamından söhbət açmaq üçün bəlkə cildlərlə kitab yazmaq lazım olardı. Mənə ancaq onu əlavə etmək qalır ki, Hamlet müəllim Universitet yaratmaq yolunda, əvvəlcə XTİİ-nin Elmi Şurasında, sonra isə Baş nazirin kabinetində süni şəkildə yaradılmış (Qarabağ münaqişəsi kimi) "tufanlardan" da mətin addımlarla çıxmağı bacardı və xəyalında qurmuş olduğu Universitet üçün geniş yol olmasa da, bir "cığır" aça bildi. İndi bu çığır, hər iki kənarında gözəl, müasir binalar ucaldılmış və əngin, aydın üfüqlərə doğru istiqamət götürmüş, romantik "Xəzər" adlı "geniş bir prospektə" çevrilmişdir artıq. Gəlin bu yolda Hamlet müəllimə və onun "İngilis dilli Xəzər Universitetinə" uğur diləyək!

## Epiloq

Türkiyənin Sakarya Universitetində işlədiyim zaman rektorluq adından mənə, ad günüm münasibətilə Mustafa Kamal Atatürk`ün "Nutuk" kitabını bağışlamışdılar. Bu kitab 638 səhifədən ibarət olub, Kamal Atatürkün 1927-ci ilin 15-20 oktyabrında Türkiyə Böyük Millət Məclisində 6 gün boyunca ara vermədən (sadəcə günorta yeməyi üçün fasilə verməklə) etmiş olduğu tarixi çıxışın mətnidir və onun Türkiyə Cumhuriyyətini yaratmaq yolunda 1919-1927 illər arası verdiyi mücadilənin hesabatı hesab oluna bilər. Və mən bu möhtəşəm kitabı oxuyan zaman, görülmüş işlərin ağlasığmaz dərəcədə nəhəng ölçülərini görüncə anladım və inandım ki, Atatürk bu çıxışını 6 gün deyil, 60 gün boyunca da sürdürə bilərdi çətinlik çəkmədən. Çünki görülən işlər bildiyimiz çərçivələrə sığacaq işlər deyildi.

Buna oxşar bir fikir mənim ağlıma Hamlet müəllimin "Xəzər"in sorağında" kitabını oxuyub qurtaran zaman gəldi. Axı o da çox ağır və kifayət qədər uzun sürən mücadilə sayəsində "Xəzər" adlı bir "respublika" (Respublika ŞKİD – "Şkola imeni Dzerjinskoqo" yadıma düşür) qurmuşdur. Bu arada, Türkiyə Cumhuriyyəti yalnız intensiv (daxilə) genişlənmə sayəsində vətəndaşlarını və dostlarını sevindirirsə, Xəzər Universiteti zamanla həm intensiv, həm də ekstensiv (xaricə) olmaqla genişlənərək, çalışanlarını və ona rəğbət bəsləyənləri sevindirmişdir və sevindirir. Bu nöqteyi-nəzərdən Hamlet müəllim də bu mövzuda 120 səhifə deyil, ən azından 600 səhifəlik yazı yaza bilərdi. Bəlkə o vaxtlar (1996-1997) bunu etməkdə çətinliklə (material qıtlığı) üzləşə bilərdi, amma indilərdə, "Xəzər"in nəzdində yeni strukturların, o cümlədən Bakıda, Sumqayıt və Gəncədə açılmış "Dünya" məktəblərini nəzərə alsaq mövzu qıtlığından söhbət belə gedə bilməz. Yetər ki, danışmaq, yazmaq həvəsi olsun. Bu və digər paralel yollarda dostuma uğur diləyirəm!

**İsmixan Yusubov,**
*riyaziyyatçı, yazıçı-publisist*

## FİZİKA VƏ ELEKTRONİKA DEPARTAMENTİNİN DOKTORANTININ SEMİNARI

Hazırda ənənəvi enerji mənbəyi kimi karbohidrogen ehtiyatlarının məhdudluğu və ətraf mühitin çirklənməsinin qarşısının alınması dünyada alternativ və bərpa olunan enerji mənbələri hesabına istehsal olunan enerjinin həcminin artırılmasını zəruri edir. Artıq bu istiqamətdə bir sıra ölkələrdə günəş, külək və digər bərpa olunan enerji mənbələrindən istifadə getdikcə genişlənir. Bununla əlaqədar olaraq noyabrın 2-də Xəzər Universitetinin Fizika və elektronika departamentinin doktorantura tələbəsi Babak Emdadinin "Kvant nöqtələri nanohissəciklərinin sintezi, xarakteristikası və onların tətbiqi" mövzusunda seminarı təşkil olundu.

Seminarda Təbiət elmləri və mühəndislik fakültəsinin dekanı Fəxrəndə Əlimərdanova, Fizika və elektronika departamentinin müəllimləri və tələbələr iştirak etdilər.

## SEMINAR OF PHD STUDENT OF PHYSICS AND ELECTRONICS DEPARTMENT

Currently, the limitation of hydrocarbon resources as a traditional energy source and the prevention of environmental pollution make it necessary to increase the amount of energy produced due to alternative and renewable energy sources in the world. In this direction, the use of solar, wind and other renewable energy sources is expanding in a number of countries. In this regard, on November 2, a seminar on "Synthesis, characterization of quantum dot nanoparticles and their application" of Babak Emdadi, a PhD student of the Department of Physics and Electronics of Khazar University, was organized.

Fakhranda Alimardanova, dean of the School of Science and Engineering, faculty members and students of the Department of Physics and Electronics took part in the seminar.

## BERLİN TEXNİKİ UNİVERSİTETİ DOKTORANTININ SEMİNARI

Noyabrın 3-də Təbiət elmləri, sənət və texnologiya yüksək təhsil fakültəsinin və Kompüter elmləri departamentinin təşkilatçılığı ilə "Maşın öyrənməsi (kompüter vizyonu) üçün data nişanlama prosesində kognitiv qərəzlilik və interfeys dizayn seçimləri" ("Cognitive biases and interface design choices in Data annotation for Computer Vision") adlı virtual seminar keçirildi.

Məruzəçi, Günay Kazımzadə "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə xaricdə doktorantura təhsili" proqramı çərçivəsində Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Xəzər Universiteti ilə üçtərəfli müqavilə əsasında Berlin Texniki Universitetində doktorantura təhsili alır.

## SEMINAR OF THE DOCTORAL STUDENT OF TECHNICAL UNIVERSITY OF BERLIN

On November 3, a virtual seminar entitled " Cognitive biases and interface design choices in Data annotation for Computer Vision" was organized by the Graduate School of Science, Arts and Technology and Computer Science department.

The speaker, Gunay Kazimzadeh, is pursuing her doctoral degree at the Technical University of Berlin under a tripartite agreement with the Ministry of Education of the Republic of Azerbaijan and Khazar University within the framework of the program "Doctoral study abroad on increasing the international competitiveness of the higher education system in the Republic of Azerbaijan for the years 2019-2023".

# ORTA DOĞU TEXNİKİ UNİVERSİTETİNİN NÜMAYƏNDƏLƏRİ "XƏZƏR"DƏ

Noyabrın 3-də Orta Doğu Texniki Universiteti ilə Xəzər Universiteti arasında görüş keçirilmişdir.

Görüşdə Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor, akademik Hamlet İsaxanlı, universitetin rektoru dosent İradə Xəlilova, Tədris işləri üzrə prorektor professor Məhəmməd Nuriyev, İdarəetmə və tələbə işləri üzrə prorektor İsaxan İsaxanlı, İctimai əlaqələr və media üzrə direktor Əlövsət Əmirbəyli, Təbiət elmləri, sənət və texnologiya yüksək təhsil fakültəsinin dekanı Səidə Şərifova, Humanitar, təhsil və sosial elmlər fakültəsinin dekanı Elza Səmədova, İqtisadiyyat və menecment fakültəsinin dekanı Ceyhun Məmmədov, Təbiət elmləri və mühəndislik fakültəsinin dekanı Fəxrəndə Əlimərdanova, Beynəlxalq əlaqələr ofisinin koordinatoru Fatimə Vəliyeva, Orta Doğu Texniki Universitetindən isə rektor Prof. Dr. Mustafa Verşan Kök və rektor yardımcısı Prof. Dr. Mehmet T. Zeyrek iştirak etmişlər.

Humanitar, təhsil və sosial elmlər fakültəsinin dekanı Elza Səmədova tərəfindən qonaqlara Xəzər Universiteti və fəaliyyəti haqqında geniş məlumat verilmişdir.

Görüşdə ikitərəfli əlaqələrin möhkəmləndirilməsinə dair müqavilə imzalanmış və təhsil müəssisələri arasında tərəfdaşlıq və akademik əlaqələrin gücləndirilməsi istiqamətində müzakirələr aparılmışdır.

İmzalanma mərasiminin sonunda tərəflər arasında hədiyyə mübadiləsi olmuşdur.

Qeyd edək ki, Orta Doğu Texniki Universiteti 1956-cı ildə Ankarada fəaliyyətə başlamışdır.




# MIDDLE EAST TECHNICAL UNIVERSITY REPRESENTATIVES AT KHAZAR UNIVERSITY

On November 3, a meeting was held between Middle East Technical University and Khazar University.

The meeting was attended by the founder of Khazar University, chairman of the Board of Directors and Trustees, professor, academician Hamlet Isakhanli, rector of the university associate professor Irade Khalilova, vice-rector for Educational Affairs professor Mahammad Nuriyev, vice-rector for Administration and Student Affairs Isakhan Isakhanli, director of Public Relations and Media Alovsat Amirbeyli, Saida Sharifova, dean of the Graduate School of Science, Arts and Technology, Elza Samadova, dean of the School of Humanities, Education and Social Sciences, Jeyhun Mammadov, dean of the School of Economics and Management, Fakhranda Alimardanova, dean of the School of Science and Engineering, Fatima Valiyeva, coordinator of the International Relations Office, Middle East Technical University rector Prof. Dr. Mustafa Varshan Kok and vice rector Prof. Dr. Mehmet T. Zeyrek.

Elza Samadova, Dean of the School of Humanities, Education and Social Sciences, provided detailed information about Khazar University and its activities.

The meeting concluded with an agreement on enhancing bilateral relations and discussions about strengthening academic and partnership relations.

At the end of the signing ceremony, gifts were exchanged between the parties.

Note that the Middle East Technical University was established in Ankara in 1956.

# *EDU COMPANY* TƏHSİL ŞİRKƏTİNİN İDARƏ HEYƏTİ İLƏ GÖRÜŞ

# MEETING WITH MANAGEMENT BOARD OF *EDU COMPANY*

Noyabrın 3-də Xəzər Universitetində *Edu Company* Təhsil Şirkətinin idarə heyəti ilə görüş keçirilib. Universitetin İdarəetmə və tələbələrlə iş üzrə prorektoru İsaxan İsaxanlı qonaqları salamlayıb və görüşü giriş sözü ilə açıb. Prorektor təhsil müəssisələrinin qarşılıqlı əməkdaşlığının zəruriliyi və əhəmiyyətini vurğulayıb. Universitetin professor-müəllim heyəti, maddi-texniki bazası, tələbə kontingenti və potensialı haqda geniş məlumat verib.

Universitetin İctimai əlaqələr və media üzrə direktoru Əlövsət Əmirbəyli universitetin beynəlxalq səviyyəli nüfuzu, ixtisaslar və məzunların iş imkanları barədə fikirlərini bölüşüb. Dillər və ədəbiyyatlar departamentinin müəllimi Ülvi Babasoy Xəzər Universieti haqda təqdimatla çıxış edib.

Edu Company Təhsil Şirkətinin təsisçisi və baş direktoru Samir Əzizov çoxşaxəli təhsil xidmətləri göstərən şirkətin yaranma tarixi, tədris prosesi, sınaq imtahanları və təhsillə bağlı layihələri haqqında geniş məlumat verib. Sonra Edu Company Təhsil Şirkətinin Neftçilər filialının direktoru Kənan Məmmədrzayev və Əhmədli filialının direktoru Səbuhi Musayev təhsillə əlaqəli yeni təklif və layihələrlə çıxış ediblər. Sonda tərəflər ortaq layihələrin keçirilməsi ilə bağlı razılığa gəliblər.





On November 3, a meeting with the management board of *Edu Company* was held at Khazar University. Isakhan Isakhanli, the vice-rector for Administration and Students Affairs of the university, welcomed the guests and opened the meeting with an introductory speech. The vice-rector emphasized the necessity and importance of mutual cooperation of educational institutions. He gave extensive information about the university's teaching staff, material and technical base, student contingent and potential.

Alovsat Amirbeyli, director of Public Relations and Media of the university, shared his views on the university's international reputation, qualifications and job opportunities for graduates. Ulvi Babasoy, the lecturer of the Department of Languages and Literatures, made a presentation about Khazar University.

Samir Azizov, the founder and CEO of Edu Company Education Company, gave information about the history of the company providing multifaceted education services, the educational process, test exams, and educational projects. Then, the director of the Neftchilar branch of the Edu Company Education Company, Kanan Mammadrzayev, and the director of the Ahmadli branch, Sabuhi Musayev, presented new proposals and projects related to education. In the end, the parties agreed on joint projects.





# "TEKNOFEST – 2023"- ə HAZIRLIQLA ƏLAQƏDAR İNFOSESSİYA

## INFORMATION SESSION ON PREPARATION FOR "TEKNOFEST - 2023"

"Teknofest – 2023" Texnologiya və Aerokosmik Festivalında iştirak etməyi planlaşdıran tələbələrin müsabiqə haqqında ətraflı məlumatlar əldə etməsi məqsədilə noyabrın 8-i və 15-də infosessiyalar keçirilmişdir. İnfosessiyalar "CanSat America – 2016"-da komanda kapitanı, "CanSat Azerbaijan – 2018-2021" və "Teknofest Azərbaycan – 2022" müsabiqələri çərçivəsində CanSat və Sərbəst PUA kateqoriyaları üzrə layihə rəhbəri olmuş İlkin Nağıyev tərəfindən aparılmışdır.

İnfosessiyalar zamanı müsabiqə sənədlərində diqqət yetirilməli məqamlar, müsabiqə mərhələləri və tələb olunan sənədlərə yanaşma, komanda strukturunun təyin olunması metodları, komandanın idarə olunması, yarışma müddətində proseslərə nəzarət və s. mövzular haqqında geniş məlumat tələbələrin nəzərinə çatdırıldı və onların sualları cavablandırıldı.

Information sessions were held on November 8 and 15, to give detailed information about the competition to the students planning to participate in the "Teknofest - 2023" Technology and Aerospace Festival. The information sessions were conducted by Ilkin Naghiyev, who was the team captain at "CanSat America - 2016", the project leader of the CanSat and Free UAV categories within the framework of the "CanSat Azerbaijan - 2018-2021" and "Teknofest Azerbaijan - 2022" competitions.

During the information sessions, students were informed about points to be paid attention to in the competition documents, the stages of the competition and the approach to the required documents, the methods of determining the team structure, team management, process control during the competition, and their questions were answered.

# XƏZƏR UNİVERSİTETİ PROFESSORUNUN MƏKTƏBLİLƏRİN OLİMPİADALARA HAZIRLANMASINDA İŞTİRAKI

## KHAZAR UNIVERSITY PROFESSOR'S PARTICIPATION IN PREPARING SCHOOLCHILDREN FOR OLYMPICS

Riyaziyyat fənni üzrə olimpiadalara hazırlıq prosesinin təkmilləşdirilməsi və məktəblilərin beynəlxalq olimpiada nailiyyətlərinin daha da yüksəldilməsi məqsədilə Heydər Əliyev adına Müasir Təhsil Kompleksində 8-11-ci sinif şagirdləri üçün payız düşərgəsi təşkil edilib.

Xəzər Universitetinin professoru, əməkdar müəllim Nazim Kərimov, ADA Universitetinin dosenti Yaqub Əliyev, beynəlxalq olimpiadaya hazırlıq komandasının müəllimləri İsmət Ağayev və Vüqar Quliyev 4 gün ərzində düşərgə iştirakçılarına yeni mövzuları və əvvəlki olimpiadalarda təqdim olunan sualları izah ediblər.

*AZƏRTAC* və digər saytlar bu barədə xəbər yayımlayıblar.

In order to improve the process of preparation for the Olympiads in mathematics and further increase the international Olympiad achievements of schoolchildren, an autumn camp was organized for students of the 8th-11th grades in the Modern Education Complex named after Heydar Aliyev.

Khazar University professor, honored teacher Nazim Karimov, ADA University associate professor Yagub Aliyev, Ismet Agayev and Vugar Guliyev, teachers of the preparation team for the international Olympiad, explained new topics and questions presented in previous Olympiads to the camp participants for 4 days.

*AZERTAC* and other websites published news about it.

***https://azertag.az/xeber/Yuxari_sinif_sagirdleri_uchun_payiz_dusergesi_teskil_edilib-2370722***



# AZƏRBAYCANIN MƏŞHUR MUĞAM USTADI ARİF BABAYEVLƏ EVİNDƏ GÖRÜŞ

# MEETING AT THE HOME OF ARIF BABAYEV, THE FAMOUS AZERBAIJANI MUGHAM MASTER

Noyabrın 6-da Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri, professor, akademik Hamlet İsaxanlı, İctimai əlaqələr və media üzrə direktor Əlövsət Əmirbəyli, kamança ustası, Xalq artisti, professor Mirnazim Əsədullayev Azərbaycanın görkəmli muğam ustadı, Xalq artisti, Milli Konservatoriyanın muğam kafedrasının müdiri, Xəzər Universitetinin müəllimi professor Arif Babayevlə evində görüşmüşlər.

Böyük məmnuniyyətlə qarşılanan qonaqlar xanəndənin səhhəti ilə maraqlanmış, səmimi söhbət etmiş, xoş xatirələri yada salmış, ona cansağlığı, uzun ömür arzulamışlar. Ustad sənətkar onu yad edib gəldiklərinə görə qonaqlara dərin təşəkkürünü bildirmişdir.

On November 6, the founder of Khazar University, chairman of the Board of Directors and Trustees, professor, academician Hamlet Isakhanli, director of Public Relations and Media Alovsat Amirbeyli, kamancheh master, People's Artist, professor Mirnazim Asadullayev, met with prominent mugham master of Azerbaijan, People's Artist, head of the Mugham Department of the National Conservatory, the lecturer of Khazar University professor Arif Babayev, at his home.

The guests, who were given a warm welcome, inquired about the singer's health, had pleasant conversations, recalled fond memories, and wished him good health and a long life. The master artist thanked the guests for coming to remember him. He thanked the guests for honoring him by attending.





# *CINTANA EDUCATION* ŞİRKƏTİNİN NÜMAYƏNDƏSİ İLƏ GÖRÜŞ

# MEETING WITH A REPRESENTATIVE OF *CINTANA EDUCATION*

Noyabrın 8-də Bakıdakı Hilton hotelində Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor, akademik Hamlet İsaxanlının ABŞ-ın *Cintana Education* şirkətinin Şərqi Avropa və Mərkəzi Asiya üzrə rəhbəri Çağrı Bağcıoğlu ilə görüşü oldu, beynəlxalq təhsil sahəsində müzakirələr aparıldı.

Görüşdə Xəzər Universitetinin İctimai əlaqələr və media üzrə direktoru Əlövsət Əmirbəyli və Türkiyənin Bilgi Universitetinin müəllimi Ural Aküzüm iştirak etdilər.

On November 8, professor,academician Hamlet Isakhanli, founder of Khazar University, chairman of the Board of Directors and Trustees, met with Chaghri Baghcioghlu, the head of Eastern Europe and Central Asia of *Cintana Education* of the USA, at the Hilton Hotel in Baku, and discussions were held in the field of international education.

Alovsat Amirbeyli, director of Public Relations and Media of Khazar University, and Ural Akuzum, the lecturer of Bilgi University of Turkey, took part in the meeting.

## XƏZƏR UNİVERSİTETİNİN PROFESSORUNUN *MODERATOR.AZ*-A MÜSAHİBƏSİ

## KHAZAR UNIVERSITY PROFESSOR'S INTERVIEW WITH *MODERATOR.AZ*

2022-ci il oktyabrın 25-də *moderator.az* saytı Xəzər Universitetinin professoru, görkəmli bəstəkar Cavanşir Quliyevlə müsahibəni dərc etmişdir.

Müsahibədə professor uzun illər xaricdə - Şimali Kipr Respublikasındakı həyat və fəaliyyətindən, Azərbaycana dönməsinin səbəblərindən və yaradıcılıq planlarından danışmışdır.

On October 25, 2022, the *moderator.az* website published an interview with Khazar University professor and prominent composer Javanshir Guliyev.

In the interview, the professor talked about his life and activities abroad for many years - in the Republic of Northern Cyprus, the reasons for his return to Azerbaijan and his creative plans.

***https://moderator.az/az/ekskluziv/564018/brilliant-dadasova-aygun-kazimova-zulfiyye-xanbabayeva-akif-islamzade-hec-biri-gedib/***

## DEPARTAMENT MÜDİRİ *ARB24* KANALININ “XƏBƏRLƏR” PROQRAMINDA

## DEPARTMENT HEAD IN “NEWS” PROGRAM OF *ARB24*

2022-ci il oktyabrın 28-də Xəzər Universiteti Tarix və arxeologiya departamentinin müdiri Telman Nüsrətoğlu *arb24* kanalının “Xəbərlər” proqramında canlı yayım qonağı olmuş, Cənubi Qafqaz uğrunda gedən geosiyasi mübarizələri, Azərbaycanla-Ermənistan arasında davam edən sülh müzakirələrinin gedişini geniş şəkildə tamaşaçılar üçün şərh etmişdir.

On October 28, 2022, Khazar University History and Archeology Department Head Telman Nusratoghlu was a live broadcast guest of *arb24* channel's News program. He broadly commented on the geopolitical struggles for the South Caucasus, the ongoing peace talks between Azerbaijan and Armenia.

## TELMAN NÜSRƏTOĞLUNUN AZƏRBAYCAN TELEVİZİYALARINDA ÇIXIŞI

## SPEECH OF TELMAN NUSRATOGLU ON AZERBAIJANI TELEVISIONS

Xəzər Universiteti Tarix və arxeologiya departamentinin müdiri Telman Nüsrətoğlu 2022-ci il noyabrın 2-də *arb24, AZTV* radiosunun “Xəbərlər” proqramı və *AZTV*-nin “Əsas məsələ” verilişində çıxış edərək, Azərbaycan Xüsus Təyinatlı Qüvvələrinin ölkənin cənub sərhədində təlimləri, dövlət başçısı cənab İlham Əliyevin Əlcəzairdən verdiyi önəmli məsajları, Rusiya-Türkiyə arasında davam edən taxıl diplomatiyası, regionda və dünyada baş verən digər prosesləri şərh etmişdir.

On November 2, Telman Nusratoghlu, head of Khazar University's History and Archeology department, spoke on *arb24, AZTV* radio's “News” program and *AZTV*'s “Main Issue” program.

He commented on the military drills of the Azerbaijani Special Forces on the southern border of the country, the important messages of the head of state Mr. Ilham Aliyev from Algeria, the ongoing grain diplomacy between Russia and Turkey, and other processes taking place in the region and the world.

# "XƏZƏR"İN KOMANDASI "TECHSTARS STARTUP WEEKEND FINTECH BAKU" HAKATONUNDA QALİBLƏR ARASINDA

# KHAZAR UNIVERSITY TEAM AMONG THE WINNERS OF "TECHSTARS STARTUP WEEKEND FINTECH BAKU" HACKATHON




Noyabrın 4-6-da PAŞA Bank-ın və SUP VC şirkətinin təşkilatçılığı ilə "Fintech" mövzusunda keçirilmiş "Techstars Startup Weekend Fintech Baku" (Baku Startup Weekend) hakatonunda Təbiət elmləri və mühəndislik fakültəsi Kompüter mühəndisıyi ixtisasının 2-ci kurs tələbələri - Lalə Məhərrəmova, Leyla Abışlı, Zeynal Mərdanlı və Nihat İsmayılovdan ibarət komanda 2-ci yeri qazanmışdır. Komandaya Kompüter elmləri departamentin müəllimi Fariz Həsənov rəhbərlik etmişdir.

Hakaton ümumilikdə 3 gün davam edib. Tədbirin ilk günündə müxtəlif ideyalar səsləndirən iştirakçılar komandalara bölünərək, növbəti iki gün ərzində öz layihələri üzərində çalışıblar.

70 komandadan 10 komanda finalda iştirak hüququnu qazanıb. Sonuncu gün münsiflər heyətinin qarşısında öz layihələrini təqdim edən komandalardan 3-ü ən yüksək bal toplayaraq, qalib hesab edilib və hədiyyələrlə təltif olunub.

On November 4-6, 2022, at the "Techstars Startup Weekend Fintech Baku" (Baku Startup Weekend) hackathon on "Fintech" organized by PASHA Bank and SUP VC company, the team consisting of 2nd year students of Computer Engineering, School of Science and Engineering - Lala Maharramova, Leyla Abishli, Zeynal Mardanli and Nihat Ismayilov won the 2nd place. The team was led by Fariz Hasanov, the lecturer of the Computer Science department.

Hackathon lasted 3 days in total. On the first day of the event, participants who voiced different ideas were divided into teams and worked on their projects for the next two days.

Out of 70 teams, 10 teams won the right to participate in the finals. On the last day, 3 of the teams that presented their projects to the jury with the highest scores were considered winners and awarded with gifts.

## "XƏZƏR"İN PIANOÇU ƏMƏKDAŞI ALMATI ŞƏHƏRİNDƏ ZƏFƏR GÜNÜ TƏDBİRİNDƏ

Noyabrın 8-də Qazaxıstanın Almatı şəhərində Zəfər Günü və Azərbaycan Respublikası ilə Qazaxıstan Respublikası arasında diplomatik münasibətlərin qurulmasının 30-cu ildönümü münasibətilə təntənəli tədbir keçirilmişdir.

Tədbirdə Azərbaycanın Qazaxıstandakı səfiri Ağalar Atamoğlanov, Qazaxıstanın xalq yazıçısı, ictimai xadim, hər zaman Azərbaycanı dəstəkləyən Oljas Süleymenov, diplomatik nümayəndəliklərin üzvləri, AR Milli Məclisinin deputatları, ictimai-siyasi xadimlər, Azərbaycan diasporunun nümayəndələri iştirak etmişdir.

Səfir Ağalar Atamoğlanov qonaqları salamlayaraq, Azərbaycan xalqının tarixinin şanlı səhifəsini təşkil edən 8 Noyabr - Zəfər Günü münasibətilə təbrik etmişdir. Ermənistanın 30 ilə yaxın davam edən işğal siyasəti, şanlı qələbəmizə gedən yol, 44 günlük Vətən Müharibəsi və hazırda azad olunmuş ərazilərimizdə aparılan bərpa və yenidənqurma işləri barədə məlumat vermişdir.

Digər rəsmi çıxışlarla tədbirin rəsmi hissəsi bitdikdən sonra Azərbaycanın xalq artistləri, xanəndə Mələkxanım Əyyubova, tarzən Möhlət Müslümov, kamança ifaçısı Fəxrəddin Dadaşov, Azərbaycan Akademik Opera və Balet Teatrının opera müğənnisi, Azərbaycanın əməkdar artisti İlahə Əfəndiyeva, pianoçu, beynəlxalq müsabiqələr laureatı Zülfiyyə Sadıqova (Xəzər Universiteti Musiqi və incəsənət departamentinin müdiri, əməkdar müəllim), həmçinin, Qazaxıstanın "Saltanat" dövlət rəqs ansamblı və "Bahar" ansamblı xüsusi konsert proqramı ilə çıxış etmişlər.

## PIANIST EMPLOYEE OF KHAZAR UNIVERSITY AT VICTORY DAY EVENT IN ALMATY

On November 8, 2022, in the city of Almaty, Kazakhstan, a solemn event was held on the occasion of the Victory Day and the 30th anniversary of the establishment of diplomatic relations between the Republic of Azerbaijan and the Republic of Kazakhstan.

Ambassador of Azerbaijan to Kazakhstan Aghalar Atamoghlanov, national writer of Kazakhstan, public figure Oljas Suleymenov, who always supports Azerbaijan, members of diplomatic missions, members of the Milli Majlis of the Republic of Azerbaijan, public and political figures, representatives of the Azerbaijani diaspora took part in the event.

Ambassador Aghalar Atamoglanov greeted the guests and congratulated them on November 8 - Victory Day, which is a glorious page in the history of the Azerbaijani people. He gave information about Armenia's 30-year-long occupation policy, the path to our glorious victory, the 44-day Patriotic War, and the restoration and reconstruction works currently being carried out in our liberated territories.

Following the official part of the event and other official speeches, national artists of Azerbaijan, singer Melakkhanim Ayyubova, tarzan Mohlat Muslimov, kamancha player Fakhreddin Dadashov, opera singer of Azerbaijan Academic Opera and Ballet Theater, honored artist of Azerbaijan Ilaha Efendiyeva, pianist, laureate of international competitions Zulfiya Sadygova (head of Khazar University Music and Art Department, honored teacher), also state dance ensemble "Saltanat" and the ensemble "Bahar" of Kazakhstan performed at a special concert program.

## XƏZƏR UNİVERSİTETİ PROFESSORUNUN MƏKTƏBLİLƏRİN OLİMPİADALARA HAZIRLANMASINDA İŞTİRAKI

## KHAZAR UNIVERSITY PROFESSOR'S PARTICIPATION IN PREPARING SCHOOLCHILDREN FOR OLYMPICS

Riyaziyyat fənni üzrə olimpiadalara hazırlıq prosesinin təkmilləşdirilməsi və məktəblilərin beynəlxalq olimpiada nailiyyətlərinin daha da yüksəldilməsi məqsədilə Heydər Əliyev adına Müasir Təhsil Kompleksində 8-11-ci sinif şagirdləri üçün payız düşərgəsi təşkil edilib.

Xəzər Universitetinin professoru, əməkdar müəllim Nazim Kərimov, ADA Universitetinin dosenti Yaqub Əliyev, beynəlxalq olimpiadaya hazırlıq komandasının müəllimləri İsmət Ağayev və Vüqar Quliyev 4 gün ərzində düşərgə iştirakçılarına yeni mövzuları və əvvəlki olimpiadalarda təqdim olunan sualları izah ediblər.

Düşərgə noyabrın 11-də işini başa çatdırıb.

*AZƏRTAC* və digər saytlar bu barədə xəbər yayımlayıblar.

In order to improve the process of preparation for the Olympiads in mathematics and further increase the international Olympiad achievements of schoolchildren, an autumn camp was organized for students of the 8th-11th grades in the Modern Education Complex named after Heydar Aliyev.

Khazar University professor, honored teacher Nazim Karimov, ADA University associate professor Yagub Aliyev, Ismet Agayev and Vugar Guliyev, teachers of the preparation team for the international Olympiad, explained new topics and questions presented in previous Olympiads to the camp participants for 4 days.

The camp finished its work on November 11.

*AZERTAC* and other websites published news about it.

***https://azertag.az/xeber/Yuxari_sinif_sagirdleri_uchun_payiz_dusergesi_teskil_edilib-2370722***

## UNİVERSİTETİN BASKETBOL KOMANDASI İLƏ GÖRÜŞ

## A MEETING WITH THE UNIVERSITY'S BASKETBALL TEAM

Noyabrın16-da Xəzər Universitetinin basketbol komandasının heyəti ilə görüş keçirildi. Universitetin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor, akademik Hamlet İsaxanlı görüşü açaraq, komandanın bu günə kimi qazandığı qələbələrin fərəhləndirici olduğunu və qarşıdakı görüşlərdə də qələbə əldə etmək üçün böyük stimul olacağına əminliyini bildirdi.

Baş məşqşi Anar Hacıyev komanda üzvlərini təqdim edərək, komanda haqqında, keçirilmiş oyunlar və bundan sonrakı əsas yarışlar haqqında geniş məlumat verdi. Universitetin rektoru İradə Xəlilova komanda üçün bu günə kimi görülən işlərdən danışdı. Sonra komanda üzvləri istək və arzularını bildirdilər.

Görüşdə Akademik işlər üzrə prorektor Məhəmməd Nuriyev, İdarəetmə və tələbə işləri üzrə prorektor İsaxan İsaxanlı, İctimai əlaqələr və media üzrə direktor Əlövsət Əmirbəyli, departament müdirləri və digərləri iştirak etdilər. Sonda xatirə şəkilləri çəkildi.

On November 16, 2022, a meeting was held with the Khazar University basketball team. Professor Hamlet Isakhanli, founder of the university, chairman of the Board of Directors and Trustees, opened the meeting and expressed his confidence that the team's victories so far are encouraging and will be a great incentive to win in the upcoming meetings.

The senior coach Anar Hajiyev introduced the team members and gave detailed information about the team, the games played and the next major competitions. Rector of the university, Irada Khalilova, spoke about the work done for the team so far. Then the team members expressed their wishes and desires.

The meeting was attended by vice-rector for Academic Affairs Mahammad Nuriyev, vice-rector for Administration and Student Affairs Isakhan Isakhanli, director for Public Relations and Media Alovsat Amirbeyli, department heads and others. At the end, memory photos were taken.





## MALDİV ADALARINDA ÜZƏN ŞƏHƏR SALINACAQ

Maldiv Respublikasının paytaxtı Male yaxınlığında salınacaq yeni rayon 20 minə qədər insanın yaşadığı minlərlə evi ehtiva edəcək. Burada, həmçinin dünya səviyyəli hotellər, restoranlar, butiklər və körpülərin yerləşdirilməsi ehtimal edilir. O, bir neçə altıbucaq formalı üzən qurğudan ibarət olacaq və dünyanın ada şəklində inşa edilən ilk su şəhəri olacaq.

Ənənəvi Maldiv dənizçilik mədəniyyətindən ruhlanan layihənin işlənib-hazırlanmasına 2009-cu ildə başlanılıb, 2027-ci ilə qədər isə iş tam başa çatdırılmalıdır. Layihə Hollandiyanın "Waterstudio" memarlıq firması tərəfindən Maldiv adaları hökuməti və Hollandiyanın "Dutch Docklands" əmlak istehsalçısı ilə tərəfdaşlıq şəraitində hazırlanır.

Üzən şəhərin tikintisi ekoloji səbəblərdən, yəni, qlobal istiləşmə ilə bağlı dəniz səviyyəsinin qalxmasından qaynaqlanır. Maldiv adalarının 80 faizi dəniz səviyyəsindən bir metrdən az hündürlüyündə yerləşir və proqnozlara görə, arxipelaqın əksəriyyəti su altında qalaraq, 2100-cü ilə qədər yaşayış üçün yararsız hala düşəcək.

Şəhəri layihələndirən mühəndislər bir çox məsələləri həll etməli və ilk növbədə təhlükəsizliyi təmin etməli olublar. Bu, üzən qurğunun yaradılmasında xüsusilə vacibdir. "Təbiət qüvvəsini, dalğaları, ekstremal hava şəraiti və 100 illik proqnoz üçün dəniz səviyyəsinin qalxması əvvəlcədən nəzərə alınmalıdır", – "Waterstudio" saytında deyilir.

Şəhərin dizaynı həm də beyin mərcanları adlanan Faviidae ailəsinin mərcanlarından ruhlanıb. Bu dəniz orqanizmləri kürəvi forması və riflənmiş səthi ilə insan beyninə bənzər koloniyalar təşkil edir. Layihənin ekoloji təmizliyi də əsas məsələlərdən biridir. Təbii mərcan artımını təşviq etmək üçün üzən şəhərin aşağı hissəsinə süni mərcan sahilləri yapışdırılacaq.

Ehtimal olunur ki, üzən şəhərdə əsas nəqliyyat qayıqlar olacaq, buna görə də burada çoxlu kanallar tikiləcək. Avtomobillər isə heç olmayacaq - yalnız velosipedlər, elektrik arabaları və skuterlər.

Əmlak satışları tezliklə başlayacaq və ilk sakinlərin adaya 2024-cü ildə köçə biləcəyi gözlənilir. Hər iqamətgahın 100 kvadratmetr sahəsi, öz körpüsü və dam terrası olacaq.

*AZƏRTAC*

# QƏBUL QAYDALARI

## DÜNYA MƏKTƏBİ

Məktəbə qəbul müsabiqə yolu ilə həyata keçirilir. Müsabiqədə iştirak etmək üçün məktəbə gəlməklə, bizə zəng etməklə və ya online qeydiyyatdan keçə bilərsiniz. **http://e.dunyaschool.az/sagirdqebulu**
Müsabiqədə şagirdlərin təhsil aldıqları sinfə uyğun bilik səviyyəsi, sağlamlığı, maraq dairəsi əsas götürülür. Hər bir şagirdin fərdi xüsusiyyətlərini öyrənmək üçün valideynlərlə söhbətlər aparılır.
Qəbul imtahanında ən yüksək nəticə göstərən VIII-XI sinif şagirdləri təqaüd imkanı qazanırlar.
İngilis bölməsində tədris Beynəlxalq Bakalavr Təşkilatının (IB) ibtidai (PYP), orta məktəb (MYP) və Diplom proqramları (DP) əsasında qurulur.
Diplom proqramında təhsil müddəti iki ildir (X, XI siniflər).
Azərbaycan və rus bölmələrinə ingilis dili ikinci dil kimi beynəlxalq standartlara uyğun tədris olunur. Şagirdlərin seçimi ilə fransız, alman və ya çin dili də öyrədilir.
Dünya məktəbində fikirləşməyi öyrətmək prinsipi əsas götürülür və tədris prosesinin təşkili bu yönümdə qurulur. Siniflərdə şagird sayının az olması hər bir şagirdə fərdi yanaşmağa imkan yaradır.
Sağlam əsaslar üzərində qurulmuş ciddi nizam-intizam təlim-tərbiyə prosesinin yüksək səviyyədə təşkilinə kömək edir.

## DÜNYA ANA MƏKTƏBİ

Ana məktəbinə qəbul zamanı hər bir uşağın fərdi xüsusiyyətlərini öyrənmək üçün məktəbin psixoloqu valideynlərlə fərdi söhbətlər aparır. Uşaqlar psixoloji müayinədən və həkim müayinəsindən keçirilir.
Uşaqların sağlamlığı, normal qavrama qabiliyyəti, səlis nitqi və maraq dairəsi əsas götürülür.

Məktəbə qəbul ediləcək şagirdlər "Şagird qəbulu üzrə məktəbdaxili komissiya"nın rəyi əsasında müəyyən edilir və məktəb rəhbərinin əmri ilə rəsmiləşdirilir.

### QƏBUL ÜÇÜN TƏLƏB OLUNAN SƏNƏDLƏR:

- Ərizə
- 4 ədəd fotoşəkil (3x4, rəngli)
- Doğum haqqında şəhadətnamənin surəti
- Şəxsiyyət vəsiqəsi
- Tibbi arayış
- Yaşayış yeri haqqında arayış
- Valideynın iş yeri haqqında arayış

Ünvan: Binəqədi rayonu,
Əcəmi Naxçıvani 9
Tel: +994 12 563 59 40/47/48

# XƏZƏR UNİVERSİTETİ

HƏR GÜN, HƏR SAAT MÜKƏMMƏLLİYƏ DOĞRU!

## NİYƏ XƏZƏR UNİVERSİTETİ?

- Diplomların bütün xarici ölkələrdə tanınması
- Dövlət sifarişi əsasında təhsil almaq imkanı
- Eyni vaxtda 2 ixtisas üzrə təhsil almaq imkanı
- Təhsil haqqının Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinin (keçmiş TQDK) imtahanlarında yığılan ballara uyğun olaraq ödənilməsi
- Təhsil haqqının hissə-hissə ödənilməsi
- Zəngin kitabxana, innovativ laboratoriyalar, müasir informasiya-kommunikasiya texnologiyaları infrastrukturunun varlığı
- Dövlət sifarişi və ya ödənişli təhsil almalarından asılı olmayaraq, təhsildə göstərdikləri nailiyyətlərə görə təqaüd almaq imkanı
- Əlavə ödəniş etmədən təhsilinin bir hissəsini Amerika, Avropa və Asiyanın tanınmış ali məktəblərində davam etdirmə imkanı
- Keyfiyyətli və əhatəli tələbə xidmət sistemi (həkim, psixoloji mərkəz, karyera-işə düzəlmə mərkəzi və s.)
- Yüksək standartlara cavab verən müasir yataqxana

### TƏHSİL HAQQININ ÖDƏNİLMƏSİNDƏ GÜZƏŞTLƏR

650-700 bal - təhsil haqqından tam azad edilir
600-649 bal - təhsil haqqının ödənilməsində 50% güzəşt edilir
550-599 bal - təhsil haqqının ödənilməsində 40% güzəşt edilir
500-549 bal - təhsil haqqının ödənilməsində 25% güzəşt edilir
450-499 bal - təhsil haqqının ödənilməsində 20% güzəşt edilir
400-449 bal - təhsil haqqının ödənilməsində 15% güzəşt edilir
350-399 bal - təhsil haqqının ödənilməsində 10% güzəşt edilir

Uğurlu karyera qurmaq, təhsildən zövq almaq və yadda qalan tələbə həyatı yaşamaq istəyirsən?

**Xəzər Universitetini seç!**

## BAKALAVR SƏVİYYƏSİNDƏ İXTİSASLARIMIZ

### 1 QRUP

* Kompüter elmləri
* Kompüter mühəndisliyi
* Neft-qaz mühəndisliyi
* İnşaat mühəndisliyi
* Radiotexnika və telekommunikasiya mühəndisliyi
* Elektrik və elektronika mühəndisliyi
* Kimya mühəndisliyi
* Mexanika mühəndisliyi
* Riyaziyyat və informasiya müəllimliyi
* Fizika müəllimliyi

### 2 QRUP

* Mühasibat
* Maliyyə
* İqtisadiyyat
* Menecment
* Marketinq
* Biznesin idarə edilməsi
* Turizm işinin təşkili
* Regionşünaslıq (Avropa)
* Beynəlxalq münasibətlər
* Coğrafiya müəllimliyi

### 3 QRUP

* İngilis dili və ədəbiyyatı
* Azərbaycan dili və ədəbiyyatı
* Tərcümə (ingilis dili)
* Politologiya
* İngilis dili müəllimliyi
* Azərbaycan dili və ədəbiyyatı müəllimliyi
* İbtidai sinif müəllimliyi
* Tarix müəllimliyi
* Tarix və coğrafiya müəllimliyi

### 4 QRUP

* Kimya müəllimliyi
* Biologiya müəllimliyi
* Kimya və biologiya müəllimliyi
* Psixologiya
* Baytarlıq təbabəti

### 5 QRUP

* Dizayn
* Təsviri incəsənət müəllimliyi